RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 283 (8876) ÇƏRŞƏNBƏ AXŞAMI, 28 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev sözü:

## Taxtakörpüdən Şuşayadək...

### 50-də verilən vəd, 60-da gerçəkləşən məram

"...Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq..."

Prezident İlham Əliyevin Azərbaycan xalqına söz verdiyi və sərkərdə qətiyyəti ilə cəmi 44 gün ərzində həyata keçirdiyi kimi, biz artıq həmin müqəddəs günlərin xoşbəxtliyini yaşayırıq...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"unun bir həmlədə düşmənin başını əzməsi ilə dədə-baba torpaqlarından məcburi köçkün düşmüş yüzminlərlə insan tezliklə Qarabağa, Şərqi Zəngəzura qayıdaraq, doğma yurdda xoşbəxt həyat sürəcəyinin sevinci içərisindədir...

Düz 30 il idi ki, bu insanlar vətəndə qəribçiliyin ağır yükünü çəkirdilər, yurd həsrətlərini, nisgillərini xatirələrlə, röyalarla birtəhər ovutmağa çalışırdılar. Amma bir gün mütləq o doğma torpaqlara qayıdacaqlarına da əmin idilər. El-obasından zorla didərgin salınan bütün keçmiş məcburi köçkünlərin qəlbində olan doğma yurda qayıdış ümidini öləziməyə qoymayan güc isə ölkə Prezidenti İlham Əliyevə olan böyük inamdan, güvəndən doğurdu.

Ardı 9-cu səh.

## Prezident İlham Əliyev AZƏRTAC-ın yeni binası ilə tanış olub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın yeni binası ilə tanış olub.

Bax: səh. 2

## Ali Baş Komandan hərbi qulluqçuları təltif etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il noyabrın 16-da Kəlbəcər və Laçın rayonları ərazisindəki Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin təxribatlarının və hücumlarının qarşısının alınması, dövlət sərhədinin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə verilən döyüş tapşırığını uğurla yerinə yetirmiş, öz xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən şücaət və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusunu orden və medallarla təltif etmişdir.

Bax: səh. 6

## Birinci Qarabağ savaşının salyanlı qaziləri Prezidentin fərmanını yüksək dəyərləndirirlər

Ötən əsrin 80-ci illərinin sonunda erməni separatçıları yenidən baş qaldırdılar. Niyyətləri 200 ildən bəri türklərə qarşı ürəklərində gəzdirdikləri düşmənçiliyə yenidən rəvac vermək, ərazilərimizi işğal etmək idi.

Xaricdəki və daxildəki havadarlarına arxalanaraq Qarabağı işğal etmək üçün hərəkətə keçdilər. O zaman respublikamızda yaşanan özbaşınalıq, xaos, hərc-mərclik işlərinə yarayırdı. Lakin Azərbaycan da igid, Vətənini sevən oğullardan xali deyildi.

Ardı 8-ci səh.

# Prezident İlham Əliyev AZƏRTAC-ın yeni binası ilə tanış olub













Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın yeni binası ilə tanış olub.





AZƏRTAC xəbər verir ki, Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanov dövlətimizin başçısına binada yaradılan şəraitlə bağlı məlumat verdi.

Bildirildi ki, yeni bina Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən Bakının Atatürk prospekti, 70 ünvanında inşa olunub. Bina zirzəmi qatı (avtodayanacaq) ilə birlikdə 9 mərtəbədən ibarətdir. Müasir standartlara uyğun inşa olunmuş və 8 ballıq zəlzələyə davamlı binada yüksək təhlükəsizlik tədbirləri görülüb, yanğından mühafizə və yanğın xəbərverici sistemlər quraşdırılıb, hər birinin 100 ton tutumu olan 2 yeraltı ehtiyat su anbarı tikilib.

Səkkizguşəli ulduz formasında layihələndirilmiş binanın birinci mərtəbəsində Ulu Öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderimizin, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştirakını, yerli və xarici mediaya müsahibələrini, Müzəffər Ali Baş Komandanımızın İkinci Qarabağ müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotostendlər yaradılıb, AZƏRTAC-ın müxtəlif dövrlərdə istifadə etdiyi texniki avadanlıqların nümunələrindən ibarət muzey təşkil olunub.

Qeyd edilib ki, ilk xəbəri 1920-ci il martın 2-də işıq üzü görən agentlik Azərbaycan Xalq Cümhuriyyətində baş verən hadisələri, hökumətin gördüyü işləri cəmi 58 gün işıqlandıra bilib. Sovet dönəmində isə ictimai-siyasi hadisələrdən asılı olaraq, fərqli aqibətlə üzləşib, adı 7 dəfə dəyişikliyə məruz qalıb.

Ulu Öndər Heydər Əliyevin respublikada hakimiyyətə ilk gəlişinə qədər, bir növ, arxa planda qalan AZƏRTAC məhz Ümummilli Liderin iradəsi, şəxsi nüfuzu və qayğısı hesabına keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında qabaqcıl yerə çıxıb. Yeni binanın muzey hissəsində nümayiş olunan eksponatlar bunu əyani şəkildə sübut edir. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompüterləşdirilən informasiya agentliyi AZƏRTAC olub. Texniki təchizata öz dövrünün ən müasir "T-100" teletaypını və İtaliyanın Olivetti şirkətinin kompüterlərini də əlavə etmək olar. Uzaq məsafələrə rəsmi sənədlərin - qərar, fərman və sərəncamların birbaşa ötürülməsinə imkan verən bu avadanlıqla ən çox təchiz olunan üç agentlikdən biri məhz AZƏRTAC idi.

Müstəqillik illərində də Ulu Öndər Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a xüsusi qayğı ilə yanaşırdı. 1995-ci il martın 3-də agentliyin yenidən təşkil edilməsi haqqında imzaladığı fərmanla AZƏRTAC-a dövlət informasiya orqanı statusu verilir, büdcə vəsaiti ayrılır, beynəlxalq informasiya məkanına çıxmaq qarşıya əsas vəzifə kimi qoyulur. Məhz həmin dövrdən AZƏRTAC regional və beynəlxalq media qurumları ilə sıx əlaqələr qurmağa başlayır.

Bu strateji xətt dövlət başçısı İlham Əliyevin hakimiyyəti dövründə də uğurla davam etdirilir. Hazırda Azərbaycan AZƏRTAC-ın timsalında Dünya Xəbər Agentlikləri Şurasının səsvermə hüququna malik 13 üzvündən biridir. AZƏRTAC Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) vitse-prezident və İslam Ölkələri Xəbər Agentlikləri Təşkilatında (UNA) büro üzvüdür.

Hazırda informasiya məkanında yeni çağırışlara adekvat cavab vermək üçün müasir texnika və avadanlıqlarla təchizat vacibdir. Ən müasir texnoloji avadanlıqların və ofis inventarlarının quraşdırıldığı yeni binada yaradıcı və texniki heyətin səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada beynəlxalq standartlara uyğun xəbər zalları, multimedia vasitələri ilə təchiz olunmuş studiyalar qurulub, operativ "dəyirmi masa", teleizləmə sistemi təşkil edilib. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün sinxron tərcümə avadanlığı ilə təchiz edilmiş 180 yerlik konfrans zalı, 90 yerlik yeməkxana, zəngin ədəbiyyat fondu olan kitabxana, tibb və idman otaqları yaradılıb.

İstirahət və bayram günləri də daxil olmaqla fasiləsiz rejimdə fəaliyyət göstərən AZƏRTAC-ın yeni binasının ayrıca transformator məntəqəsi, fövqəladə hallarda elektrik ehtiyacını ödəyən dizel generator stansiyası vardır. Müasir qazanxana sistemi binanın bütün fəsillərə uyğun mərkəzləşdirilmiş qaydada havalandırılmasını təmin edir. Binanın zirzəmi qatında və həyətində 60 avtomobil üçün dayanacaq yaradılıb, ərazi abadlaşdırılıb və yaşıllaşdırılıb, ətraf küçəyə asfalt döşənib.

Hazırda 7 regional və beynəlxalq media təşkilatının üzvü olan AZƏRTAC son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), Press Association (Böyük Britaniya), DPA (Almaniya), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası) və digər nüfuzlu milli xəbər yayımçıları var. Agentlik 8 dildə - Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan dillərində xəbərlər, eləcə də beş dildə videoxəbərlər yayır. AZƏRTAC-ın xarici ölkələrdə 21 müxbir məntəqəsi fəaliyyət göstərir.

Ötən əsrin 20-ci ilindən Azərbaycan tarixinə şahidlik edən AZƏRTAC hazırda XXI əsrin salnaməsini yazmaqdadır. Yeni binada yaradılan hərtərəfli şərait agentliyin bütün yaradıcı və texniki resurslarını ölkənin uğurları, o cümlədən azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumatları bundan sonra da daha geniş coğrafiyada yaymağa səfərbər edəcəyinə əminlik yaradır.

AZƏRTAC-ın yeni binası ilə tanışlıqdan sonra **Prezident İlham ƏLİYEV** dedi: Əməkdaşlara salam deyin.

Aslan Aslanov: Hamısının Sizə salamları var.

* * *

Azərbaycan Televiziyasının müxbirinin sualını cavablandıran **Aslan ASLANOV** deyib: Bu bina Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə tikilib. Cənab Prezidentin xüsusi diqqəti və qayğısı nəticəsində belə gözəl, yaraşıqlı bina ərsəyə gəlib. Bütövlükdə 225 əməkdaşın səmərəli çalışmaq, müasir texniki vasitələrdən, innovativ texnologiyalardan istifadə etmək imkanı var. Bu şərait kollektivimizi daha məhsuldar işləməyə səfərbər edib.

## Albert Lixanovun doğmalarına və yaxınlarına

Uşaq və gənclər ədəbiyyatının klassiki, görkəmli ictimai xadim, Azərbaycan xalqının böyük dostu Albert Anatolyeviç Lixanovun vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Hərtərəfli şəxsiyyət, istedadlı yazıçı və pedaqoq, bütün həyatını uşaqların müdafiəsi və dəstəklənməsi kimi nəcib missiyaya, böyüməkdə olan nəslin mənəvi tərbiyəsinə həsr etmiş geniş qəlbli insan aramızdan getdi. Albert Anatolyeviçin Rusiya Uşaq Fondunun rəhbəri vəzifəsində uzun illər boyu fədakarcasına fəaliyyəti təkcə Rusiyada deyil, bütün dünyada hamının hörmətini və rəğbətini qazanmışdır.

Albert Anatolyeviçin Heydər Əlirza oğlu Əliyev ilə birgə işinə qayğıkeş münasibətini Azərbaycanda həmişə yüksək qiymətləndiriblər. Bu birgə iş nəticəsində Sovet Uşaq Fondu yaradılıb. Ölkəmizin əsl dostu olan Albert Lixanov Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verib.

Bu gözəl insanın, görkəmli şəxsiyyətin xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

Bu əvəzolunmaz itki ilə əlaqədar səmimi başsağlığımı qəbul edin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 27 dekabr 2021-ci il*

## Yunanıstan Respublikasının Prezidenti zati-aliləri xanım Katerina Sakellaropuluya

Hörmətli xanım Prezident!

Yunanıstan Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Karolos Papulyasın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Karolos Papulyasın Azərbaycan-Yunanıstan əlaqələrinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirir, onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, mərhumun ailəsinə və bütün Yunanıstan xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

İsrail Dövləti və xalqı adından 60 illik yubileyiniz münasibətilə Sizə ən səmimi arzularımı çatdırmaqdan məmnunluq duyuram. Yəhudi ənənəsində deyildiyi kimi, 120 il yaşayasınız!

Xalqlarımız arasında münasibətlər onların tarixi qədər qədim və möhkəmdir. Sizin xalqınız müsəlman-yəhudi birgəyaşayışının parlaq nümunəsidir. Azərbaycanda yəhudilərin qardaş və bacı kimi sülh və harmoniya şəraitində yaşayışının uzunömürlü mirası vardır. Təəccüblü deyil ki, Azərbaycan əsilli yəhudilərin Sizin xalqınızla böyük bağlılığı mövcuddur.

Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi inkişaf, maliyyə sabitliyi və nüfuzlu diplomatiya ilə tərəqqi etmişdir. Sizin koronavirus pandemiyası ilə mübarizədə heyrətamiz addımlarınız səmərəli rəhbərliyinizin yalnız bir nümunəsidir. İnanıram ki, Azərbaycan Xəzər dənizi regionunda əlaqələrin normallaşdırılmasında həlledici rol oynaya bilər.

İcazə verin, Zati-alinizi İsrailə səfərə dəvət edim. Sizi İsraildə qəbul etmək mənim üçün həqiqətən xoş olacaqdır və bu, xalqlarımız arasında əhəmiyyətli təməl daşı olacaqdır. Həmçinin bu il biz Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılacağına ümid edirik. Bu, Azərbaycanın Ticarət və Turizm nümayəndəliklərinin açılmasının təbii davamı olardı.

Bir daha 60 illik yubileyiniz münasibətilə ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm. İsrail xoşbəxtdir ki, Sizin kimi dostu var və mən prezidentlik dövrümdən istifadə edərək xalqlarımız arasında əlaqələrin genişləndirilməsinə və dərinləşdirilməsinə çalışacağam.

*Dərin hörmətlə,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, Qırğızıstan və Azərbaycan arasında çoxəsrlik ümumi tarixə, mənəvi və mədəni dəyərlərin yaxınlığına əsaslanan möhkəm dostluq və strateji tərəfdaşlıq əlaqələri xalqlarımızın köklü maraqlarına uyğun olaraq gələcəkdə də dərinləşəcəkdir.

Hörmətli Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi adından Sizə 60 illik yubileyiniz münasibətilə səmimi təbriklərimi, möhkəm cansağlığı və xoşbəxtlik arzularımı çatdırım.

Sizin rəhbərliyinizlə Azərbaycan həyatın bütün sahələrində tərəqqi əldə edib, ölkə əhalisinin rifahı yüksəlib.

Azərbaycan çoxtərəfli təşkilatlarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatında çox fəal rol oynayır, multilateralizmə və ortaq məsuliyyətə möhkəm sadiqliyini nümayiş etdirir.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycanla həmişə çox gözəl əməkdaşlıq və tərəfdaşlıq münasibətləri olub. Gələn il biz BMT-Azərbaycan tərəfdaşlığının 30-cu ildönümünü qeyd edəcəyik və bu, tarixi hadisə olmaqla yanaşı, həmçinin kollektiv nailiyyətlərimiz, gələcək əməkdaşlıq perspektivləri haqqında düşünmək üçün gözəl fürsət olacaq. Biz Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Azərbaycan hökumətinə dəstəyimizi davam etdirməyə ümidvarıq.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Vladanka ANDREYEVA,***
***BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi, xoşbəxtlik və cansağlığı arzularımı bildirim. Fürsətdən istifadə edib Sizi qarşıdan gələn Yeni, 2022-ci il münasibətilə də təbrik etmək istərdim.

İyirmi beş il ərzində Fransa Milli Assambleyasının deputatı kimi, sizin ölkənizlə tanış olmaq imkanım olub. Beş il ölkələrimiz arasında dostluq qrupunun prezidenti kimi, Sizin ölkənin nümayəndələri ilə dərin məzmunlu söhbətlərimizi həmişə yüksək qiymətləndirmişəm. Onların nəzakətliliyi, Avropa xalqlarının siyasi və mədəni məsələlərinə dərindən bələd olmaları Sizin ölkə haqqında təhrif edilmiş məlumatlardan və onun məruz qaldığı hücumlardan əhəmiyyətli dərəcədə fərqlənirdi.

Azərbaycana səfərlərim mənim üçün həmişə böyük tarixi görüşə oxşayırdı. Sizin ölkənizdə ilk dəfə 1996-cı ildə olmuşam və bu ölkə haqqında çox yaxşı xatirələrim qalıb. Sizə xas olan qonaqpərvərlik sayəsində Azərbaycanla uzunmüddətli və möhkəm dostluq münasibətləri yaranıb. Buna görə də 2020-ci ildə suveren Azərbaycanın ərazisi olan torpaqlar özünə qaytarılanda sizin həmvətənlərinizin sevincini gözəl başa düşürəm.

Bəzi KİV-in  Azərbaycanı təhrif olunmuş şəkildə təqdim etmək istəyi məni kədərləndirir və narahat edir. Sizin xalqınıza qarşı çoxsaylı lobbilər fəaliyyət göstərir. Onların Avropada çoxsaylı siyasi partiyalara nüfuz etməsi heyrət doğurmaya bilməz.

Sizin Konstitusiyaya əsasən dini plüralizmə və etiqad azadlığına hörmət bəslənilməsinə təminat verilir. Radikalizm bütün planet üçün təhlükə doğurduğu bir vaxtda bizim hökumətlərimiz Sizin xalq barəsində yalan məlumatlar yayılmasına son qoymalı və özlərinin cəmiyyətdə harmoniya və bütün dinlərə hörmət öhdəliklərini yada salmalıdırlar.

Mən müxtəlif mandatlara malik olduğum dövrdə bunu xatırlatmaq imkanını heç vaxt əldən verməmişəm və bu istiqamətdə işləməkdə davam edirəm. Əmin ola bilərsiniz ki, Siz mənim şəxsimdə ölkənizin sədaqətli, həqiqəti bərpa etmək üçün onun barəsində yayılan yalanlara qarşı mübarizə aparmağa həmişə hazır olan dostunu taparsınız.

Doğum gününüz münasibətilə bir daha təbriklərimi və Sizə ən dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Tyerri MARİANİ,***
***Fransa Respublikasının sabiq nəqliyyat naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Hörmətli İlham Heydər oğlu!

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz haqlı olaraq dünyanın ən təcrübəli və parlaq liderlərindən biri sayılırsınız. Sizin səmərəli rəhbərliyinizlə Azərbaycan Respublikası yüksək sosial-iqtisadi inkişaf templəri nümayiş etdirir və dünya arenasında layiqli nüfuz qazanmışdır.

Sizə cansağlığı, firavanlıq, xoş əhvali-ruhiyyə və böyük uğurlarla bağlı ən səmimi diləklərimi qəbul edin. Əminəm ki, Azərbaycan Avrasiya məkanında xalqların qarşılıqlı anlaşmasının və konstruktiv iqtisadi qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə bundan sonra da mühüm töhfə verəcək.

*Hörmətlə,*

***Mixail MYASNİKOVİÇ,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Zati-alinizə uzun ömür, cansağlığı və səadət arzulayıram.

Dünya Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın daha da inkişafının, bütün regionda sülh və tolerantlıq naminə gördüyünüz işlərin şahidi olur.

Zati-alinizə xoşbəxtlik və uğurlar, qardaş Azərbaycan xalqına firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Dr. Əli CÜMƏ,***
***Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, Alimlər Cəmiyyətinin üzvü***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Bizim "Alma Mater"in bütün kollektivi adından yubileyiniz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Siz uzun illərdir ki, müdrik rəhbər kimi əvvəlki nəsillərin təşəbbüslərini uğurla davam etdirir, aktual məsələlərin həlli yanaşmalarına zəruri innovasiya elementləri daxil edirsiniz. Avrasiya məkanının əsas ölkələrindən biri olan Azərbaycan çoxmillətli dünyəvi dövlətin möhkəm təməli üzərində sosial-iqtisadi sahəni inkişaf etdirir, beynəlxalq əlaqələrini fəal surətdə genişləndirir və möhkəmləndirir.

Sizin Vətənə sədaqətiniz və müstəsna peşəkarlığınız heyranlıq doğuran şəxsi keyfiyyətlərinizlə sıx əlaqələnir. Sizin ailənizi, uşaqlarınızı yaxşı tanıdığım üçün düşünürəm ki, onlar Əliyevlərin yaşlı nəslinin ən yaxşı xüsusiyyətlərini əxz ediblər və həmin nəslin əfsanəvi ənənələrini qoruyub saxlayırlar.

Hörmətli İlham Heydər oğlu, Sizə və yaxınlarınıza bir daha möhkəm cansağlığı arzularımı, gözəl Azərbaycana firavanlıq və əmin-amanlıq diləklərimi qəbul edin.

*Dərin hörmətlə,*

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin çoxminlik kollektivi adından və şəxsən öz adımdan Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Uzun illərdir ki, Siz elmin və təhsilin inkişafı, ölkələrimizin universitet və akademik ictimaiyyətinin səmərəli tərəfdaşlığının təkmilləşdirilməsi məsələlərinə diqqətlə yanaşırsınız. Sizin sayənizdə minlərlə aydın məqsədli və istedadlı gəncin biliklərə yiyələnməsi üçün bütün sərhədlər açılıb, Rusiya və Azərbaycan Respublikasının təhsil və elm sahəsində əməkdaşlığı genişlənir, möhkəmlənir, birgə layihələr və təşəbbüslər həyata keçirilir, Moskva Universitetinin qabaqcıl elmi məktəbləri ilə Azərbaycanın aparıcı akademik və təhsil mərkəzlərinin qarşılıqlı faydalı akademik əlaqələri güclənir.

Bu xoş fürsətdən istifadə edərək, bizim əməkdaşlığımıza diqqətli və səmimi münasibətinizə görə Sizə təşəkkür etmək istəyirəm. Moskva Dövlət Universitetinin Bakı şəhərindəki filialı bütün fəaliyyəti dövründə dövlətlərimiz arasında elmin və təhsilin inkişafı, sülh və harmoniya naminə uğurla xidmət edir.

Möhtərəm İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən uğurlar, möhkəm cansağlığı diləyir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi yubileyiniz münasibətilə təbrik edim.

60 il dəyərli həyat təcrübəsi ilə birlikdə tarixin qarşınıza qoyduğu qlobal vəzifələrin həlli üçün əlverişli şərait yaradan çiçəklənmə dövrüdür.

İlk öncə Sizə möhkəm cansağlığı və fədakar fəaliyyətinizdə uğurlar arzulayıram. Qarabağ uğrunda Vətən müharibəsində qazanılan parlaq Qələbə son dərəcə çətin, lakin Azərbaycanı işıqlı  gələcəyə doğru  aparan mərhələdir.

Müharibədən sonrakı dağıntıların, işğaldan azad edilmiş ərazilərdə məhv edilmiş infrastrukturun bərpası, regionda nəqliyyat arteriyaları üzərindən blokadanın götürülməsi sahəsində əldə olunan siyasi qələbələr, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması Sizin bütün istedadınızı, titanik iş və imkanları səfərbər etməyi tələb edən son dərəcə böyük vəzifədir. Şübhəsiz, Siz bunların hamısına nail olacaqsınız.

Sizə, böyük və möhkəm ailənizə əmin-amanlıq, firavanlıq, çiçəklənmə və xoş əhvali-ruhiyyə arzulayıram.

*Hörmətlə,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri ilə, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi, Rusiya Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Cənab Prezident!

Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Sizə ən səmimi və xoş arzularımı çatdırmaq, Azərbaycanın ərazi bütövlüyünün bərpası sevincini Sizinlə bölüşmək istəyirəm.

Qarabağdakı şəhərlərimiz minalanmış və böyük əksəriyyəti dağıdılmış olsa da, Sizin də qeyd etdiyiniz kimi, onları bərpa edəcək və əvvəlkindən də gözəl edəcəyik. Mən buna əminəm.

Doğum gününüz mübarək!

*Hörmətlə,*

***Marqarita KOSTA,***
***İtaliyanın Azərbaycandakı sabiq səfiri, Qərargahı Genuya şəhərində yerləşməklə Liquriya, Pyemont, Valle d'Aostra və Lombardiya regionlarında Azərbaycanın fəxri konsulu***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımızı qəbul edin.

Sizə cansağlığı və xoşbəxtlik diləyirik. Tanrı hər zaman Sizi və ailənizi qorusun!

Ölkəniz və bəşəriyyətin rifahı naminə xoş niyyətləriniz həyata keçsin!

*Dərin hörmətlə,*

***Vardis VARDİNOYANNİS,***
***Yunanıstanın "Motor Oil Hellas", "Vegas Oil and Gas" şirkətlərinin sədri və xanımı Marianna VARDİNOYANNİS***

❖ ❖ ❖

Zati-aliləri!

Altmış illik yubileyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan sevinc hissi duyuram.

Sizin rəhbərliyinizlə Azərbaycan xalqı hər kəsin şahidi olduğu tərəqqi və firavanlıq, bizimlə dost ölkəniz beynəlxalq miqyasda yüksək nüfuz əldə edib. Bütün bunlar Sizin fədakar xidmətləriniz, xalqınızın dəyanəti, dövlətinizin qüdrəti sayəsində mümkün olub və beynəlxalq birlik tərəfindən təqdir edilir.

Sizin rəhbərliyiniz sayəsində Küveyt Dövləti ilə Azərbaycan Respublikası arasındakı münasibətlər yüksək səviyyədə inkişaf etmişdir və təqdirəlayiqdir. Bu isə Ərəb Elektron Media Birliyində biz jurnalistlərə və şəxsən mənə Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyi ilə bağlı hüquqlarını dəstəkləməyə, erməni təcavüzünü pisləməyə stimul verib. Biz jurnalist olaraq malik olduğumuz gücümüz çərçivəsində kütləvi informasiya vasitələrində dost ölkəniz öz qanuni hüquqlarına nail olana qədər ona dəstəyimizi nümayiş etdirmişik.

Sizi ürəkdən təbrik edir və möhkəm cansağlığı arzulayıram.

*Dərin hörmətlə,*

***Feysəl Xəlifə Əl-SƏVVAĞ,***
***Misirdə fəaliyyət göstərən Ərəb Elektron Media Birliyinin sədri***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Sizi yubileyiniz münasibətilə səmimi-qəlbdən və məmnuniyyətlə təbrik edirəm.

Siz dahi Heydər Əliyevin işini davam etdirərək Azərbaycanın milli inkişafında və ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsində əldə olunmuş heyrətamiz nailiyyətləri daha da artırdınız.

Azərbaycanın ərazi bütövlüyünün bərpasına verdiyiniz qətiyyətli töhfə, şübhəsiz ki, tarixdə müdrik rəhbərlik, xalqın mənafeyinə və dövlətin inkişafına fədakar xidmət nümunəsi kimi qalacaq.

Sizin Azərbaycan və Gürcüstan arasında qardaşlıq münasibətlərinin inkişafına  verdiyiniz töhfə əvəzsizdir.

Ailənizə, yaxınlarınıza və dostlarınıza qarşı göstərdiyiniz doğmalıq, diqqət və qayğı kimi gözəl insani keyfiyyətlərinizi xüsusi qeyd etmək istərdim.

Sizə və gözəl ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Azərbaycanın çiçəklənməsi yolunda daha böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***David APTSİAURİ,***
***Gürcüstanın Ticarət və Sənaye Palatasının Baş direktoru, fövqəladə və səlahiyyətli səfir, professor***

❖ ❖ ❖

Cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə böyük sevinc hissi ilə təbrik edirəm.

Hamının həyatında, xüsusilə də bir dövlət başçısının həyatında bu gün daha əlamətdardır. Bu yubileyi məhz Sizin əzmkarlığınız və həlledici qərarlarınız sayəsində ərazi bütövlüyü bərpa edilmiş ölkənizdə qeyd edirsiniz.

Sizə cansağlığı, xoşbəxtlik, uğurlar,  Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

Cənab Prezident, Sizə səmimi salamlarımı və ən dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Jil REMİ,***
***Fransanın "CIFAL" şirkətlər qrupunun prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Sizi "COJEP INTERNATIONAL" təşkilatı adından və şəxsən öz adımdan yubileyiniz münasibətilə təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, bölgədə sülh və sabitliyin gücləndirilməsi istiqamətində fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli Prezident, Sizin regionda sülhün və sabitliyin, mədəniyyətlərarası dialoqun qorunması ilə bağlı gördüyünüz işləri ürəkdən təqdir edirik.

Sizi bir daha təbrik edir, Zati-alinizə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***Ali GEDİKOĞLU,***
***Fransanın Strasburq şəhərindən "COJEP INTERNATIONAL" təşkilatının prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Son illərdə Azərbaycan Respublikasının hərtərəfli uğurlu inkişafı, heç şübhəsiz, Sizin çox zəngin təcrübəniz, bilikləriniz, peşəkarlığınız və təşkilatçılıq qabiliyyətinizlə bağlıdır.

Fürsətdən istifadə edib, Azərbaycan Respublikasının təşkilatları və "Rostex" Dövlət Korporasiyasının birgə layihələrinin həyata keçirilməsi məsələlərinə şəxsən göstərdiyiniz diqqətə görə Sizə təşəkkürümü bildirmək istərdim.

Hörmətli İlham Heydər oğlu, icazə verin, yubileyiniz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, gümrahlıq, Sizə, bütün doğmalarınıza və yaxınlarınıza əmin-amanlıq, firavanlıq arzularımı bildirim.

*Hörmətlə,*

***Sergey ÇEMEZOV,***
***Rusiya Federasiyasının "Rostex" Dövlət Korporasiyasının Baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimizi qəbul edin. Sizə  və ailənizə möhkəm cansağlığı, firavanlıq arzulayıram.

Siz Azərbaycanın müdrik liderisiniz və ölkənin iqtisadiyyatının inkişafı, beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə etmisiniz.

Zati-alinizin göstərdiyi səylər "Masdar" şirkəti olaraq bizi çox ruhlandırır. Biz Azərbaycanda bərpa olunan və davamlı enerjinin strateji inkişafı ilə bağlı prioritetlərinizə uyğun olaraq məqsəd və planların uğurla həyata keçirilməsinə töhfə verməkdə maraqlı olduğumuzu bildirmək istərdik.

Həmçinin bu fürsətdən istifadə edərək, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Zati-alinizi, ailənizi və qardaş Azərbaycan xalqını bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Mohammed Jameel Al RAMAHİ,***
***Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin kollektivi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Siz öz ölkənizin həqiqi lideri kimi həmvətənləriniz arasında haqlı olaraq hörmət və nüfuz qazanmısınız. Sizin təcrübəniz və yüksək peşəkarlığınız Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına, dövlətin intellektual potensialının möhkəmlənməsinə və onun vətəndaşlarının rifahının yüksəlməsinə şərait yaradır.

Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universiteti ilə Azərbaycan Respublikasını təhsil, elm, gənclərin akademik mübadiləsi sahəsində çoxillik əməkdaşlıq telləri bağlayır. Universitetdə Azərbaycandan olan onlarla gənc təhsil alır və onlar dünya bazarında öz ölkəsinin rəqabət qabiliyyətini artırmaqla onun modernləməsinə layiqli töhfə verə biləcəklər.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı, firavanlıq, tükənməz enerji, Azərbaycan Respublikası naminə uzun illər boyu səmərəli fəaliyyət göstərməyi arzulayıram.

*Hörmətlə,*

***Alevtina ÇERNİKOVA,***
***Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin rektoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Altmış illik yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Rusiya ilə Azərbaycan arasında xalqlarımızın qardaşlıq münasibətlərinə əsaslanan əməkdaşlığın möhkəmlənməsinə Sizin töhfənizi layiqincə qiymətləndirmək çətindir.

Siz, heç şübhəsiz, müasir dövrün ən parlaq və nüfuzlu siyasətçilərindən birisiniz. Əminəm ki, Siz hələ uzun illər boyu doğma ölkənizin - Azərbaycan Respublikasının və orada məskunlaşan bütün xalqların rifahı naminə səmərəli işinizi davam etdirəcəksiniz. Qoy bu məsul vəzifədə işiniz Sizə yalnız sevinc və məmnunluq gətirsin!

2021-ci ilin sona çatdığı bu günlərdə, icazə verin, Sizi həm də qarşıdan gələn Yeni il münasibətilə təbrik edim. Sizə, doğmalarınıza və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və nəzərdə tutduğunuz bütün planlarınızın həyata keçməsini arzu edirəm.

*Hörmətlə,*

***Arif KƏRİMOV,***
***Federal Ləzgi Milli-Mədəni Muxtariyyətinin prezidenti, Rusiya Federasiyası Prezidenti yanında Millətlərarası Münasibətlər Şurasının üzvü***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

60 illik yubileyinizi təbrik edirəm. Mübarək olsun! Sizə yeni uğurlar, cansağlığı, ailə səadəti arzulayıram.

Siz bu gün Azərbaycanın şanlı tarixini yenidən yazdınız. Siz bu gün tarixi ədaləti bərpa etdiniz.

Cənab Ali Baş Komandan, halaldı Sizə
Millət, Vətən qarşısında oğul haqqınız
44 günü Siz yazdınız tariximizə
Günəş kimi dünyaya da doğacaqsınız.
Qarabağ Azərbaycandır!
Qarabağnaməm İlhamdır!
Tanrı Sizi qorusun!

*Hörmətlə,*

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyası, Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurası, Rusiya Vəkillər Gildiyası, Rusiya Vəkillik və Notariat Akademiyası, "Moskva Hüquq Mərkəzi" Vəkillər Kollegiyası adından və şəxsən öz adımdan Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin bir vətəndaş və vətənpərvər kimi fəal həyat mövqeyiniz, dövlət əhəmiyyətli məsələləri qüsursuz icra etməyiniz Vətənə ləyaqətlə xidmət nümunəsidir.

Sizin səmərəli rəhbərliyinizlə Azərbaycan genişmiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolunda inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir. Siz Heydər Əlirza oğlu Əliyevin islahatçılıq yolunun Azərbaycan Respublikasında layiqli davamçısısınız.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni və siyasi əlaqələr günbəgün genişlənir və möhkəmlənir. Mən bir azərbaycanlı kimi öz tarixi Vətənimlə fəxr edir və onu əziz tuturam. Bakıda çoxsaylı beynəlxalq tədbirlər keçirilməsi faktları da Azərbaycan Respublikasının nailiyyətlərinin beynəlxalq aləmdə tanınmasına sübutdur.

Bu gün Siz həyatınızın mühüm mərhələsindəsiniz - bu mərhələdə zəngin təcrübə müdrik və həyati biliklərlə harmonik şəkildə uzlaşır, çox işlər görülüb, gələcək üçün çoxlu yeni planlar var.

Qoy tükənməz enerji, gümrahlıq və ruh yüksəkliyi Sizin etibarlı tərəfdaşlarınız olsun. Sizə cansağlığı, uzun ömür, dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqı naminə yeni zəfərlər arzu edirəm.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurasının sədri,***
***Rusiya Vəkillər Gildiyasının prezidenti,***
***Rusiya Federasiyasının Əməkdar hüquqşünası,***
***Rusiyanın Fəxri ədliyyə işçisi,***
***hüquq elmləri doktoru***

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Sizi 60 yaşınızın tamam olması münasibətilə rəhbərliyində təmsil olunduğumuz Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin, Sabitlik və İnkişaf Mərkəzi İctimai Birliyinin, İctimai Nəzarət Koalisiyasının çoxminli üzvləri adından səmimi-qəlbdən təbrik edirik. Sizə uzun ömür, möhkəm cansağlığı, Vətənimiz Azərbaycanın inkişafı və qüdrətli olması üçün atacağımız bütün addımlarda uğurlar arzulayırıq.

Ümummilli Lider Heydər Əliyevin siyasi-dövlətçilik irsinin layiqli davamçısı olaraq Sizin xalqa həsr etdiyiniz 60 illik şərəfli ömrünüz və ölkəmizə rəhbərliyə seçildiyiniz dövr tariximizin ən şərəfli səhifələrini təşkil edir.

Zəmanəmizin ən gərgin və qürurverici hadisəsi - 2020-ci il 27 sentyabr tarixi xalqımızın vahid ordu şəklində birləşərək düşmən üzərində Qələbə ilə başa çatdırdığı 44 günlük Vətən müharibəsi zamanı millətimiz bir daha əmin oldu ki, Sizin sərkərdəlik məharətiniz, Ali Baş Komandan kimi hərb sənətindəki ustalığınız, nüfuzlu beynəlxalq siyasətçi, dövlət xadimi, 50 milyonluq dünya azərbaycanlılarının lideri olmağınız bizi böyük Zəfərə gətirib çıxardı.

Xalqımız 30 ilə yaxın bir müddətdə torpaqlarımızın erməni işğalçılarından azad olunması üçün Sizin rəhbərliyiniz altında hazırlaşdı. Qəhrəman döyüşçülərimizin şəhid qanı və misilsiz igidlikləri ilə azad edilmiş torpaqlarımızın geri qaytarılması tariximizin qızıl səhifələri, möhtəşəm Qələbənin salnaməsi kimi əbədi yaddaşlarda qalacaqdır.

Biz bir daha əmin olduq ki, xalqımız birləşəndə həllolunmaz sayılan bütün problemlərin, çətinliklərin öhdəsindən uğurla gələ bilir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan, eləcə də işğaldan azad edilmiş Qarabağımız Sizin rəhbərliyinizlə bütün sahələrdə müasirləşdirilmə yolunda ardıcıl və dinamik surətdə irəliləyir, inkişaf edir. Sizin peşəkar siyasi təcrübəniz Azərbaycan xalqının rifahının yüksəldilməsi naminə mürəkkəb məsələləri qətiyyətlə və ardıcıl olaraq həll etməyə imkan verir. Dünya miqyasında yürütdüyünüz uzaqgörən və müdrik siyasətiniz, dövlətimizin milli mənafelərini qətiyyətlə qorumağınız, xüsusi bacarıqlarınız sayəsində Azərbaycan regional və beynəlxalq gündəlikdə olan qlobal məsələlərin həllində fəal rol oynayır, gündən-günə qüdrətli dövlət kimi tanınır.

Zati-aliləri, möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Uca Yaradandan Sizə uzun ömür və möhkəm cansağlığı arzulayırıq.

Dərin hörmət və ehtiramla,

Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin, Sabitlik və İnkişaf Mərkəzi İctimai Birliyinin və İctimai Nəzarət Koalisiyasının çoxminli üzvləri adından

***Çingiz ABDULLAYEV,***
***Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin prezidenti, Xalq yazıçısı***

***Flora XƏLİLZADƏ,***
***İctimai Nəzarət Koalisiyasının, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin, Sabitlik və İnkişaf Mərkəzinin Baş katibi***

***Ramiz QULİYEV,***
***Fəxri vitse-prezident, professor***

***Nəriman HƏMİDOV,***
***İctimai Nəzarət Koalisiyasının, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin, Sabitlik və İnkişaf Mərkəzinin Ağsaqqallar Şurasının sədri, Milli Qəhrəman atası***

***Tərlan XƏLİLOVA,***
***İctimai Nəzarət Koalisiyasının, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin, Sabitlik və İnkişaf Mərkəzinin Şəhid Anaları və Milli Qəhrəman Ailələri Komitəsinin sədr müavini***

***Rasim MƏMMƏDOV,***
***Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin I vitse-prezidenti, Sabitlik və İnkişaf Mərkəzinin rəhbəri, İctimai Nəzarət Koalisiyasının sədri***



❖ ❖ ❖

Zati-aliləri!

İlk öncə nəzərinizə çatdırım ki, hər zaman Sizə məhz bu müraciətlə ünvanlanmaq ehtiyacımın səbəbi - bu dünyaya, qaranlıqları aydınlatmaq, qəlbi, niyyəti və əməlləri ilə xeyirxahlıq və işıq saçmaq, məmləkətini, xalqını darısqallıqlardan azad etmək, qorumaq, ən çətin günündə ona arxa durmaq, sahib çıxmaq kimi ağıryüklü, eyni zamanda, şərəfli tale yazısı ilə göndərilmiş fədakar İnsanıma - ali və nəcib şəxsiyyətinizə duyduğum dərin ehtiramımdır.

Unudulmaz Heydər Əliyevdən irsən keçmiş bu Vətən heysiyyətli qoruma instinktini, xalq təəssüblü sahiblik əzmini, hələ Siz ölkə rəhbərliyinə gəldiyiniz ilk illərdə - 2008-ci ilin yay aylarında Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Azadlıq meydanında düzənlənən hərbi parad zamanı - qırıcı təyyarələrimiz meydanın səmasını milli bayrağın rənginə boyaya-boyaya, sanki göy üzünə "Qəm yemə, mənim xalqım, sən sahibsiz deyilsən!" yazdığını gözlərim dola-dola izləyəndə duymuşdum... bir vaxtlar Bakının küçələrini qan gölündə boğan 20 Yanvarı - həmin o kimsəsiz, sahibsiz, sərhədsiz və dövlətsiz olduğumuzun acı həqiqətini, qəflət yuxusundan oyanmıştək bütün reallığı və dəhşəti ilə anladığım qara günümüzü xatırlamış, olanların ağrı-acısını yenidən yaşamışdım...

Bu böyük yiyəlik, xalq və Vətən heysiyyətli sahiblik əzmi qarşıda gələn daha çətin, ölkə taleyi yüklü illərdə özünü daha qabarıq büruzə vermişdi, Azərbaycan və azərbaycanlı adı uğrunda, tarixi ədalətin bərpası, həqiqətin qələbəsi naminə dünya ilə qarşı-qarşıya təkbaşına dayandığınız Haqq savaşlarında, təmkin və səbir, peşəkar, azad və səmimi diplomatiya ilə addım-addım irəlilədiyiniz soyuq siyasi döyüşlərdə bütün cizgiləri və miqyası ilə bilinmişdi... dünyanın tarım sınaq imtahanına çəkildiyi, insanların öz talelərinin ümidinə buraxılıb amansız laqeydlik, sahibsizliklə üzləşdiyi ağır pandemiya illərində isə insan sevgisi dolu məhrəm doğmalığı ilə lap yaxından, hər kəsin evində, qəlbində duyulmuşdu...

Bütün bu fədakarlıqların, bu düşünülmüş, məqsədyönlü və gərgin fəaliyyətin nəticəsi olaraq uzun illər, əsrlərlə haqqı tapdalanan, torpaqları zəbt edilib, insanları didərgin salınan, səsi, sözü heç bir yandan eşidilməyən Azərbaycan, sürükləndiyi həmin bu görünməzliklər və eşidilməzliklər bataqlığının dərin qaranlıqlarından suyun üzünə qalxantək - zəngin milli mədəniyyətə və insan potensialına malik, güclü siyasi, iqtisadi, hərbi qüdrət sahibi kimi beynəlxalq müstəviyə çıxdı, dünya bizi tam ayrı - yeni baxış bucağından gördü və tanıdı.

Zaman baxımından göz qırpımı qədər ani olan 18 il ərzində Azərbaycanın və azərbaycanlıların milli-ictimai statusunu, fundamental islahatlar və quruculuq işləri ilə ölkənin mənzərəsini, həyat səviyyəsini dəyişmiş bütün bu inqilabi hadisələrin, daha möhtəşəm və tarixi qələbələrə aparan geniş, sərrast bir yolun başlanğıcı olduğunu isə biz çox-çox sonralar - ən müasir silah-sursatla təchizatlanmış güclü Azərbaycan Ordusu görünməz qeybin dərinliklərindən, vücudu od püskürən nəhəng əjdahatək şahə qalxanda anlamağa başlamışdıq... Bir-birinin ardınca işğaldan azad edilən Füzulinin, Cəbrayılın, Zəngilanın qələbə xəbərlərini aldıqca, baş verənlərin yuxu, yoxsa gerçək olduğunun şokundan ayıla bilmədiyimiz, sevinc və göz yaşları dolu unudulmaz günlər... Axşamlarla Sizi - Ali Baş Komandanımızı, qorxularımız və ümidlərimizlə sığındığımız ailə başçımızı gözləyəntək, ekran qarşısında gözləməyimiz... Sizin isə - uzun illərin milli faciələri ilə, şüuraltı yaddaşımıza yerimiş miskin məğlubiyyət sindromunu dağıtmaq, bütün inamsızlıqları və ümidsizlikləri heçə endirib yaddaşlardan həmişəlik silmək üçün bizimlə görüşə gəlməyiniz... Çiyninizdə qanlı-qadalı Vətən müharibəsi, sinənizdə şəhid ağrıları, azad edilmiş şəhərlərin, kəndlərin adlarını rahat arxayınlıqla elan edə-edə, bizləri - qəlbisınıq həmvətənlərinizi, incik körpələri ovudantək ovutmağınız... Zəfər Günü Şuşaya da ata qucağınızı açıb, illərdən bəri donub-daşlaşmış milli ruhu, bütün Azərbaycanı silkələyib oyatmanız...

Möhtərəm Prezident, illər uzunu səbir və dözümlə, addım-addım yol gələn uzaqgörən, peşəkar siyasətiniz, davamlı fədakar fəaliyyətiniz və müzəffər Azərbaycan Ordusunun igidliyi ilə qazanılan bu böyük Qələbənin, üzü qədimdən bəri süqut və parçalanmalar, siyasi-mənəvi iflas, torpaq, sərhəd, ərazi təslimləri ilə müşayiət olunan üzücü xronologiyanı XX əsrin sonlarında Qarabağın işğalı ilə tamamlayan milli tariximizin ən şərəfli səhifəsi olduğu danılmaz tarixi həqiqətdir. Bütöv bir ölkənin, xalqın taleyini dəyişmiş bu Şərəf Səhifəsinin, məhz Sizin taleyinizə və məhz niyyət və əməllər barədə hər kəsin öz vicdanı qarşısında hesabat verdiyi 60 yaşınızın astanasına yazılması, düşünürəm, Azərbaycana rəhmi gəlmiş, ona xilas üçün, yaratdıqları sırasından, qəlblərin ən işıqlısını - bir ölkə insanın, bütöv bir məmləkətin sığışa biləcəyi ən nəhəngini seçib göndərmiş uca Yaradanın sehr dolu sirlərindəndir...

Uca Yaradanımıza şükürlər olsun! Sizin fədakarlıq, xeyirxahlıq və işıq dolu 60 Şərəf İliniz mübarək olsun!

*Dərin ehtiramla,*

***Afaq MƏSUD,***
***Xalq yazıçısı***

❖ ❖ ❖

Zati-aliləri!

Rusiyanın çoxsaylı Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizi 60 illik yubileyiniz münasibətilə təbrik etməyi özümə şərəf sayıram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ailənizə firavanlıq, əzizlərinizin və yaxınlarınızın sevgisini arzu edirəm.

Məhz Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində yorulmaz nəcib fəaliyyətiniz, yürütdüyünüz konstruktiv və uzaqgörən siyasət sayəsində Vətənimiz günbəgün çiçəklənir, dünya siyasi arenasında öz mövqelərini möhkəmləndirir, həm iqtisadiyyatda, həm də sosial-mədəni sahədə sabitliyin təmin edilməsinə və iqtisadi inkişafa şərait yaradan irimiqyaslı layihələri həyata keçirir.

Hamı Sizi regionda sülhün möhkəmlənməsinin əqidəli tərəfdarı kimi tanıyır və qiymətləndirir. Sizin müdrik beynəlxalq qərarlarınız və parlaq siyasi hərəkətləriniz dünya tarixinin gedişini dəyişib. Siz, Ali Baş Komandan kimi, əzəli Azərbaycan torpaqlarının çoxillik işğaldan azad edilməsinə və sahibinə qaytarılmasına qiymətli tarixi töhfə verməklə adınızı Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazmısınız.

Bu gün Azərbaycan Cənubi Qafqazda dinamik inkişaf edən uğurlu dövlət və Avrasiya siyasətinin regionda sülhün möhkəmlənməsinə kömək edən mühüm subyektidir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, bu əlamətdar təntənəli gündə Sizə bir daha möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik, Azərbaycan xalqının tükənməz sevgisini və Sizin müasir Azərbaycanın qüdrətinin möhkəmlənməsinə, çoxillik işğal dövründə dağıdılmış şəhərlərin və kəndlərin bərpasına yönəlmiş məsul fəaliyyətinizdə böyük uğurlar diləyim.

*Səmimi hörmətlə,*

***İlqar HACIYEV,***
***Rusiya Azərbaycanlılar Konqresinin rəhbəri,***
***Rusiya Federasiyasının fəxri vəkili***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım" İctimai Birliyi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sevimli Azərbaycanımızın çiçəklənməsi naminə Sizə firavanlıq, xoşbəxtik, cansağlığı və xeyirli işlər arzu edirəm.

Bu xoş fürsətdən istifadə edib Ümummilli Lider Heydər Əliyevin davamçısı kimi yürütdüyünüz müdrik siyasətə görə Sizə böyük qürur hissi ilə dərin hörmətimi bildirirəm. Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Dünyanın gözəl guşəsi olan Azərbaycanda müxtəlif millətlərə mənsub insanlar sülh şəraitində yaşayırlar. Onların sırasında öz köklərini və adət-ənənələrini unutmayan bolqarlara da qismən rast gəlmək olar. Bu cür gözəl şərait isə Azərbaycanda milli azlıqlara qarşı həyata keçirilən tolerantlıq siyasətinin nəticəsidir.

*Hörmətlə,*

***Mariya Pavlovna Hüseynova-ATANASOVA ,***
***"Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım" İctimai Birliyinin sədri, Beynəlxalq "Akord" jurnalının baş redaktoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan-Yaponiya Dostluq Mərkəzi adından və şəxsən öz adımdan 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm.

Böyük məmnuniyyətlə vurğulayıram ki, Sizin rəhbərliyiniz və müdrik siyasətiniz sayəsində doğma Vətənimiz Cənubi Qafqazın lider ölkəsi imicini qazanıb. Azərbaycan, həmçinin regionda sabitliyin və əmin-amanlığın etibarlı dayağına çevrilərək beynəlxalq aləmdə nüfuzunu daha da artırıb.

Möhtərəm Prezident, Siz bütün dünya azərbaycanlılarının lideri olduğunuzu onların ən böyük arzusunu həyata keçirməklə təsdiq etdiniz. Hakimiyyətdə olduğunuz illərdə nəinki Azərbaycanı regionun liderinə çevirdiniz, həmçinin işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdiniz. Xalqımızın tarixində yeni bir səhifə açan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan kimi qazandığınız şanlı Qələbə nəticəsində regionda hərtərəfli əməkdaşlıq və davamlı inkişaf üçün yeni münasibətlərin təməlini qoydunuz. Yalnız qonşu ölkələrə deyil, həmçinin bütün Avrasiya məkanına fayda gətirəcək yeni layihələrə start verilməsinə səbəb oldunuz.

Zati-aliləri, fürsətdən istifadə edib Sizə bir daha möhkəm cansağlığı, xalqımızın rifahı və doğma Vətənimizin inkişafı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

*Hörmətlə,*

***Xəlil KƏLƏNTƏR,***
***Tokioda fəaliyyət göstərən Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü***

❖ ❖ ❖

Möhtərəm Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə Köln Alman Azərbaycan Mədəniyyət Evinin rəhbərliyi və üzvləri adından səmimi-qəlbdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram.

Siz bir çağırışla minlərlə Azərbaycan gəncini Vətənin müdafiəsi üçün ayağa qaldırmağı bacaran qüdrətli və cəsarətli lidersiniz. Siz bu gün dünya azərbaycanlılarının qürur mənbəyinə çevrilmisiniz. Biz Sizinlə hər zaman fəxr edirik.

Dünyanın supergüc dövlətlərinin siyasətçilərini özünə heyran edən, yüksək bacarığı, ədaləti, özünəməxsus qətiyyəti, nümunəvi mövqeyi ilə seçilən hörmətli cənab İlham Əliyev, ad gününüz mübarək olsun!

Allah Sizi və ailənizi qorusun!

*Hörmətlə,*

***Ağa AĞAYEV,***
***Köln Alman Azərbaycan Mədəniyyət Evinin sədri***

❖ ❖ ❖

Hörmətli Prezident, cənab Ali Baş Komandan!

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik. Ölkəmizə rəhbərlik etdiyiniz bu illər ərzində Siz böyük nailiyyətlərə imza atmısınız. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər isə Sizin böyük istedad və bacarığınızı, o cümlədən yüksək sərkərdəlik məharətinizi göstərdi. Doğma torpaqlarımızın işğaldan azad olunması Sizin adınızla bağlıdır.

Biz, Çex Respublikasında yaşayan Azərbaycan icması Avropanın digər ölkələrində olduğu kimi, neçə illərdir ölkəmizə düşmən qüvvələrlə informasiya savaşı aparırıq. Hətta Çexiya parlamenti Xocalı soyqırımını rəsmən tanısa da, qəlbi sınıqlıq sindromu bizi çox üzürdü. İndi isə Sizin rəhbərliyinizlə müzəffər ordumuzun qazandığı Qələbə bizi qürurlandırır, daha inamlı fəaliyyətə ruhlandırır.

Möhtərəm Prezident, Sizi doğum gününüz, dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Yeni il münasibətilə Çexiyada yaşayan bütün azərbaycanlılar adından təbrik edirik. Sizə və ailənizə cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayırıq.

*Hörmətlə,*

***Eldar VƏLİYEV,***
***Çex Respublikasında Azərbaycan diasporunun sədri***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident!

Moldova Azərbaycanlıları Konqresinin Şurası bu ölkədəki bütün Azərbaycan icması adından Sizi 60 illik yubileyiniz münasibətilə dərin ehtiramla təbrik edir.

Siz Azərbaycana rəhbərlik etdiyiniz müddətdə ölkədən kənarda yaşayan milyonlarla soydaşımızın səmimi hörmətini, böyük nüfuzunu qazanmısınız və haqlı olaraq Siz güclü lider, müdrik siyasətçi və istedadlı dövlət xadimi nümunəsi sayılırsınız.

Sizin adınız Azərbaycanın müasir tarixinin ayrılmaz hissəsinə çevrilmişdir. Qarabağ müharibəsində xalqın birliyinə, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə güc verən parlaq Qələbə Sizin adınızla bağlıdır. Azərbaycan xalqı öz övladlarının işıqlı gələcəyini də Sizin adınızla bağlayır.

Qoy, Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan bundan sonra da inkişaf, tərəqqi və əmin-amanlıq yolu ilə getməkdə davam etsin! Biz - Azərbaycan diasporunun nümayəndələri öz növbəmizdə Sizi əmin edirik ki, Moldovada Vətənimizin maraqlarını qoruyacaq və özünəməxsus mədəniyyətimizin təbliğini davam etdirəcəyik.

Cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və bütün planlarınızı həyata keçirmək üçün tükənməz enerji arzulayıram.

Qoy, Sizin quruculuq fəaliyyətiniz və Vətənə fədakar xidmətiniz sayəsində Azərbaycanın əldə etdiyi qələbələrin sayı daha çox olsun, ölkənin mənafeyi naminə əldə olunan bütün nailiyyətlər isə Azərbaycan xalqının xoşbəxt gələcəyə inamını daha da gücləndirsin!

*Hörmətlə,*

***Elçin BAYRAMOV,***
***Moldova Azərbaycanlıları Konqresinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

30 il işğal altında qalmış Azərbaycan torpaqları Sizin yürütdüyünüz uğurlu siyasət nəticəsində azad edildi. Sizin rəhbərliyinizlə Azərbaycan Ordusu cinayətkar və işğalçı Ermənistanı 44 günlük Vətən müharibəsində məğlub edərək müqəddəs torpaqlarımızı işğaldan azad etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan 30 ilə yaxın müddətdə icra olunmamış BMT qətnamələrini Sizin qətiyyətinizlə təkbaşına icra etdi. Sizin rəhbərliyinizlə qazanılan bu Zəfər 50 milyondan artıq dünya azərbaycanlılarını sevindirdi. Biz Sizin qazandığınız bu Zəfərlə fəxr edirik və inanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı iqtisadi və siyasi cəhətdən daha çox uğurlar əldə edəcək, daha böyük inkişaf yolu keçəcək.

Avstraliya-Azərbaycan Assosiasiyası Sizi yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı, uzun ömür, Azərbaycanımızı daha da inkişaf etdirmək yolunda böyük uğurlar arzulayır.

*Dərin hörmətlə,*

***Mikayil OYTA,***
***Avstraliya-Azərbaycan Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından Sizə əlamətdar yubileyiniz münasibətilə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuruq. Bizə Zəfər bəxş etdiyinizə, dövlətimizin layiqli başçısı, Ali Baş Komandanı kimi hər bir azərbaycanlıya qürur və şərəf hissləri yaşatdığınıza görə Sizə minnətdarlığımızı bildiririk.

Biz fəxr edirik ki, Siz Ulu Öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz, onillər boyunca davam etmiş haqsızlığa, ədalətsizliyə, hüquqsuzluğa son qoymaqla BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsini icra edərək ikili standartları zərərsizləşdirdiniz. Sizin gördüyünüz işlər bütün türk dünyasında qürur hissi ilə qarşılanır.

Əziz və çox hörmətli Prezident, Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, Azərbaycan xalqının milli birliyinin, regionumuzda sülhün təmin olunması istiqamətində faydalı fəaliyyətinizə görə təşəkkürümüzü bildirir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, doğma Azərbaycanımıza əmin-amanlıq, tərəqqi, firavanlıq arzulayırıq.

*Dərin hörmətlə,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru professor, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Möhtərəm İlham Heydər oğlu!

Dağıstan Respublikası azərbaycanlıları və Azərbaycan Respublikasının Dağıstan ərazisində yaşayan vətəndaşları adından Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Sizin seçdiyiniz siyasi kurs həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda yaşayan vətəndaşlarımızın həyatını daim yaxşılaşdırmağa yönəlib. Qonşu dövlətlərin vətəndaşlarından bizim Vətənimiz və onun rəhbərliyi haqqında ən xoş və səmimi sözlər eşitmək biz azərbaycanlılar üçün çox xoşdur, bu, bizi daha sıx və səmimi şəkildə birləşdirir.

Məhz Sizin sayənizdə Azərbaycan Respublikası özünün iqtisadi, sənaye, müdafiə və mədəni potensialını qat-qat artırır. Siz dünya arenasında Azərbaycanın milli mənafelərini inamla müdafiə etməklə dövlət suverenliyinin möhkəmlənməsi və respublikanın hər bir vətəndaşının firavanlığının təmin edilməsi üçün səy göstərirsiniz.

Vətən müharibəsində böyük Qələbəyə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizin rəhbərliyinizlə ölkənin ərazi bütövlüyünü bərpa etdi, işğalçılar üzərində çoxdan gözlənilən Qələbə qazandı, Qarabağın tarixi torpaqlarını Azərbaycan xalqına qaytardı. Bu Qələbə bizim Vətənə və bütün Azərbaycan xalqına böyük sevgimizin və sədaqətimizin daha bir sübutudur.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, uğurlar, tükənməz enerji, sülh və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Rakif ƏZİZOV,***
***Mahaçqala şəhəri Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin sədri, Dağıstan Respublikasının rəhbəri yanında Millətlərarası Münasibətlər Şurasının üzvü***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Qədirbilən Azərbaycan xalqı ölkənin inkişafında, dövlətçiliyin möhkəmləndirilməsində Sizin xidmətlərinizi daim yüksək qiymətləndirir. Bir din xadimi olaraq vurğulamaq istəyirəm ki, Siz heç bir ayrı-seçkilik qoymadan səmavi dinlərə xüsusi diqqət göstərirsiniz. Dünyanın bir çox ölkələrində İslam və Xristian dinlərinə aid abidələrin - məscidlərin, kilsələrin və digər dini məbədlərin bərpasında Sizin xidmətləriniz böyük alqış və dualarla qarşılanır.

Otuz il hamımızın yaralı yeri olmuş Qarabağımızın azad edilməsi yaşınızın müdriklik çağında xalqımıza ən böyük hədiyyəniz oldu. Torpaqlarımızın azad edilməsindən sonra Qarabağa səfəriniz zamanı, ilk növbədə, məscidi ziyarət etməyiniz Sizin milli-mənəvi dəyərlərimizə nə qədər həssas yanaşdığınızın bariz nümunəsidir. Daim quruculuq və davamlı inkişaf tərəfdarı kimi İslama hörmət və diqqətinizi nümayiş etdirən addımlarınız Sizin mükəmməl inanc sahibi olduğunuzun mübaliğəsiz göstəricisidir.

Hörmətli Prezident, Gürcüstanda yaşayan çoxsaylı soydaşlarımıza qarşı həssaslığınız, ölkələrimiz arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafına xüsusi diqqətiniz bizi dərin tellərlə bağlayır. İnanırıq ki, bu bağlar getdikcə daha da möhkəmlənəcək.

Bizə böyük Zəfər yaşatdığınıza görə Sizə sidqi-ürəkdən duaçıyıq. Uca Yaradan zəfərlərinizi davamlı etsin. Sevinən, şərəfi, şanı özünə qaytarılmış Azərbaycan xalqının dualarını Allah-Taala ömrünüzə naxış kimi nəqş etsin.

Sizə möhkəm cansağlığı, ailə səadəti, yorulmaz fəaliyyətinizdə, sülh təşəbbüsünüzdə uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Hacı Əli ƏLİYEV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə səlahiyyətli nümayəndəsi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Şimali Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Tanrıya dua edərək Sizə firavanlıq, xoşbəxtlik, qardaş Azərbaycan xalqının rifahı, Qafqazda və bütün dünyada möhkəm sülh naminə fəaliyyətinizdə yeni uğurlar və zəfərlər arzu edirəm.

Siz Azərbaycan Respublikasının Prezidenti və öz xalqının lideri kimi ölkənizin sosial-iqtisadi inkişafı və onun beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi işində mühüm nəticələrə nail olmusunuz. Siz Azərbaycan xalqının mənəvi-əxlaqi inkişafı məsələlərinə, İslamın həqiqi mənəvi dəyərlərinin möhkəmlənməsinə, dinlərarası və millətlərarası həmrəyliyin qorunub saxlanmasına və dərinləşməsinə böyük diqqət yetirirsiniz.

Siz atanız, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin işini davam etdirərək Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsi və ölkənin ərazi bütövlüyünün bərpası üçün misilsiz xidmətlər göstərmisiniz. Sizin parlaq diplomatik istedadınız, siyasi müdrikliyiniz və qeyri-adi liderlik keyfiyyətləriniz sayəsində bu gün Azərbaycan regionda şəksiz lider və keyfiyyətcə yeni geosiyasi şəraitin yaradılmasının lokomotivi, sabitliyin, sülhün və mehriban qonşuluğun carçısıdır.

Sizin mərdliyinizə, qətiyyətinizə və müdrik uzaqgörənliyinizə - yalnız həqiqətən güclü və cəsur insana xas olan keyfiyyətlərinizə görə Şimali Qafqazın bütün müsəlmanları adından Zati-alinizə təşəkkürümü bildirməyi özüm üçün şərəf sayıram.

Zati-aliləri, biz, Qafqaz müsəlmanlarının nümayəndələri daim Sizin yanınızda olacağıq. Biz Qafqazda və bütün dünyada sülh, sabitlik və rifah naminə qadir Allaha dua edirik, inşallah.

Ulu Tanrı yorulmaz fəaliyyətinizdə Sizə kömək olsun, mərhəmətini Sizdən heç vaxt əsirgəməsin.

*Dərin hörmətlə,*

***Şaqabitdin KERİMOV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Şimali Qafqazda səlahiyyətli nümayəndəsi***

❖ ❖ ❖

Cənab Prezident!

Sizi dekabrın 24-də tamam olan 60 illik yubileyiniz münasibətilə həm Qardabani Gənclər Mərkəzinin idarə heyəti, həm də Gürcüstanda yaşayan bütün soydaşlarımız adından təbrik edirik. Allahdan Sizə uzun ömür, cansağlığı arzulayırıq.

Sizin diqqət və qayğınız nəticəsində Gürcüstandakı soydaşlarımız da sakit və firavan həyat sürürlər. Otuz ilə yaxın düşmən tapdağında olan Qarabağımız Sizin düzgün siyasətiniz, dərin düşüncəniz, uzaqgörənliyiniz sayəsində və müzəffər Ordunun qorxmaz cəsarəti ilə əziz xalqımıza qaytarıldı. Bu, böyük Qələbə məhz Sizin güclü siyasətinizin nəticəsidir.

Bu gün Gürcüstanla Azərbaycan arasındakı qırılmaz dostluq bağları da Sizin səylərinizlə yüksək səviyyədə davam etməkdədir.

Cənab Prezident, Sizi bir daha təbrik edir, cansağlığı, uzun ömür və daha böyük uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Hacı HACIYEV,***
***Gürcüstanda Qardabani Gənclər Mərkəzinin icraçı direktoru***

## "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 425-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 425-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 425-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;

1.4. həmin Qanunla təsdiq edilmiş "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalı və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 425-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

## Nazir Ceyhun BAYRAMOV: "2021-ci ildə Azərbaycan müstəqil xarici siyasət yürütməkdə davam edib"

Dekabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 2021-ci ilin yekunlarına dair mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, nazir 2021-ci ildə Azərbaycanın ölkənin milli maraqlarına əsaslanaraq öz xarici siyasətini davam etdirdiyini söyləyib. Bildirib ki, Azərbaycanın xarici siyasətinin həm ikitərəfli, həm də çoxtərəfli formatda əsas prioritetləri beynəlxalq əlaqələrini inkişaf etdirməkdir. Azərbaycan bu il ərzində beynəlxalq hüquq və standartlara uyğun olaraq, regional sülh və təhlükəsizliyə sadiq qalmaqla ədalətə nail olmağa çalışıb. Bundan başqa, ölkəmizin xarici siyasəti Azərbaycanın və onun xalqının maraqlarının müdafiəsinə yönəlib.

Ceyhun Bayramov Qarabağla bağlı üçtərəfli Bəyanatın icrası barədə danışıb. Qeyd edib ki, Xarici İşlər Nazirliyi 2021-ci il ərzində regionda sülh və təhlükəsizliyin təmin olunması üçün yaradılmış platformalar çərçivəsində bir sıra tədbirlər keçirib. Gündəlikdə kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, eləcə də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması kimi məsələlər dayanır. Eyni zamanda, Azərbaycanın azad edilmiş ərazilərinin bərpası da prioritet vəzifədir. Bu prosesdə bir çox çətinlik və çağırışlarla üzləşirik ki, bunlar da xüsusilə ərazilərimizdə çox sayda minanın basdırılması ilə bağlıdır. Nazir həmçinin bildirib ki, 2021-ci ildə Azərbaycan beynəlxalq səviyyədə Ermənistana qarşı məhkəmə iddiaları qaldırmaqda davam edib və bu iddiaların bəziləri təmin olunub. Azərbaycan yaxın zamanlarda daha bir neçə konvensiya üzrə - azad olunmuş ərazilərdə ekologiya, ətraf mühitə vurulan ziyan, həmçinin enerji resurslarının, təbii sərvətlərin qanunsuz istifadəsinə dair müvafiq konvensiyalara uyğun olaraq beynəlxalq məhkəmələrə müraciət edəcək.



Xarici işlər naziri bildirib ki, 2021-ci ildə Azərbaycan müstəqil xarici siyasət yürütməkdə davam edib. Bu il Azərbaycanın xarici siyasət baxımından əsas prioritetləri regiondakı yeni reallıqlar fonunda münasibətlərin inkişaf etdirilməsi, həmçinin müxtəlif beynəlxalq layihələrin həyata keçirilməsi olub. 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən sonra regionda formalaşmış yeni reallıqlar kontekstində Azərbaycan BMT, ATƏT, Aİ, Avropa Şurası, İƏT və bir sıra digər regional platformalar daxil olmaqla, bütün mümkün çərçivələrdən istifadə edərək mövqeyini dünya ictimaiyyətinə çatdırmağa çalışıb.

Ceyhun Bayramov həmçinin deyib ki, 2022-ci ilin yanvar-aprel aylarında Azərbaycan ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumuna sədrlik edəcək. ATƏT-in hərbi siyasi ölçüsünü əhatə edən və təşkilatın bu sahədə əsas strukturunu təşkil edən bu quruma sədrlik çox məsuliyyətli işdir. Həmçinin ölkəmizin bu mövzu ilə bağlı mövqeyinin çatdırılması və inkişaf etdirilməsi üçün çox əlverişli platformadır.

Nazir qeyd edib ki, Avropa İttifaqının həm Azərbaycana, həm də regiona marağının artdığı müşahidə olunur. Ölkəmizə və bölgəyə çoxsaylı səfərlər, görüşlər bunu deməyə əsas verir. Azərbaycan ilə Aİ arasında 2024-cü ilə qədər əməkdaşlıq prioritetləri artıq təsdiqlənib. O, eyni zamanda, deyib ki, 1996-cı ildə Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq haqqında saziş imzalanıb. Həmin saziş 1999-cu ildə qüvvəyə minib. Sazişin 10 il müddəti var. Ancaq sazişin şərtlərinə əsasən, yeni saziş imzalanmayanadək hər il avtomatik olaraq onun müddətinin uzadılması nəzərdə tutulur. Yeni saziş üzərində danışıqlar aparılır. Bu saziş əsasən dörd bölmədən ibarətdir. Bu, siyasi təhlükəsizlik, ticarət, iqtisadi, sahəvi institusional inkişaf və digər məsələləri əhatə edir. Pandemiya ilə əlaqədar məhdudiyyətlərə görə danışıqlar prosesində müəyyən səngimə var idi. Ancaq ötən ilin iyunundan başlayaraq Aİ ilə Azərbaycan arasında saziş üzrə intensiv danışıqlar gedir. Açıq qalan məsələlərin sayında azalma var. Hesab edirik ki 2022-ci ildə bu sazişin yekunlaşdırılması mümkün olacaq .

"Azərbaycan-Fransa münasibətlərinin kifayət qədər uzun tarixi var. Azərbaycan uzun illər ərzində bu münasibətlərin inkişafına xidmət edib. Humanitar sahədə böyük birgə fəaliyyətimiz, nəticələrimiz və uğurlarımız olub. Azərbaycan hər bir dövlət, eyni zamanda, Fransa ilə münasibətlərinin inkişafında maraqlıdır. Postmünaqişə dövründə Fransa dövlətinin rəsmi nümayəndələri tərəfindən qərəzli açıqlamalar olub. Azərbaycan bunun qəbuledilməz olduğunu qarşı tərəfə çatdırıb. Azərbaycan dövlətinin ərazi bütövlüyünə hörmətsizlik göstərən hər bir şəxsin adı ölkənin qara siyahısına daxil edilir. Son aylar ərzində həm ikitərəfli əsasda, həm də Minsk qrupunun həmsədrlərinin iştirakı ilə keçirilən görüşlərdə Fransanın balanslı münasibətlər sərgilədiyini görmüşük", - deyə Ceyhun Bayramov qeyd edib.

Azərbaycanın qardaş Türkiyə ilə Ermənistanın münasibətlərinin normallaşmasını tam dəstəklədiyini deyən nazir bildirib: "Azərbaycan Türkiyənin bütün səviyyələrdə verdiyi mesajları yüksək qiymətləndirir. Biz dövlətlərarası münasibətlərin normallaşmasından danışırıqsa, münasibətlərin normallaşmasının bir əsası olmalıdır. Bu da beynəlxalq hüququn norma və prinsipləridir. Biz beynəlxalq hüququn norma və prinsipləri əsasında dövlətlərlə münasibətləri inkişaf etdiririk. Azərbaycan Ermənistana beynəlxalq hüququn norma və prinsipləri əsasında münasibətlərin qurulmasını təklif edir".

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

2021-ci il noyabrın 16-da Kəlbəcər və Laçın rayonları ərazisindəki Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin təxribatlarının və hücumlarının qarşısının alınması, dövlət sərhədinin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə verilən döyüş tapşırığını uğurla yerinə yetirmiş, öz xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən şücaət və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Niftəliyev Ümüd Oruc oğlu - leytenant (ölümündən sonra)
Cabarov Orxan Hətəm oğlu - gizir (ölümündən sonra)

**"Vətən uğrunda" medalı ilə**

Əliyev Natiq Yusif oğlu - kiçik çavuş (ölümündən sonra)
Ağayev Elçin Mərifət oğlu - əsgər (ölümündən sonra)
Əliyev Elçin Ramil oğlu - əsgər (ölümündən sonra)
Əlizadə Elmin Samir oğlu - əsgər (ölümündən sonra)
Xəlilov Murad Qalib oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**

Səfiyev Cəlal Nazim oğlu - kapitan
Dadaşev Elmir İdris oğlu - baş leytenant
Əhmədov Löhraz Rahib oğlu - baş leytenant
İsayev Müşviq Məhəmmədiyyə oğlu - baş leytenant
Tağıyev Osman Kərim oğlu - baş leytenant
Rəsulov Murad İlqar oğlu - leytenant
Dəmirov Natiq Nəzirxan oğlu - gizir
Əhmədov Tofiq Rafiq oğlu - gizir
Əliyev Rövşən Ramiz oğlu - gizir
Kərimov Vahab Kərim oğlu - gizir
Salahov Mirhüseyn Feyzulla oğlu - kiçik gizir
Vəlixanlı Adil Barat oğlu - çavuş
Səmədov Elmin Mirzəli oğlu - kiçik çavuş
Allahmanov Ülvi Süleyman oğlu - əsgər
İbrahimov Tengiz Teymuroviç - əsgər
Səlimov Ramiz Mübariz oğlu - əsgər

**"Cəsur döyüşçü" medalı ilə**

Həsənov Tural Rza oğlu - kapitan
Abasov Səxavət Yaqub oğlu - baş leytenant
Mehtiyev Mehman Vaqif oğlu - baş leytenant
Cəfərov Müzəffər Eldar oğlu - tibb xidməti leytenantı
Əliquliyev Etibar Yasin oğlu - leytenant
Nuriyev Natiq Abdulla oğlu - gizir
Usublu İslam Ələddin oğlu - gizir
Alişanov Elmar Eldar oğlu - kiçik çavuş
İsmayılov Elman Abas oğlu - kiçik çavuş
Mirzəyev Raqib Teyyub oğlu - kiçik çavuş
Şafaqatov Simran Azər oğlu - kiçik çavuş
Abdullayev Hikmət Elman oğlu - baş əsgər
Adgözəlov İsgəndər Nizami oğlu - əsgər
Allahverdiyev Mərhəmət Əbülfəz oğlu - əsgər
Aslanov Aslan Şahhüseyn oğlu - əsgər
Cabbarlı Sirac Eldar oğlu - əsgər
Əliyev Elgün Elşən oğlu - əsgər
Əliyev Səxavət Rizvan oğlu - əsgər
Əlizadə Məhəmməd Vüqar oğlu - əsgər
Hacıyev Dəmirəl Telman oğlu - əsgər
Həmzəyev Ceyhun Zeynal oğlu - əsgər
Həsənov Eltac Bayram oğlu - əsgər
Həsənov Kənan Vidadi oğlu - əsgər
Hüseynov Elşad Zaur oğlu - əsgər
Hüseynov Oruc Nəbi oğlu - əsgər
Hüseynov Səxavət Emil oğlu - əsgər
İsmayıllı Fərhad Yasər oğlu - əsgər
Qasımov Ehtibar Araz oğlu - əsgər
Quliyev Nurlan Yaşar oğlu - əsgər
Qurbanov Sabir Səməd oğlu - əsgər
Məmmədzadə Əli Elnur oğlu - əsgər
Mənəfov Əli Etibar oğlu - əsgər
Mikayılzadə Səid Asəf oğlu - əsgər
Muqrayev Əsəbəli Aydın oğlu - əsgər
Nağıyev Murad Tahir oğlu - əsgər
Şahverdiyev Rəhim Sədrəddin oğlu - əsgər
Tağıyev Elcan Elman oğlu - əsgər
Taharov Samir Rasil oğlu - əsgər
Teyyubzadə Roman Ramiz oğlu - əsgər
Valikov Natiq Coşqun oğlu - əsgər
Yusifov Qabil Habil oğlu - əsgər
Zeynalov Afər Asif oğlu - əsgər
Zeynalov İbrahim Suliddin oğlu - əsgər
Zeynalov İlkin Fizuli oğlu - əsgər

**"Döyüşdə fərqlənməyə görə" medalı ilə**

Babayev Nəbi Tofiq oğlu - polkovnik-leytenant
Cabbarov Ramin Sabir oğlu - polkovnik-leytenant
Paşayev Elnur Həvasət oğlu - kapitan
Hümbətov Ülfət Rahim oğlu - baş leytenant
Qocayev Aqil Bərşad oğlu - leytenant
Muradov Əbubəkir Məhərrəm oğlu - leytenant
Kazımov Kamran Eyvaz oğlu - kiçik gizir
Məmizadə Təbriz İsa oğlu - kiçik gizir
Mustafayev Feyzi Ramazan oğlu - kiçik gizir
Adgözəlov Elvin Novruz oğlu - kiçik çavuş
Əliyev Həsən İbrahim oğlu - əsgər
Həsənov Kamran Elşad oğlu - əsgər
Hüseynzadə Mahir Vüqar oğlu - əsgər
İsgəndərov Tural Qəhraman oğlu - əsgər
Kamahov Şamil Səfər oğlu - əsgər
Quliyev Fəhrad Fərrux oğlu - əsgər
Mehdizadə Hüseyn Rövşən oğlu - əsgər
Məhərrəmov Pirməmməd Müslüm oğlu - əsgər
Məmmədov Xəyal Mübariz oğlu - əsgər
Seyidəliyev Aqşin Sabir oğlu - əsgər

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Cavanşir Zaur Sabir oğlu - general-mayor
İbrahimov Cabbar Zakir oğlu - polkovnik
Həsənov Natiq Fazil oğlu - mayor
Səlimov Ayaz Səlim oğlu - mayor
Məmmədov Samir Məmməd oğlu - kapitan
Musalı Sahil Sahibxan oğlu - leytenant
Xəlilov Namiq Elşən oğlu - əsgər
İbişov Nicat Mahir oğlu - əsgər
Məmmədov Nurlan Fəzail oğlu - əsgər
Ömərli Cavidan Tahir oğlu - əsgər
Rüstəmov Eltəkin İlkin oğlu - əsgər
Yahyabəyov Cahangir Fizuli oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**

general-mayor Zaur Qasım oğlu Abdullayevə
general-mayor Mayıl Seminar oğlu Şahverdiyevə
general-mayor Yusif Həsən oğlu Mirzəyevə

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Çingiz Böyükağa oğlu Kiçibəyova.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# M.B.Babayevə "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Polkovnik Münasib Balaca oğlu Babayevə "general-mayor" ali hərbi rütbəsi verilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli 1974 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli 1974 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 155; 2014, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2017, № 1, maddə 85, № 8, maddə 1521; 2018, № 5, maddə 1021) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. "Komissiyanın sədri" hissəsində "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözləri "Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri ilə əvəz edilsin;

1.2. "Komissiyanın üzvləri" hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini" sözləri "rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.3. "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun icraçı direktoru" sözlərindən sonra "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözləri əlavə edilsin.

2. 2-ci hissədə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə" sözləri "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

3. 3.1-ci bənddə və 4-cü hissədə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005 - 2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Kontitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddə 1324, № 11, maddə 1325, № 12 (I kitab), maddə 1428, № 12 (I kitab), maddə 1430; 2021, № 1, maddə 9) 2-ci maddəsinə "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" medalı;

"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" yubiley medalı;".

**Maddə 2.** "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005 - 2020)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005 - 2020)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2021-ci il*

# "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 429-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 429-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 429-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur.

2. "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının müdafiə sənayesi nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 429-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

*Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasında müdafiə sənayesi fəaliyyətinin təşkili, inkişafı və möhkəmləndirilməsi sahələrində xüsusi xidmətləri olan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005 - 2020)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) qızılı rəngli, hamar şüalı və itibucaqlı səkkizguşəli ulduz formalı, diametri 38 mm olan metal lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir. Daxili çevrənin xaricində zeytun rəngli minalı fonda yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASI" sözləri, aşağı qövs boyunca "MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ" sözləri yazılmışdır, sözlərin arasında dairəvi lövhənin sol və sağ tərəfində aşağıdan yuxarıya doğru uzanan dəfnə budaqları təsvir olunmuşdur. Yazılar və dəfnə budaqları qızılı rəngdədir.

2.2. Daxili çevrənin aşağı hissəsində yuxarıya doğru uzanan iki dəfnə budağından və budaqların qovuşduğu hissədə təsvir olunmuş iki dəfnə meyvəsindən ibarət dəfnə çələngi təsvir edilmişdir. Qızılı rəngli daxili çevrənin mərkəzində kursivlə "15" rəqəmləri, "5" rəqəminin aşağı qövsünün içərisində isə "il" sözü yazılmışdır. "15" rəqəmləri ilə dəfnə çələngi arasında "2005-2020" rəqəmləri həkk olunmuşdur.

2.3. Bütün təsvirlər və yazılar relyeflidir, qızılı rəngdədir.

"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı



**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində dörd sətrə bölünməklə "AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ" sözləri, onun altında daha qalın şriftlə "2005-2020" rəqəmləri həkk olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, üst və alt hissəsinə müvafiq olaraq 40 mm x 5.5 mm və 40 mm x 6.5 mm ölçüdə qızılı rəngli metal lövhələr bərkidilmiş 37 mm x 50 mm xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində mərkəzdə 23 mm enində zeytun rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 2 mm enində qızılı rəngli və 5 mm enində zeytun rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) qızılı rəngli, hamar şüalı və səkkizguşəli ulduz formalı, diametri 38 mm olan metal lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir. Daxili çevrənin xaricində zeytun rəngli minalı fonda yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASI" sözləri, aşağı qövs boyunca "MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ" sözləri yazılmışdır, sözlərin arasında dairəvi lövhənin sol və sağ tərəfində səkkizguşəli ulduz təsvir olunmuşdur. Yazılar və ulduzlar qızılı rəngdədir.

2.2. Daxili çevrənin üzərində qızılı rəngli fonda üç sətrə bölünməklə "MÜDAFİƏ SƏNAYESİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA GÖRƏ" sözləri yazılmış və sözlərin altında snayper tüfəngi təsvir edilmişdir. Yazı və tüfəng fonunda Azərbaycan Respublikasının xəritəsinin konturları təsvir edilmişdir.

2.3. Bütün təsvirlər və yazılar relyeflidir, qızılı rəngdədir.

"Müdafiə Sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı



**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində dörd sətrə bölünməklə qızılı rənglə "AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ" sözləri həkk olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, üst hissəsinə 40 mm x 5.5 mm ölçüdə qızılı rəngli metal lövhə bərkidilmiş 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində mərkəzdə 15 mm enində qızılı rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 5 mm enində zeytun rəngli, 2 mm enində qızılı rəngli və 4 mm enində zeytun rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə olunur.

*Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

"Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı ilə müdafiə sənayesi sahəsində səmərəli əməkdaşlığa, mühüm layihələrin hazırlanmasında və həyata keçirilməsində fəal iştiraka, habelə xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

# “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalının və “Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Kontitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452,472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7,maddələr 514, 515, № 12,maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11,maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612,623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1,maddə 9) 2-ci maddəsinə”Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 25 illiyi (1992-2017)” yubiley medalı; ”hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” yubiley medalı;

“Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” və “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

*Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasının gömrük orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən gömrük orqanlarının əməkdaşları, habelə Azərbaycan Respublikasının gömrük işinin təşkilində, təkmilləşdirilməsində və möhkəmləndirilməsində xüsusi xidmətləri olan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm və qalınlığı 2,5 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin mərkəzindən yuxarıda sağ və sol hissələri yaşıl rəngli dəfnə çələngləri ilə əhatə olunmuş, qabaritinin hündürlüyü 1,5 mm olan Azərbaycan Respublikası gömrük orqanlarının embleminin elementləri olan qalxan, onun arxasında qılınc və qılıncın aşağı hissəsində açardan ibarət kompozisiya təsvir edilmişdir. Kompozisiyanın sol tərəfində “1992” və sağ tərəfində “2022” rəqəmləri yazılmışdır.

2.2. Bu Qanunun 2.1-ci maddəsində göstərilən kompozisiyanın yuxarı hissəsində qövs boyunca qara rənglə “AZƏRBAYCAN RESPUBLİKASI”, aşağı hissəsində isə “DÖVLƏT GÖMRÜK KOMİTƏSİ” sözləri yazılmışdır. “DÖVLƏT GÖMRÜK KOMİTƏSİ” sözləri ilə kompozisiya arasında Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini



əks etdirən üçrəngli dekorativ lentin üzərində “30 İL” sözləri yazılmış, “30 İL” sözlərinin altında ağ rəngli aypara və ulduzun, sağ tərəfində isə yaşıl rəngli dəfnə çələnginin təsviri verilmişdir.

2.3. Dəfnə çələngləri, qalxan, qılınc, açar, dekorativ lent, sözlər və rəqəmlər relyeflidir. Mavi və boz rəngli qalxan, qara və bürüncü rəngli elementləri olan qılınc, ağ rəngli açar, mavi, qırmızı və yaşıl mina ilə örtülmüş dekorativ lent, ağ rəngli mina ilə örtülmüş “30 İL” sözləri, aypara və ulduzun təsviri istisna olmaqla digər elementlər qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin yuxarı hissəsindən mərkəzə doğru “AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN 30 İLLİYİ” sözləri, aşağı hissəsində isə “1992-2022” rəqəmləri yazılmışdır. Sözlər və rəqəmlər relyefli və qızılı rəngdədir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində onun seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin aşağı və yuxarı hissəsində eni 3,5 mm olan qızılı rəngli metal hissə vardır.

4.2. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq 2 mm enində tünd mavi, 10 mm enində mavi və mərkəzdə 3 mm enində ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçüdə qəlib əlavə edilir.

*Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

1.1. “Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı ilə aşağıdakı şəxslər təltif olunurlar:

1.1.1. Azərbaycan Respublikasının gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, habelə beynəlxalq təşkilatların nümayəndələri;

1.1.2. Azərbaycan Respublikasının gömrük orqanları qarşısında duran vəzifələrin yerinə yetirilməsi işində kömək göstərdiklərinə görə Azərbaycan Respublikasının vətəndaşları;

1.1.3. Azərbaycan Respublikası ilə gömrük işi sahəsində əməkdaşlığın möhkəmləndirilməsində xidmətlərinə görə xarici ölkələrin vətəndaşları.

**Maddə 2. Təltif edən orqan**

“Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, kənarları səkkizguşəli ulduz formalı, diametri 50 mm və qalınlığı 2,5 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində dairənin ortasında Azərbaycan Respublikası gömrük orqanlarının embleminin elementləri olan qalxan, onun arxasında qılınc və qılıncın aşağı hissəsində açardan ibarət kompozisiya, dairənin aşağı hissəsində isə sağ və sol tərəflərə istiqamətlənmiş yaşıl rəngli dəfnə çələngləri təsvir edilmişdir.

2.2. Bu Qanunun 2.1-ci maddəsində nəzərdə tutulan kompozisiyada çevrə boyunca qara rənglə “GÖMRÜK ORQANLARI İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞA GÖRƏ” sözləri yazılmışdır.



2.3. Dəfnə çələngləri, qalxan, qılınc, açar və sözlər relyeflidir. Mavi və boz rəngli qalxan, qara və bürüncü rəngli elementləri olan qılınc, ağ rəngli açar istisna olmaqla, digər elementlər qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin mərkəzində qızılı rənglə “GÖMRÜK ORQANLARI İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞA GÖRƏ” sözləri yazılmış, sözlərin aşağı hissəsində isə sağ və sol tərəfə istiqamətlənmiş yaşıl rəngli dəfnə çələngləri təsvir edilmişdir. Sözlər və dəfnə çələngləri relyeflidir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində onun seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentdə kənarları 3,5 mm qızılı, ortası bərabər ölçülü mavi, qırmızı və yaşıl çalarlı üfüqi zolaqlar təsvir edilmişdir.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçüdə qəlib əlavə edilir.

# “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1, maddə 9) 2-ci maddəsinə “Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920 - 2020)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2021-ci il*

# “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 428-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 428-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 428-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 -2021)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 1-ci maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalının təsviri”nin 3.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 1-ci maddəsində hər iki halda “orqan (qurum)” dedikdə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzərdə tutulur;

1.4. həmin Qanunla təsdiq edilmiş “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalının təsviri”nin 3.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzərdə tutulur.

2. “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının təhsil nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 428-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

*Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalı ilə elm, təhsil və pedaqoji kadr hazırlığı sahələrində yüksək nailiyyətlər əldə etmiş, bu sahələrin inkişafına xüsusi töhfə vermiş, sosial-mədəni inkişafda fəal iştirak etmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşları, o cümlədən keçmiş əməkdaşları, məzunları, həmçinin elm, təhsil və beynəlxalq əməkdaşlıq sahəsində dövlət siyasətinin həyata keçirilməsində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tərəqqisində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 - 2021)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi daxili və xarici çevrələrlə konturlanmışdır.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca tünd göy rəngli fonda “AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ” sözləri, aşağı qövs boyunca “1921 - 2021” rəqəmləri yazılmışdır. “1921 - 2021” rəqəmlərindən sol və sağ tərəflərdə yuxarıya doğru uzanan sünbül budaqları, ondan sonra isə səkkizguşəli ulduz təsvir olunmuşdur.

2.3. Medalın daxili çevrəsinin üzərində qızılı rəngli fonda ucları aşağıdan yuxarıya uzanan aypara və onun mərkəzində təhsili simvolizə edən kitab emblemindən ibarət kompozisiya təsvir olunmuşdur. Həmin kompozisiyanın yuxarı hissəsinə loqotip şəklində “ADPU - 100” sözləri həkk edilmişdir.




2.4. Səkkizguşəli ulduz, çevrənin konturları, aypara və kitab emblemi, sözlər və rəqəmlər, “ADPU - 100” loqotipi və sünbül budaqları relyefli olaraq qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin yuxarı hissəsində loqotip şəklində qızılı rəngdə “ADPU - 100” sözləri, mərkəzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əsas binasının tarixi hissəsinin eskizi relyefli həkk olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçüdə beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin yuxarı hissəsinə mərkəzində relyefli kitab emblemindən ibarət kompozisiya, sol və sağ tərəflərə doğru isə sünbül budaqları təsvir edilmiş qızıl suyuna çəkilmiş 40 mm x 5,5 mm ölçüdə bürünc lövhə bərkidilmişdir.

4.2. Xara lentin üzərində kənarlardan mərkəzə doğru ardıcıl olaraq 1,5 mm enində qızılı, 2 mm enində ağ, 7,5 mm enində qızılı, 2 mm enində ağ, 3,5 mm enində tünd göy və mərkəzdə eni 4 mm olan qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

# S.Ə.Sadıqovun Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səbuhi Əhəd oğlu Sadıqov Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701) 3 nömrəli əlavə - “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nın 72-ci maddəsinə “sənaye parkının” sözlərindən sonra “, sənaye məhəlləsinin və aqroparkın rezidentinin” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

Milli Məclisin iclasında

# Azərbaycanda gender bərabərliyi təmin olunub




Dekabrın 27-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirildi. Gündəliyin təsdiqindən sonra cari məsələlərin müzakirəsi başladı.

Deputatlar Əli Məsimli, Aqil Abbas, Razi Nurullayev, Etibar Əliyev, Aqiyə Naxçıvanlı, Soltan Məmmədov, Müşfiq Cəfərov, Müşfiq Məmmədli, Ramil Həsən, Bəhruz Məhərrəmov bir sıra məsələlərlə bağlı fikirlərini bildirdilər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəliyin birinci məsələsi gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı haqqındadır.

Məlumatı təqdim edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında gender bərabərliyinin təmin edilməsi ilə bağlı 2020-ci ildə görülən işlərdən danışaraq bu ilin ölkəmizin və xalqımızın həyatına erməni faşizmi üzərində qazanılmış tarixi Qələbə ili kimi daxil olduğunu vurğuladı. Komitə sədri 2020-ci ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsinə yönəlik zəruri alət və mexanizmlərin inkişafı istiqamətində atılan mühüm addımlar barədə danışdı, normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verdi. Vurğulandı ki, "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilməsi bu sahədə mübarizənin daha geniş miqyasda və əsaslı olaraq aparılması üçün yeni bir mərhələyə keçidə imkan yaradıb.

Komitə sədri çıxışında gender bərabərliyinin təmin edilməsi istiqamətində hesabat dövrü ərzində beynəlxalq təşkilatlarla əməkdaşlıq, müvafiq mövzularda təlim kurslarının, seminarların, vebinarların təşkil olunması, təlimat və tövsiyələrin hazırlanması işləri barədə məlumat verdi. 2020-ci ildə də institusional mexanizmlərin gücləndirilməsi istiqamətində Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin (UADM) geniş fəaliyyətindən bəhs olundu. Qeyd edildi ki, UADM-in fəaliyyətindən ötən il 25023 nəfər (9876 ailə) bəhrələnib. O da bildirildi ki, respublikanın 15 rayon və şəhərində bələdiyyələrdə Gender Komissiyalarının yaradılmasına dəstək verilib, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün 3 yardım mərkəzi yaradılıb. Həmçinin Qadın Resurs Mərkəzləri tərəfindən COVID-19 pandemiyası dövründə 880 ailəyə psixoloji və 440 ailəyə ehtiyaclarına uyğun yardımlar göstərilib. Bundan başqa, komitədə 860 nömrəli qaynar xətt 2020-ci il dekabrın 1-dən etibarən fəaliyyət göstərməkdədir.

Çıxışında dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadın iştirakçılığının əvvəlki illərlə müqayisədə artmaq üzrə olduğunu bildirən Bahar Muradova hakimiyyət orqanlarında qadınların təmsilçiliyi ilə bağlı statistik rəqəmləri də açıqladı. Komitə sədri əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyi ilə bağlı problemlərə də toxundu, bu sahədə kişilərlə qadınların say nisbətlərini diqqətə çatdırdı, qadınlar arasında özünüməşğulluğun və sahibkarlığın inkişafı istiqamətində dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlərdən danışdı.

Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsinin Azərbaycan hökumətinin əsas prioritetlərdən biri olduğunu qeyd edən Bahar Muradova bir qayda olaraq, ali və orta ixtisas təhsili müəssisələrinin, eləcə də ilk peşə ixtisas təhsili müəssisələrinin işçiləri arasında qadınların üstünlük təşkil etdiyini açıqladı. Rəhbər vəzifələrdə çalışanlar arasında isə orta ixtisas təhsili müəssisələri istisna olmaqla, kişilər böyük üstünlüyə malikdirlər.

Bahar Muradova komitənin ötən dəfəki məlumatının müzakirəsində deputatların qaldırdıqları məsələləri diqqətdə saxladığını və onların həlli istiqamətində müvafiq işləri həyata keçirdiyini dedi.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirdi ki, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2020-ci il üzrə fəaliyyəti haqqında parlamentə təqdim olunan illik məlumat 52 səhifədən, giriş və gender bərabərliyinin təmin edilməsi ilə bağlı istiqamətləri özündə ehtiva edən 4 hissədən ibarətdir. Sənəd bütövlükdə Azərbaycan dövlətinin gender bərabərliyinin təmini üzrə həyata keçirdiyi siyasətin yerinə yetirildiyini təsdiqləyir və qənaətbəxşdir. Bildirilib ki, mövcud pandemiya, müharibə və post müharibə şəraitinə baxmayaraq, komitə bir sıra yeni layihələr həyata keçirib, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində mühüm sənədlər hazırlayıb.

Qadınların ictimai həyatın bütün sahələrində iştirakı olmadan güclü, sabit dövləti təsəvvür etməyin mümkünsüzlüyünü vurğulayan komitə sədri bildirdi ki, bu səbəbdən də qlobal gündəlikdə dayanan məsələlər ayrı-ayrı ölkələrin məqsədləri ilə üst-üstə düşür.

Bu sahədə qlobal təşəbbüslərin daha da artdığını qeyd edən Hicran Hüseynova cari il oktyabrın 13-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən Üçüncü Avrasiya Qadın Forumunda Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə nümayəndə heyətinin plenar iclasda və ayrı-ayrı sessiyalarda iştirak edərək Azərbaycan qadınlarının uğurları və dünya qadın hərəkatına verdiyi töhfələr barədə məruzə və təqdimatlarını qeyd etdi. Hicran Hüseynova vurğuladı ki, ölkədə gender bərabərliyinin təmin olunması Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqətindədir.

Sənədin müzakirələrində komitə sədri Siyavuş Novruzov, deputatlardan Fazil Mustafa, Etibar Əliyev, Məlahət İbrahimqızı, Rəşad Mahmudov, Nigar Arpadarai, Səbinə



Xasayeva, Razi Nurullayev, Erkin Qədirli çıxış etdilər. Deputatlar ölkədə gender mədəniyyətinin yüksəldilməsi üçün gender sahəsində fəaliyyət göstərən qurumların, maarifləndirmə işlərinin effektivliyinin artırılması, qanunvericiliyin və xüsusən də onların icrasının təkmilləşdirilməsi ilə bağlı fikirlərini bildirdilər, rəy və təkliflərini səsləndirdilər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirdi, onları narahat edən istiqamətlər üzrə hökumətin mövqeyi, gördüyü işlər və gələcək perspektivlər barədə məlumat verdi.

Müzakirələrin sonunda Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı nəzərə alındı.

Sonra parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Turizm haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirdi ki, layihənin ikinci oxunuşda müzakirəsi zamanı deputatlar bütövlükdə qanun layihəsini dəstəklədiklərini ifadə ediblər və sənədin təkmilləşdirilməsinə dair bəzi təkliflər səsləndiriblər. Sənədin üçüncü oxunuşu ilə bağlı komitənin genişləndirilmiş iclası keçirilib və qaldırılan məsələlər layihənin müəllifləri ilə ətraflı müzakirə olunub. Qeyd edildi ki, məsələlərin bir çoxu turizmlə bağlı ümumi problemləri əhatə edir, digər hissəsi qanunun qəbulundan sonra icrası ilə bağlı tövsiyələrdir və Turizm Agentliyi belə qərar verib ki, bütün deyilən məsələlər qanunun qəbulundan sonra müvafiq sənədlərin hazırlanması zamanı nəzərə alınacaq. Komitə sədri onu da bildirdi ki, sənəddə deputatların dörd istiqamətdə təklifləri nəzərə alınıb və qanunun müvafiq maddələrinə dəyişikliklər edilib.

Yeni qanun layihəsi ölkəmizdə turizmin dayanıqlı inkişafını təmin etmək məqsədilə turizm sahəsində dövlət idarəetməsinin əsaslarını, turizm sənayesinin tənzimlənmə mexanizmlərini, turizm ehtiyatlarından səmərəli istifadə qaydalarını və turizm sahəsinin maliyyələşdirilmə mənbələrini müəyyən edir.

Deputatlar Məzahir Əfəndiyev İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Fazil Mustafa Mədəniyyət komitəsinin sənədə dair müsbət rəylərini diqqətə çatdırdılar. "Turizm haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verdi. Layihəyə əsasən, Məcəlləyə turizm haqqında qanunvericiliyin pozulması ilə əlaqədar yeni 428-1-ci maddə əlavə olunur.

Komitə sədri Musa Quliyev Əmək və sosial siyasət, deputatlar Fazil Mustafa Mədəniyyət və Məzahir Əfəndiyev İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin Məcəlləyə edilən dəyişikliyi dəstəklədiklərini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəliyin 4-cü məsələsindən 17-ci məsələsinədək bir məktubda parlamentə daxil olan və mahiyyətcə bir-birinə yaxın qanun layihələridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili həmin məsələlər barədə üçüncü oxunuşda ümumi məlumat verdi. Bildirildi ki, ikinci oxunuşda deputatlar tərəfindən bir sıra məsələlər qaldırılıb və bəzi dəqiqləşdirmələr aparılıb. Bununla bağlı "Lotereyalar haqqında", "Dövlət satınalmaları haqqında", Telekommunikasiya haqqında" qanunlarda və Vergi Məcəlləsində bir sıra texniki xarakterli düzəlişlər edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə ediləcək dəyişikliklərlə bağlı məlumat verdi. O, komitə tərəfindən irəli sürülən təkliflərin qanunvericilik təşəbbüsü subyekti ilə müzakirələr zamanı nəzərə alındığını diqqətə çatdırdı. Təklifə əsasən, qumar oyunlarının təşkili və keçirilməsi ilə bağlı məsuliyyət Cinayət Məcəlləsinin iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlər fəslinə deyil, ictimai mənəviyyat əleyhinə cinayətlər fəslinə aid olmalıdır. Bu nəzərə alınaraq, 244-1-ci maddə yeni redaksiyada təqdim edilib.

Bildirildi ki, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsində isə qumar oyunlarının təşkili və keçirilməsini nəzərdə tutmayan digər əməllər dəqiq sadalanıb və inzibati məsuliyyət müəyyən edilib. Maddənin qeyd hissəsində deyilir ki, qumar oyunlarının təşkili və keçirilməsi cinayət məsuliyyətinə səbəb olur.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirdi ki, onun rəhbərlik etdiyi komitənin üzvlərinin verdiyi təkliflər nəzərə alınıb və komitə təqdim olunan qanun layihələrini dəstəkləyir.

Tahir Rzayev və Zahid Oruc da rəhbərlik etdikləri komitələrin də layihələri dəstəklədiyini bildirdilər. Müzakirələr zamanı Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov və deputat Tahir Kərimli də öz fikirlərini açıqladılar.

Sonra "Lotereyalar haqqında" qanunda, İnzibati Xətalar, Mülki, Cinayət, Vergi məcəllələrində, "Bədən tərbiyəsi və idman haqqında", "Lisenziyalar və icazələr haqqında", "Atçılıq haqqında", "Reklam haqqında", "Dövlət satınalmaları haqqında", "Telekommunikasiya haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarda və Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub və üçüncü oxunuşda qəbul edildi.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda təqdim etdi. Bildirdi ki, qanun layihəsi Prezidentin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 23 sentyabr 2020-ci il tarixli fərmanına əsasən hazırlanıb. Təklif edilən dəyişiklik və əlavələr vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində fəaliyyətin təkmilləşdirilməsinə, vətəndaş məmnunluğunun, operativliyin və əlçatanlığın təmin edilməsinə xidmət edəcək.

Deputat Hikmət Məmmədov bəzi məsələlərlə bağlı fikirlərini bildirdikdən sonra Ailə Məcəlləsinə edilən dəyişikliklər səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verdi.Qeyd edildi ki, xarici ölkələrdə Azərbaycan Respublikası vətəndaşı, Azərbaycanda daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslə bağlı doğumun və ölümün qeydiyyatı həmin ölkədə verilmiş təsdiqedici tibbi sənədlər əsasında konsulluqlar tərəfindən aparılır və bu barədə məlumat Əhalinin Dövlət Reyestrində yerləşdirilir. Bununla əlaqədar Konsul Nizamnaməsində müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

Komitə sədri Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsində də bu məsələyə baxıldığını və müsbət rəy verildiyini dedi.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib



Dekabrın 27-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Hadrut qəsəbəsinə səfəri zamanı Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb. Azərbaycan xalqı və Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən rəşadətli Ordumuza ən yüksək qiymət verildiyi qeyd olunub.

Müşavirədə dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə mövcud vəziyyət təhlil edilib. Nazir xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsini, xüsusilə qarşıdan gələn bayram günlərində ayıq-sayıqlığın artırılmasını əmr edib.

Qoşunlarda keçirilən təlimləri müsbət qiymətləndirən nazir bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə müxtəlif təlim və praktiki məşqlərin real döyüş şəraitinə uyğun, gecə və gündüz vaxtı aparılması ilə əlaqədar tapşırıq verib.

Qış dövrü ilə əlaqədar bölmələrin maddi-texniki və mühəndis təminatı, o cümlədən şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması və tibbi təminatının gücləndirilməsinə xüsusi diqqət yetirilməsi, hərbi qulluqçuların isti geyim və yeməklərlə vaxtında təmin edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Müdafiə naziri, həmçinin tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# Birinci Qarabağ savaşının salyanlı qaziləri Prezidentin fərmanını yüksək dəyərləndirirlər

*Əvvəli 1-ci səh.*

Həmin vaxt Salyan rayonundan 1643 nəfər gənc cəbhəyə yollandı. Vahid komandanlığın, lazımi silah-sursatın olmadığı şəraitdə min bir çətinliyə sinə gərərək Vətən, torpaq sevdalı igid oğullarımız ölümün gözünə dik baxdılar və cəsarətlə vuruşdular. Amma qüvvələr bərabər deyildi. O zaman Salyana bəzən gün ərzində bir neçə şəhid gəlirdi. Birinci Qarabağ müharibəsində onların sayı 193 nəfərə çatdı. Rayon əhalisi o vaxt onların hamısını böyük ehtiramla son mənzilə yola saldı. 157 nəfər isə bu və ya digər dərəcədə sağlamlığını itirdi. 5 nəfəri 1-ci, 73 nəfəri 2-ci, 79 nəfəri isə 3-cü dərəcəli əlil oldu.

İstər şəhid ailələri, istərsə də qazilər həmişə dövlətin diqqət mərkəzində olmuşdur. Xəbər verildiyi kimi, bu günlər Prezident İlham Əliyev "Azəbaycan Pespublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzalamışdır. Fərman bütün hərbi qulluqçular, qazilər və şəhid ailələri tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

**Birinci Qarabağ müharibəsi qazisi, Xələc kənd sakini Rövşən Cavadov:** "Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq cəbhəyə getdim. 1992-ci ildə Ağdərənin düşməndən geri alınmasında yaxından iştirak etdim. Elə həmin il Ağdamın Şelli kəndində gedən döyüşlərdə yaralandım. Müalicə olunduqdan sona mənə 2-ci qrup əlillik verdilər. Dövlətin bütün qayğıkeşliyi ilə əhatə olunmuşam. Ev, minik maşını veriblər. Hər ay 643 manat müavinət alıram. Fərmanla əlaqədar 2-ci qrup əlil kimi 6 min 600 manat almaq imkanım olacaq. Deməli, heç kim unudulmur, heç nə yaddan çıxmır, tökülən qanlar yerdə qalmır. Prezident, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi nəticəsində torpaqlarımız geri alındı. Mənim üçün dünyada bu Zəfərdən əziz heç nə yoxdur. O vaxt belə bir ordu, belə nizam-intizam olsaydı, torpaqlarımız da itirilməzdi".

**Qarabağlı kənd sakini, qazi Şahin Şükürov:** "Atam əslən Kəlbəcərin Əsrik kəndindən idi. Salyan rayonunun Qarabağlı kəndində ailə qurub, burada məskunlaşıb, biz burada anadan olmuşuq. İmkan olanda atamın yurdunda yaşayan əmilərimgilə qonaq gedirdim. Birinci Qarabağ müharibəsi başlayanda mən də o yerlərə getməyi, Vətəni müdafiə etməyi özümə borc bilib cəbhəyə yollandım. Bu, 1991-ci il idi. Könüllü olaraq Ağdam uğrunda gedən döyüşlərdə iştirak etdim. Çox çəkmədi, ora bizim bir batalyon gəldi. Dedilər, gedin, yaşadığınız rayonun hərbi komissarlığından keçib orduya yazılın. Rayona qayıtdım. O vaxt burada Salyan batalyonu yaradılırdı. Mən də könüllü olaraq batalyonun tərkibinə yazıldım. Buradan bizi Ağdamın Şelli kəndinə göndərdilər. Kəndin yaxınlığındakı Qara Qaya yüksəkliyi uğrunda gedən döyüşdə ağciyərimdən, qabırğamdan ağır yara aldım. Helikopterlə məni Bakıya hospitala gətirdilər. 8 ay müalicə olundum. Ağciyərimə süni aparat qoydular. 2-ci qrup əliləm, başımda və kürək nahiyəmdə iki qəlpə var. Oğullar Vətəni qorumaq üçün doğulur. Bu hər bir kişinin, gəncin şərəf işidir. Dövlətimiz də bizimkimilərin qayğısına qalır. Mən də bu gün hər cür diqqətlə əhatə olunmuşam. Mənzil, minik avtomobili veriblər. Hər ay 500 manat əlillik pensiyası, 300 manat Prezident təqaüdü alıram. Pis dolanmırıq. Prezidentin müharibə əlillərinə birdəfəlik ödəmə haqqında imzaladığı fərman mənim də ürəyimcədir. 2-ci qrup əlil kimi mən də 6 min 600 manat almalıyam. Özüm və ailə üzvlərim adından ölkə başçısına minnətdarlığımı bildirmək istəyirəm. Mən artıq qalib Ordunun veteranıyam. Ali Baş Komandanımızın sayəsində Azərbaycan düşmənə qalib gəlib. 60 yaşının tamam olduğu gün Qarabağda hərbi hissədə əsgər və zabitlərin hazırlıq vəziyyəti ilə tanış olması, hərbi hissəyə Azərbaycan Bayrağını təqdim etməsi Prezidentin - dəmir yumruq sahibinin hər zaman sərvaxt olmasını bir daha göstərir".

Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri İctimai Birliyi Salyan rayon filialının sədri Asif Əsgərov qurumun rəhbəri kimi Birinci Qarabağ müharibəsi əlillərinə veriləcək birdəfəlik ödəmə ilə bağlı dedi ki, Yeni il ərəfəsində Prezidentin fərmanı hər birimizdə qürur hissi yaradır. Allah razı olsun!

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Növbəti komando kursunu bitirən hərbi qulluqçularımız vətənə qayıdıblar



Azərbaycan ilə Türkiyə arasında imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə çərçivəsində qardaş ölkənin İsparta şəhərində keçirilən növbəti "Komando hazırlığı" kursunu müvəffəqiyyətlə bitirən hərbçilərimiz vətənə qayıdıblar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iki qardaş ölkə arasında mövcud hərbi əməkdaşlıq çərçivəsində hərbi qulluqçularımızın müvafiq kurslarda iştirak etməsində əsas məqsəd Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin və şəxsi heyətin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsidir.

# ANAMA: "Ötən həftə 97 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, dekabrın 20-dən dekabrın 25-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 2, tank əleyhinə 25 mina və 112 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 97 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.



# İlham Əliyev sözü: Taxtakörpüdən Şuşayadək...

## 50-də verilən vəd, 60-da gerçəkləşən məram

*Əvvəli 1-ci səh.*

### Azərbaycanın ərazi bütövlüyünü qoruyacağına and içmişdi



İlham Əliyev hələ 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdi ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq.

24 dekabr 2011-ci ildə, dövlət başçısı 50 illik yubileyini Qarabağ torpağında - Ağcabədidə Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün bir daha bəyan etmişdi ki, biz öz ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik: "...Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm..."

Ötən illər ərzində məcburi köçkün soydaşlarımıza qayğı, onların mənzil və həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində görülən bütün işlər birbaşa Prezident İlham Əliyevin diqqət və nəzarəti altında həyata keçirilib. Onlar müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülüb, yaşayış şəraitləri yaxşılaşdırılıb, sosial rifahlarının yüksəldilməsi üçün dövlət proqramları icra edilib.

Amma hər zaman Prezident İlham Əliyevin gündəliyində duran əsas prioritet işğal altındakı torpaqlarımızın azad edilməsi və həmin insanların öz yurdlarına qaytarılmaları olub. Vətən müharibəsindən sonra müsahibəsi zamanı da dövlət başçısı bununla bağlı vurğuladı ki, hər zaman gözünün önündə məcburi köçkünlər idi: "Nə qədər əzab çəkdilər. Nə qədər əziyyət çəkdilər, amma sınmadılar. Möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"

### Bu torpaqların sahibləri qayıdıb

24 dekabr 2021-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 60 illik yubileyini qalib sərkərdə, müzəffər Ali Baş Komandan kimi Zəfərimizin qürur zirvəsi olan Şuşada qeyd etdi, aldığı yubiley təbriklərinə Cıdır düzündən cavab verdi.

Dövlət başçısı Azərbaycan xalqına verdiyi müqəddəs vədin gerçəkləşməsinin qürurunu, üzərinə düşən ən böyük missiyanı ləyaqətlə yerinə yetirməyin fəxarətini, ata vəsiyyətinə əməl etməyin xoşbəxtlik hissini bu gün bir daha Qarabağda keçirirdi: "Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

Bəli, İlham Əliyev qətiyyəti, siyasi iradəsi, vətənpərvərliyi, cəmi il yarım əvvələ qədər möcüzə kimi görünən bütün bu məsələləri reallığa çevirdi, arzularımızı gerçəkləşdirdi. Bütövlükdə dövlət, xalq olaraq taleyimizi büsbütün dəyişdi, bizi məğlubiyyətdən, Zəfər zirvəsinə daşıyaraq qalib ölkənin vətəndaşlarına çevirdi. Yüzminlərlə soydaşımızı kəlbəcərli, ağdamlı, şuşalı, laçınlı, zəngilanlı, qubadlılı, cəbrayıllı - Vətənli bəxtəvərlərə çevirdi.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# "Rossiya-1" televiziya kanalı Prezident İlham Əliyev və Azərbaycan haqqında reportaj yayımlayıb

Dekabrın 26-da Rusiyanın "Rossiya-1" televiziya kanalının "Vesti Nedeli" proqramında Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmiz haqqında reportaj yayımlanıb.

AZƏRTAC həmin reportajı təqdim edir.

**Aparıcı:** Dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev 60 illik yubileyini qeyd edib. O, 18 ildən çoxdur ki, dövlət başçısıdır. Bu müddətdə Azərbaycan iqtisadi, sosial sahədə əhəmiyyətli nailiyyətlər əldə edib. İlham Əliyev özü isə beynəlxalq arenada böyük nüfuz qazanıb. Əliyevin Putin ilə münasibətinin xüsusiyyəti ondadır ki, hər ikisi bir-birinə verdiyi sözə əməl edir. Bu, bizim dövrümüzdə dəyərli keyfiyyətdir.

Prezident İlham Əliyev öz yubileyini Şuşada - onun sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən şəhərdə qarşılayıb. Çoxsaylı insanların iştirakı ilə heç bir təntənəli tədbir olmayıb. Televiziyada qısaca çıxış edərək təbriklərə görə təşəkkürünü bildirib, məscidi ziyarət edib.

Bu günlərdə bizim xüsusi müxbirimiz Sergey Zenin Azərbaycanda olub. Onun hazırladığı reportaj "Azərbaycanda rus dili" mövzusuna həsr edilib. Yeri gəlmişkən, Rusiya Elmlər Akademiyasının A.S.Puşkin adına Rus Dili İnstitutunun bu yaxınlarda apardığı araşdırmaya görə, Azərbaycan təhsil sistemində böyük və qüdrətli rus dilinin yayılma dərəcəsinə görə olduqca layiqli yer tutmaqla, digər Qafqaz respublikalarını qabaqlayır.

Müxbir **Sergey Zenin** Bakıdan xəbər verir.

**Sakin:** Yerli moskvalılara məndən - yerli bakılıdan böyük salamlar.

**Sergey Zenin:** Qədim şəhər. Burada dənizin qoxusu təzə bişmiş çörəyin və kəklikotulu çayın ətrinə qarışır. Bura Bakının qəlbi, nostalji hisslərin yeridir.

Bu küçələr belə qurulub. Turistlər şalbanbaşı döşənmiş bu küçədə mütləq ayaq saxlamalı, ayaqları sürüşməli və bu əhvalatdan xatirə kimi şəkil çəkdirməlidirlər. Ona görə ki, hamının özünü rahat hiss etdiyi dövrdə burada gözəl bir sovet filmi çəkilib.

Xahiş edirəm deyin, buradan keçən turistlərin ayağı tez-tezmi sürüşür?

**Sakin:** Hər gün belə hallar olur. Bu, bizə çox xoş təsir bağışlayır.

**Sergey Zenin:** Vaxtilə nəhəng bir ölkədən gələn insanlar şalbanbaşı döşənmiş bu küçəyə bəlkə də Qızıl Meydan kimi can atırdılar. Xahiş edirəm deyin, siz haradan gəlmisiniz?

**Qadın turist:** Biz Estoniyadan gəlmişik. Çox şadıq ki, nəhayət bu ölkəyə gələ bilmişik.

**Sergey Zenin:** Burada rus dilində danışa bilməyən orta və daha böyük yaşlı azərbaycanlı tapmaq çətindir. Paytaxtda bu, ümumiyyətlə, pis əlamət hesab edilir. Bakıda bir neçə kitab mağazasında rus klassiklərinin və müasir rus yazıçılarının kitabları satılır.

Rus kitab evinin direktoru **İsrafil İsmayılov:** Rus kitab evinin vitrinlərində, demək olar ki, Bakının bütün mərkəzi əks olunub və həqiqətən, bu, çox rəmzi məna daşıyır. Ona görə ki, məlum olduğu kimi, əvvəlcə Söz yaranıb. Rus kitab evi sadəcə, kitab mağazası deyil, bu, həm də rus dilinə ehtiram bəsləyənlər üçün mədəni mərkəzdir.

**Sergey Zenin:** Rus kitab evində mütəmadi olaraq, avtoqraf-sessiyalar, ustad dərsləri keçirilir. Aşağı sinif şagirdləri buraya tanınmış bir yazıçı qadının çıxışını dinləməyə gəliblər. Onların rus dili ilə tanışlığı nağıldan başlayır və belə də olmalıdır.

Yazıçı **Solmaz Amanova:** Mənim 6 yaşım olanda məndən soruşdular: Azərbaycan dilində neçə söz bilirsən? O vaxt cəmi 6 söz bilirdim. Məsələn, arbuz - qarpız. Çünki rusların arasında yaşayırdıq.




**Sergey Zenin:** Tədrisin rus dilində olduğu orta məktəblərə qəbul üçün institutda olduğu kimi müsabiqə keçirilir. Ən məşhur və ən prestijli rusdilli məktəb 6 nömrəli məktəbdir. Prezident İlham Əliyev özü də bu məktəbi bitirib.

6 nömrəli məktəbin direktoru **Gülşən Orucova:** Rus dilini bilməyən valideynlər də uşaqlarını rus bölməsinə vermək istəyirlər, çünki onların fikrincə, özləri rus dilini yaxşı öyrənmədiklərinə görə həyatda bəlkə də uduzublar, istəyirlər ki, heç olmasa uşaqları rus dilini bilsinlər.

**Sergey Zenin:** Ali təhsil sahəsində də oxşar vəziyyətdir. Rus dili, o cümlədən Moskvadan gəlmiş müəllimlərin sayəsində nüfuz qazanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə Moskvanın prestijli ali məktəblərinin Bakıda filialları açılıb.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru **Nərgiz Paşayeva:** Moskva Universiteti, mənim fikrimcə, hər bir alimin, hər bir tələbənin bu məkanla ünsiyyətdə olmaq arzusudur.

**Sergey Zenin:** Tədris korpusları cəmi 12 il bundan əvvəl yaradılıb, lakin bu müddətdə əsas məqsədə nail olunub. Bu dəhlizlərdə Moskva Dövlət Universitetinin ruhu duyulur. Bunu heç nə ilə dəyişik salmazsan, rektorun səyi ilə dəyərli biliklərlə birlikdə MDU-nun ruhu da buraya gətirilib. Filialın kitabxanası, dünyaşöhrətli müəlliflərin, tanınmış alimlərin soyadları yazılmış cildlər. Biliklərin başlanğıc nöqtəsi, qüvvə toplama yeri məhz burada, bu zaldadır.

XIX əsrin sonu - XX əsrin əvvəlinə aid çox nadir bir nəşr - Aleksandr Sergeyeviç Puşkin. Dörd cild, 1855-ci il, Sankt-Peterburq. Bu isə nadir mətbu nəşrdir: "Zarya Vostoka", aprel 1870-ci il. Bütün bunlar Moskva Dövlət Universitetinin Bakı filialındadır. Bunun necə vacib olduğunu təsəvvür edirsinizmi?! Mədəniyyətlər bir-birinə necə nüfuz edir!

Moskvadan gələn müəllimlər burada növbə metodu ilə işləyirlər. Növbələr tez-tez dəyişir, lakin, bu, məşğələlərin proqramına əsla təsir göstərmir. Çünki bu məsələyə klassik universitet mövqeyindən yanaşılır. Bu, tələbələrin yalnız xeyrinədir. Onların MDU-nun rusiyalı professorların hamısından bilik almaq üçün nadir imkanları var.

MDU-nun üzvü kimya kafedrasının dosenti **Aleksey Romanov:** Bu, ölkələrimiz arasında münasibətləri inkişaf etdirir, dövlətlər arasında qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq üçün etibarlı zəmin yaradır və bütövlükdə, sadə insanlar arasında əlaqələr yaratmağa imkan verir.

**Sergey Zenin:** Seçenov adına Tibb Universitetinin filialı Bakının mərkəzində yerləşir. Rektor Əziz Əliyev təbabət üzrə professor və praktiki cərrah-onkoloqdur. O, hər bir tələbədən nə tələb etmək lazım olduğunu bilir.

Rektor **Əziz Əliyev:** Mən həmişə öz tələbələrimə deyirəm, istər cərrah olsun, istər terapevt, ya radioloq, - həkim ömrü boyu oxumalı, öyrənməlidir. Ona görə ki, tibb elmi sürətlə inkişaf edir.

**Sergey Zenin:** Sxem MDU-nun filialında olduğu kimidir. Moskvadan gələn müəllimlər növbə ilə işləyirlər. Mühazirədə gördüyümüz tələbələr sanki hər sözə xüsusi diqqət yetirirlər.

Seçenov adına Tibb Universitetinin professoru **Marina Boyçenko:** Tələbələr hər şeyi dəqiqliklə soruşur. Bəzən hər bir hərfi soruşurlar. Onlar həqiqəti bilmək üçün suallar yağdırırlar.

**Sergey Zenin:** Dərslərdən kənar vaxtlarda müəllimlər zamanlarını turizmə həsr edirlər. Azərbaycanda gəzməli-görməli yerlər çoxdur. Bu üzüm bağları bir neçə il əvvəl salınıb. Artıq burada dadlı orqanik şərab hazırlanır. Onu əldə etmək üçün isə dünyanın hər yerindən alıcılar növbəyə düzülür.

Azərbaycanın ən maraqlı yerlərindən biri olan İvanovka kəndinə gedirik. Burada əsrlər boyu ruslar yaşayıb - ikona və xaçı qəbul etməyən molokanlar. Ancaq onların əsas kitabı elə həmin İncildir.

İvanovka kəndinin xristian-molokanlarının keşişi **Sergey Kazakov:** Həyatımızın mənası onda birləşir. Biz nə ediriksə ondan götürürük.

**Sergey Zenin:** İvanovkada bütün postsovet məkanında yeganə olan kolxoz fəaliyyət göstərir. Onun adının saxlanılması və təsərrüfat prinsipinin dəyişdirilməməsi barədə qərar hələ Heydər Əliyevin vaxtında verilib.

Kolxoz sədri **Vasiliy Novoseltsev:** Biz ruslarıq. Bizim imanımız molokandır. Ancaq bütün insanlar işə vicdanla yanaşır.

**Sergey Zenin:** Andreyin dədə-babaları da maldar olub. Bu sənət ona atasından keçib. Paytaxta getməyə can atmır. Kolxozda qabaqcıldır. İş xoşuna gəlir? Cavan oğlansan.

**Andrey Xaritonov:** Biz mal-qaraya öyrəşmişik. Bütün həyatımız mal-qara ilədir. Anadan olandan bizdə mal-qara var. Hər bir evdə mal-qara var. Yəni ki, heyvandarlıq bizim qanımızdadır.

**Sergey Zenin:** Burada ərzaq malları ancaq yerlidir, təbiidir. Çörək də, görməli yerlər qədər boldur. Sovet vaxtı hər bir kolxozun mütləq bir klubu olmalı idi. Xüsusən də belə - 2700 nəfərin yaşadığı yerdə. İndi gördüyünüz klub deyil, mədəniyyət sarayıdır.

Bu, İvanovka xorunun yalnız bir hissəsidir. Yeni il qabağı onların çoxu azərbaycanlı və rus dostlarının və qohumlarının yanına gediblər. Burada sənin milliyyətinin qətiyyən fərqi yoxdur. Hamının bir pasportu var.

Bakı Arxangel Mixail məbədinin baş keşişi **Mefodiy Əfəndiyev:** Hamı bir yerdə yaşayır. Hamı başa düşür ki, Azərbaycan vətəndaşları üçün bu ölkə ümumi böyük evimizdir.

**Sergey Zenin:** İvanovkadakı məbədin tərtibatı hamını heyran edir. Müsəlman rəssam anadan olandan sonra xristianlığı qəbul edib və həyatının qalan hissəsini pravoslav kilsəsinin tərtibatına həsr edib. Həyatdan işini bitirməmiş köçüb. Onun işini dostları və yaxınları davam etdiriblər.

Rəssam **Batuxan Haqverdiyev:** Onun üçün vacib idi ki, bu iş yekunlaşsın. O, çox sayda əlyazması və eskiz qoyub.

**Sergey Zenin:** Bakı COVID məhdudiyyətlərinə baxmayaraq, ruhdan düşmür. Qalereya və mədəni mərkəzlərdə sərgilər keçirilir. Azərbaycan yalnız çoxmillətli deyil, eyni zamanda, həm də multikulturaldır. Bunu burada maksimum inkişaf etdirirlər. Bu gün Heydər Əliyev Mərkəzində müasir braziliyalı rəssamın sərgisinin keçirildiyi kimi.

Bakının kafe və restoranlarında dadı və müxtəlifliyinə görə gözəl yeməklər var.

Kulinariya mütəxəssisi **Fərhad Aşurbəyli:** Azərbaycan həmişə orta əsrlərdə İpək Yolunun - əsas logistik yolun üzərində yerləşib. Ona görə dünyanın müxtəlif yerlərindən buraya ərzaqlar gəlib.

**Sergey Zenin:** İçərişəhərdə çox istəsən heç tanımadığın insanların evinə girə bilərsən və 5 dəqiqədən sonra orada özünü evindəki kimi hiss edəcəksən.

# "Regional İnkişaf" İctimai Birliyinin fəaliyyətinin 5 illiyinə həsr olunan toplantı keçirilib

Dekabrın 27-də Heydər Əliyev Mərkəzində "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) fəaliyyətinin 5 illiyi ilə əlaqədar RİİB əməkdaşlarının və könüllülərinin toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə könüllülərin ifasında Azərbaycanın Dövlət Himni səsləndirilib, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Həmçinin RİİB-nin fəaliyyətindən, həyata keçirdiyi layihələrdən bəhs edən videoçarx təqdim olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın "Regional İnkişaf" İctimai Birliyinin fəaliyyətinin 5 illiyi ilə bağlı tədbir iştirakçılarına ünvanladığı təbrik məktubunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva məktubunda "Regional İnkişaf" İctimai Birliyinin ötən 5 il ərzində ölkəmizin sosial həyatının, demək olar, bütün sahələrində fəal iştirak etdiyini bildirib. "Könüllülük xalqımıza xas olan xeyriyyəçilik ənənələrinin davam etdirilməsi deməkdir. Siz bu ənənələrin yaşadılmasının, xalqımızın rifahı naminə təmənnasız işlərin bilavasitə iştirakçılarısınız. Məhz sizin kimi gənclərin sayəsində bu gün könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib", - deyə Heydər Əliyev Fondunun prezidenti qeyd edib. Məktubda RİİB təmsilçilərinin 44 günlük Vətən müharibəsi günlərində də cəbhəyə dəstək olaraq əsl vətəndaşlıq və vətənpərvərlik nümunəsi göstərdikləri vurğulanır, RİİB könüllüləri arasında da şəhidlərimizin olduğu təəssüflə qeyd edilir, Vətən uğrunda canından keçməyə hazır olan qəhrəman övlad yetişdirmiş analara minnətdarlıq bildirilir.








Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın RİİB əməkdaşlarına və könüllülərinə məktubunda həmçinin qeyd olunur: "Bu gün ərazi bütövlüyü bərpa olunmuş ölkəmizin hər bir guşəsində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə quruculuq işləri aparılmaqdadır. Əminəm ki, "Regional İnkişaf" İctimai Birliyi xalqa və dövlətə xidmət kimi dəyərlərə sadiq qalaraq Azərbaycanın tərəqqisi naminə aparılan işlərə öz töhfəsini vermək üçün bundan sonra da böyük əzmlə çalışacaqdır. Qarşımıza yeni ideya və planlar çıxdıqca məqsədlərimiz xaraktercə dəyişsə də, əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalacaqdır".

Toplantıda çıxış edən Anar Ələkbərov "Regional İnkişaf" İctimai Birliyi tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırıqları ilə 5 il ərzində ölkə üzrə bir sıra layihələrin uğurla icra olunduğunu, gələcəkdə RİİB qarşısında mühüm vəzifələrin dayandığını qeyd edib. İctimai Birliyin ötən müddət ərzində əsas vəzifələrindən biri - vətəndaşlarla dövlət qurumları arasında əlaqələrin qurulması istiqamətində uğurlu mexanizmin yaradılmasına müvəffəq olduğu bildirilib.

"Regional İnkişaf" İctimai Birliyi könüllülərinin müasir dövrün "xüsusi təyinatlıları" kimi pandemiya zamanı, eləcə də Vətən müharibəsi günlərində fəaliyyətinin, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlığının əhəmiyyəti vurğulanıb.

"Regional İnkişaf" İctimai Birliyinin könüllüləri Ruslan Ələsgərov və Günay Məmmədova RİİB-nin həyata keçirdiyi layihə və aksiyalardan, müxtəlif sahələr üzrə icra olunan könüllülük proqramlarından danışıblar.

Toplantıda RİİB əməkdaşları və könüllüləri adından Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müraciət ünvanlanıb. Müraciətdə "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri və könüllüləri adından böyük Zəfər, doğma Qarabağımızın işğaldan azad edilməsi münasibətilə təbriklər çatdırılır, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarix yazan qəhrəman Azərbaycan Ordusuna minnətdarlıq, şəhidlərimizin ruhlarına ehtiram hissləri ifadə edilir. Heydər Əliyev Fondunun prinsiplərini rəhbər tutan "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri və könüllüləri bundan sonrakı fəaliyyətlərində də humanizm, mərhəmət, vətənpərvərlik, xalqa və dövlətə xidmət kimi dəyərlərə sadiq qalaraq ölkəmizin tərəqqisi naminə çalışacaqlarını bildiriblər.

Daha sonra Vətən müharibəsində iştirak edən və İctimai Birliyin fəaliyyətində xüsusi fəallığı ilə fərqlənən RİİB könüllülərinə təşəkkürnamələr və hədiyyələr təqdim olunub.

# Bakı Zooparkında şir balası dünyaya gəlib

## Leyla Əliyeva Bakı Zooparkını ziyarət edərək şir balasının vəziyyəti və saxlandığı şərait ilə tanış olub

Bu yaxınlarda Bakı Zooloji Parkında yaşayan şirlərin birinin balası dünyaya gəlib. IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, İctimai Birliyin təsisçisi və rəhbəri Leyla Əliyeva Bakı Zooparkını ziyarət edərək şir balasına baş çəkib, onun vəziyyəti və saxlandığı şərait ilə tanış olub.

Şirin anası təcrübəsiz olduğu və balasına baxa bilmədiyinə görə yeni doğulan şir balası ayrı yerdə saxlanılır. Hazırda bala xüsusi təchiz edilmiş isti otağa yerləşdirilib, baytar həkim və zoopark əməkdaşlarının mütəmadi nəzarəti altında saxlanılır. Təxminən 3 kiloqram çəkisi olan dişi cinsli şir balasının doğulması ilə zooparkda yerləşən şirlərin sayı 5-ə çatıb.

Məlum olduğu kimi, Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulmuş Bakı Zooloji Parkı cari ilin oktyabr ayında qapılarını yenidən ziyarətçilərə açıb. Zooparkda saxlanılan heyvanlar üçün daha rahat volyerlər, akvaterrarium, kontakt zooparkı, süni göl, hovuzlar və baytarlıq klinikası inşa edilib. Heyvanların saxlandığı volyerlər hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq hazırlanıb və sahəsi kifayət qədər genişləndirilib.

Bakı Zooparkının yalnız görünüşü deyil, həm də məram və yanaşmasının yeni olduğu xüsusilə qeyd edilməlidir. Belə ki, zooparkın əsas məqsədi insanlar üçün canlı aləm, xüsusən də Azərbaycanın nadir faunası haqqında məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevrilməsindən ibarətdir. Bu xüsusda Azərbaycanın Qırmızı Kitabına daxil olan növlərin təbii populyasiyaların artırılması və reintroduksiyası baxımından, burada heyvanların artırılması üçün əlverişli şərait yaradılıb.



# Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilib

Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni il bayramına həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Rusiyanın və Azərbaycanın gənclər birliklərinin, Azərbaycan diasporunun nümayəndələri və rəsmi qonaqlar iştirak ediblər.




Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin humanitar proqramlar bölməsinin rəhbəri Tamilla Əhmədova çıxış edərək Leyla Əliyevanın rəhbərliyi ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) bu ölkədə humanitar sahədə fəaliyyətindən danışıb, təşkilatın gənc üzvlərinin humanitar tədbirlərdə iştirakını yüksək qiymətləndirib.

RAGB-nin məsul katibi Ceyhun Hüseynov birliyin sədri Leyla Əliyevanın adından qonaqları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, təşkilatın 2021-ci ildə fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, Leyla Əliyevanın rəhbərliyi ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyi bir sıra yeni layihələr həyata keçirib, Rusiyanın ictimai birlikləri və ali təhsil müəssisələri ilə uğurlu əməkdaşlığı davam etdirib.

Daha sonra Rusiya ali təhsil müəssisələrində ən fəal Azərbaycan klubları mükafatlandırılıb.

Bayram tədbiri milli musiqi və rəqslərdən ibarət konsert proqramı ilə davam edib.

# “Dövlət maliyyəsinin idarəolunmasının təkmilləşdirilməsi vətəndaş-dövlət həmrəyliyinin daha da möhkəmləndirilməsində mühüm amildir”

## Müsahibimiz Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədovdur

**- Vüqar müəllim, ilk sualımız müzakirəsi yeni yekunlaşmış büdcə layihəsi ilə bağlıdır. Kənar dövlət maliyyə nəzarəti orqanı olaraq müzakirələri, qəbul edilmiş sənədləri necə qiymətləndirirsiniz?**

- Qeyd edim ki, ilkin olaraq Milli Məclisin müxtəlif komitələrində, daha sonra isə plenar iclaslarında büdcə layihəsinin müzakirəsi bu il əvvəlki illərlə müqayisədə daha aktiv formada baş tutmuşdur. Müsbət haldır ki, müzakirələrdə həm millət vəkilləri, həm də hökumət üzvləri mövcud problem və çətinliklərin həll edilməsi yolunda konstruktiv əməkdaşlığın vacib olduğunu ifadə etmişlər. Eyni zamanda vurğulanmalıdır ki, komitələrdə təşkil olunmuş müzakirələrdə dövlətin əsas maliyyə sənədinin tərtibi üzərində çalışmış orqanlar, həmçinin büdcə vəsaitlərinin istifadəçiləri olan qurumlar arasında sıx kommunikasiya təmin edilmişdir.

Sənədlərlə bağlı o da diqqətə çatdırılmalıdır ki, ali audit orqanı (AAO) olaraq bizi ilk növbədə təqdim edilən sənədlərin əhatə dairəsi və bu sənədlərin ölkədə fiskal intizamın təmin edilməsindəki rolu maraqlandırır. Rəydə bu istiqamətdə mövqeyimizi ifadə etmişik və vurğulayım ki, büdcələrin tərtibi və strukturu ilə bağlı qanunvericiliyin müəyyən etdiyi tələblər əsasən gözlənilmiş, büdcə layihəsi ilə birlikdə hazırlanan və təqdim olunan sənədlərin siyahısı əvvəlki illərlə müqayisədə artırılmış, izahatlara daxil edilmiş məlumatların keyfiyyət və həcminin nisbətən yüksəldilməsi istiqamətində müsbət addımlar atılmış, dövlət maliyyəsi üçün əhəmiyyətli hesab edilən bəzi risklər şərh olunmuş, apardığımız təhlil və qiymətləndirmələrə əsaslanmaqla əvvəlki rəylərdə vurğuladığımız bir çox məqamlar builki büdcə sənədlərində nəzərə alınmışdır.

Bununla yanaşı, büdcə sənədlərində bəzi hallarda yalnız informativ xarakterli məlumatların əks olunması, əvvəlki illərlə müqayisədə bir sıra istiqamətlərdə göstərici çeşidinin azaldıldığı da qeyd edilməlidir. Sadalanan halları və büdcə-vergi siyasətinin əsas istiqamətlərindən biri kimi dövlət maliyyəsinin idarəedilməsində şəffaflığın və hesabatlılığın artırılmasının müəyyən edildiyi diqqətə alınaraq büdcə qanunvericiliyinin təkmilləşdirilməsinə, büdcə sənədləşməsinin çeşidinin və keyfiyyətinin artırılmasına ehtiyac olması barədə Hesablama Palatasının mövqeyi rəydə əks etdirilmişdir.

**- Parlament çıxışlarınızda yeni büdcə qaydasının, ortamüddətli xərclər çərçivəsinin zəruriliyini vurğuladınız. Daha sadə formada nəyin və ya nələrin olmasını vacib hesab edirsiniz?**

- Sualınızı cavablandırmadan əvvəl diqqətə çatdırım ki, sadaladığınız mütərəqqi fiskal institut və mexanizmlərin dövlət maliyyəsinin idarəedilməsində rolu və əhəmiyyəti böyükdür. Fiskal intizamı təmin edəcək büdcə qaydasının qəbul edilməsi, dövlət borcunun idarəolunması strategiyasının hazırlanması, ortamüddətli xərclər çərçivəsinə (OMXÇ) və fəaliyyət büdcəsinə keçidin təmin edilməsi, büdcə xərclərinin səmərəliliyi və nəticəliliyinin qiymətləndirilməsinin vacibliyi Hesablama Palatasının rəylərində son illərdə davamlı olaraq öz əksini tapmışdır.

Qeyd etdiyiniz fiskal institutlara gəlincə, ilk olaraq büdcə qaydasına toxunum. Qüvvədə olan büdcə qaydasında təkmilləşdirilmənin aparılması zərurəti dəfələrlə rəylərimizdə şərh edilmiş, qaydanın protsiklik xüsusiyyəti, mürəkkəbliyi, hesablamaların aparılması zamanı bəzi amillərin nəzərə alınmasının vacibliyi barədə məlumat verilmişdir. Yenilənən qaydada əvvəlki qaydaya xas olan bir sıra riskli məqamlar aradan qaldırılır ki, bunu da müsbət hal kimi qiymətləndirmək olar. Bununla yanaşı, qaydanın tətbiqinin məqsədlərindən biri kimi Dövlət Neft Fondunun aktivlərinin qorunmasının göstərilməsi fonunda həmin fonddan dövlət büdcəsinə transfertə dair məhdudiyyətin birbaşa deyil, dolayı müəyyənləşdirilməsi, transfertin artırıldığı illər üzrə də qaydaya riayət edilmə imkanlarının olması tərəfimizdən risk amilləri kimi dəyərləndirilmişdir.

OMXÇ və nəticəəsaslı büdcəyə gəldikdə isə, qeyd etməliyəm ki, bu büdcə modeli yuxarıdan aşağı büdcə planlaşdırılmasını, büdcə tərtibinin strateji mərhələsini ehtiva edir və dövlətin sosial-iqtisadi sahədə ortamüddətli və uzunmüddətli siyasətinin büdcə siyasəti ilə uzlaşdırılmasında vacib yer tutur. Bu istiqamətdə apardığımız təhlil və qiymətləndirmələr nəzərdə tutulmuş hədəflərin reallaşdırılması üçün yuxarıdan aşağı büdcə modelinə keçid üzrə aparılan islahatın daha da gücləndirilməsinin vacibliyini qeyd etməyə imkan verir. OMXÇ və nəticəəsaslı büdcə üzrə təkmil hüquqi bazanın yaradılmasının, hüquqi bazanın büdcə qanunvericiliyinə tam inteqrasiyasının, pilot bölmələrin sektor strateji və fəaliyyət planlarının ölkənin strateji



sənədləri və dövlət proqramlarında müəyyən edilmiş tədbirlərlə uzlaşdırılmasının, hədəf və maliyyələşmə göstəricilərinin uyğunluğunun bu istiqamətdə islahatların sürətli və sistemli keçirilməsinə xidmət edəcəyi qənaətindəyik.

**- Hər il olduğu kimi, bu rəydə də təklif və tövsiyələriniz var. Vüqar müəllim, tövsiyələrin əsas istiqamətləri və Hesablama Palatasının onların reallaşmasından gözləntiləri barədə məlumat verməyinizi xahiş edirik.**

- Ümumiyyətlə, AAO-ların əsas vəzifələrindən biri keçirdiyi auditlər, apardığı təhlillər və qiymətləndirmələrdən irəli gələrək, dövlət maliyyəsinin idarəolunmasına dair tövsiyələr vermək, bu tövsiyələrin icrasını təşviq etməkdən ibarətdir. Biz də bunu rəhbər tutaraq həm ayrı-ayrı qurumlar və mövzular üzrə həyata keçirdiyimiz auditlərdə, həm də büdcə layihələrinə və icrasına olan rəylərimizdə dövlət vəsaitlərinin idarəedilməsinin AAO baxımından təkmilləşdirilməsi istiqamətində tövsiyələrimizi təqdim edirik.

Son rəydə 38 tövsiyə təqdim etmişik. Həmin tövsiyələri qanunvericiliyin təkmilləşdirilməsi, dövlət büdcəsinin gəlirləri, xərcləri, dövlət maliyyəsinin hesabatlılığı və şəffaflığı istiqamətində qruplaşdıra bilərəm. Məlumat üçün bildirim ki, qanunvericiliyə dair tövsiyələr əsasən “Büdcə sistemi haqqında” qanuna bəzi dəyişiklikləri, o cümlədən həmin qanuna bir sıra əlavələrin olunmasını, müəyyən anlayışların daxil edilməsini, büdcə sənədlərinin məlumatlılığının artırılmasını özündə ehtiva etmişdir. Dövlət maliyyəsinin hesabatlılığı və şəffaflığı üzrə tövsiyələrdə əsasən vahid büdcə təsnifatının mütərəqqi təcrübəyə uyğunlaşdırılması, hesabatlılıqda bəzi uyğunsuzluqların aradan qaldırılması, OMXÇ-nin tətbiqi istiqamətində təkmilləşmələrin aparılması, bir sıra institusional dəyişikliklərlə bağlı təkliflərimizi əks etdirmişik.

**- Milli Məclisdə deputatların çıxışları və təklifləri sizin təşkilatın növbəti ildəki fəaliyyətinin təşkilində təsirli oldumu?**

- İlk olaraq diqqətə çatdırım ki, Milli Məclis və AAO arasında əməkdaşlığa dair beynəlxalq təcrübənin təhlili göstərir ki, bu iki qurum arasında işgüzar əlaqələrin təmin edilməsi son nəticədə dövlət maliyyəsinin idarəolunmasının təkmilləşməsi və vətəndaş-dövlət həmrəyliyinin möhkəmlənməsində mühüm addımdır. AAO-nun fəaliyyətində əsas maraqlı tərəflərdən olan parlament üzvlərinin fikirlərinin nəzərə alınması da qeyd etdiyimiz hədəflərə xidmət edir.

Diqqətinizə çatdırmaq istərdim ki, potensial audit obyektlərinin və mövzularının seçiminə imkan verən məsələlərdən biri məhz büdcə müzakirələrində millət vəkilləri tərəfindən səsləndirilən fikirlərdir. Vurğulayım ki, əvvəlki illərdə də müxtəlif sahələri əhatə edən məsələlərlə bağlı deputatlar tərəfindən Milli Məclisdə qaldırılmış məqamlar Hesablama Palatasının iş planının hazırlanması zamanı nəzərə alınmışdır. Builki büdcə müzakirələrini də bu baxımdan məhsuldar hesab edərdim. Son müzakirələrdə millət vəkilləri tərəfindən bəzi dövlət proqramlarının auditi, bir sıra mövzular üzrə səmərəlilik auditinin keçirilməsinin vacibliyi vurğulanmışdır. Məhz bu məsələlər diqqətə alınaraq artıq xroniki böyrək çatışmazlığı ilə bağlı dövlət proqramının, həmçinin su və meliorasiya sahəsində xarici kreditlər hesabına görülmüş işlərin nəticəliliyinə dair nəzarət tədbirlərinin iş planına salınmasına dair qanunun tələbinə uyğun olaraq planlaşma işlərinə başlanılmışdır.




Eyni zamanda Hesablama Palatasında rəylər və müxtəlif auditlərin nəticələri üzrə keçirilən kollegiya iclaslarına deputatları dəvət etmişik və bu dəvət əməkdaşlığın daha da gücləndirilməsi məqsədini daşımışdır. Keçirilmiş görüşlərdə millət vəkilləri tərəfindən fikirlər səsləndirilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır. Hesab edirəm ki, bu kimi görüşlər hər iki tərəf üçün faydalı olmuşdur və biz bunu davam etdirmək fikrindəyik.

**- Vüqar müəllim, Hesablama Palatasının dövlət büdcəsinin gəlirləri ilə bağlı səlahiyyət çərçivəsi barədə məlumat almaq istərdik.**

- Sualınıza cavab verməzdən öncə praktikada gəlirlərin auditi ilə bağlı müxtəlif yanaşmaların mövcud olduğunu bildirməliyəm. Həmin yanaşmalar ölkələrin qanunvericiliyində bu istiqamətdə auditin aparılması ilə bağlı mandatın olub-olmamasından və həmin mandatın hansı formada əks etdirilməsindən asılı olaraq fərqlənir. Ümumiyyətlə, gəlirlərin auditi dedikdə gəlirlərin qanun və qaydalara uyğun düzgün hesablandığının, yığıldığının və uçotunun aparıldığının və maliyyə hesabatlarında ədalətli əks etdirilib-etdirilmədiyinin, gəlir yığım fəaliyyətinin icrasının effektivliyinin qiymətləndirilməsi nəzərdə tutulur. Bəzi ölkələrin AAO-ları maliyyə auditinin bir hissəsi kimi gəlirlərin auditini həyata keçirirlər, bəziləri isə səmərəlilik (performans) auditinə xüsusilə dövlət gəlirləri üzrə tematik auditlərə, məsələn, vergi, xüsusilə ƏDV vergisi üzrə inzibatçılığın, qanunvericiliyə edilən dəyişikliklərin dövlət büdcəsinin gəlirlərinə təsirinin, vergi və gömrük güzəştləri və azadolmalarının təsirinin qiymətləndirilməsi və s. mövzulara diqqət yetirirlər.

Bizim bu istiqamətdə səlahiyyətimizə gəlincə bildirməliyəm ki, qanunvericilikdə dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) gəlirlərinin və kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən gəlirlərinin proqnozlaşdırılması, hesablanması, ödənilməsi və digər öhdəliklərin yerinə yetirilməsi üzrə kənar dövlət maliyyə nəzarətinin keçirilməsi ilə bağlı müddəalar nəzərdə tutulmuşdur. Qanunvericiliyin müvafiq müddəaları rəhbər tutularaq həm ayrı-ayrı nəzarət obyektlərinin auditi keçirilərkən gəlirlərin hesablanılması və ödənilməsi vəziyyətinin, həm də gəlirləri təmin edən fiskal orqanların inzibatçılığının auditi həyata keçirilir.

İkinci istiqamətin üzərində xüsusilə dayanmaq istərdim. Bir qayda olaraq, inzibatçılığın qiymətləndirilməsi prosesində qüvvədə olan hüquqi aktların tələblərinə əməl edilməsi vəziyyətinin müəyyənləşdirilməsi ilə yanaşı, sərf olunan dövlət resursları müqabilində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərdən istifadə olunma səviyyəsinin də müəyyənləşdirilməsi zərurəti yaranır. Bu məqsədlərə nail olunması üçün isə uyğunluq auditinin yanaşmaları kifayət etmədiyindən səmərəlilik auditinin də müəyyən elementləri tətbiq edilir və ya bu audit növləri birgə həyata keçirilir.

Auditlərlə yanaşı, rəylərimizdə də dövlət büdcəsinin gəlirlərinin təhlili və qiymətləndirilməsi məsələsi diqqətdə saxlanılır.

**- COVID-19 pandemiyası bütün dünyada yayılıb və nə vaxt bitməsinə dair proqnozlar müxtəlifdir. Dünya ölkələri bu sahəyə kifayət qədər vəsait yönəltməyə davam edir. Ölkəmizdə də koronavirusla mübarizə istiqamətində kifayət qədər işlər görülüb. Bəs pandemiya nəzarət orqanının qarşısında hansı vəzifələr qoyur?**

- Məlum olduğu kimi, COVID-19 törətdiyi fəsadlarla səhiyyə və iqtisadiyyat, eləcə də dövlət və vətəndaşlar qarşısında müxtəlif çağırışlar formalaşdırmışdır. Cənab Prezidentin bu sahəyə xüsusi diqqəti və verdiyi tapşırıqlar pandemiyanın ölkə iqtisadiyyatına vurduğu zərərin minimallaşdırılması və ölkə vətəndaşlarının sosial rifahının qorunmasına mühüm zəmin yaratmışdır. AAO-ların son məqsədinin dövlət vəsaitlərinin qorunması və düzgün istifadəsinə nəzarət etməklə vətəndaşların həyatında müsbət dəyişikliklər yaratmaqdan ibarət olması bizim dövlət və vətəndaşlar qarşısında istər pandemiya, istərsə də postpandemiya dövründə məsuliyyətimizi daha da artırmışdır.

Ümumiyyətlə, bildirim ki, AAO-lar üçün bu istiqamətdə fəaliyyət iki formada özünü göstərmişdir: dövlətin pandemiya ilə bağlı çəkəcəyi xərclərin preauditinin aparılması və maliyyələşdirilməsi başa çatmış tədbirlərin postauditinin aparılması. Hesablama Palatası bu istiqamətdə beynəlxalq təcrübəni diqqətdə saxlamaqla COVID-19-la bağlı xərclərin həm analitik prosedurlarla araşdırılmasını, həm də bir sıra auditləri həyata keçirmişdir. Eyni zamanda az öncə sadaladığım amillər növbəti il üzrə Hesablama Palatasının iş planı tərtib edilərkən də diqqətdə saxlanmışdır.

Əlavə bir məlumatı da qeyd edim ki, fiskal diaqnostika aləti olan və Beynəlxalq Büdcə Tərəfdaşlığı tərəfindən tərtib edilən Açıq Büdcə İndeksinin (ABİ) pandemiya şəraitində iqtisadi sistemin dəstəklənməsi və sosial rifahın qorunması istiqamətində ayrılmış vəsaitlərin istifadəsi üzərində dövlət nəzarətinin təmin edilməsi sahəsində müxtəlif ölkələrin təcrübəsinin öyrənilməsi və qiymətləndirilməsi üçün 120 ölkə üzrə xüsusi modul hazırlanmışdır. Həmin modul üzrə verilmiş cavablara əsaslanmaqla AAO-ların bu sahədə fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilmişdir.

**- Siz çıxışınızda dövlət maliyyəsində hesabatlılığın və şəffaflığın artırılması və bu sahədə idarəetmənin gücləndirilməsi zərurətinin vacib olduğunu qeyd etdiniz. Bu sahədə Hesablama Palatası daha nələri təklif edir?**

- Biz dəfələrlə rəylərimizdə və çıxışlarımızda Büdcə Məcəlləsinin hazırlanmasının vacibliyi ilə bağlı mövqeyimizi açıqlamışıq. Fikrimizcə, bu, büdcə münasibətlərinin daha sistemli tənzimlənməsi, müxtəlif hüquqi aktlarla əhatə olunan müddəaların vahid bir hüquqi aktda birləşdirilməsi, eyni zamanda dövlət maliyyə sisteminin “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanunundan kənarda qalan institutlarının əhatə edilməsi imkanlarını yaradar.

Ölkədə Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı (PEFA) üzrə yeni qiymətləndirmənin aparılmasının zərurətini də qeyd edərdim. Xatırladım ki, sonuncu qiymətləndirmə 2014-cü ildə həyata keçirilmişdir və qiymətləndirmənin metodoloji bazası həmin dövrdən sonra yenilənmişdir. Dövlət maliyyəsi üzrə hesabatlılığı qiymətləndirən digər fiskal diaqnostik alətlər üzrə ölkəmizin mövqeyinin yaxşılaşdırılması üçün işlər davam etdirilməlidir. Məlum olduğu kimi, bu sahədə hesabatlılığın gücləndirilməsi məsələsi büdcə-vergi siyasətində də təsbit edilib. Bu istiqamətdə parlament-hökumət-ali audit qurumu arasında tərəfdaşlığın gücləndirilməsinin, işçi qaydada müzakirələrin təşkilinin vacibliyi qənaətindəyik.

Dövlət maliyyəsinin idarəolunması təcrübəsində digər bir mütərəqqi yanaşma Dövlət Maliyyə Statistikası Təlimatının tətbiqini nəzərdə tutur. Məlum olduğu kimi, büdcə sisteminə daxil olan büdcələr üzrə vəhdət vahid büdcə təsnifatı ilə təmin edilməlidir. Qüvvədə olan vahid büdcə təsnifatının Dövlət Maliyyə Statistikası Təlimatı ilə uzlaşdırılmaması büdcə planlaşdırılması, büdcə uçotu və təhlili baxımından çətinliklərə səbəb olur. Ümumiyyətlə, bir məsələni xüsusi vurğulamaq istərdim: kassa metodu ilə yanaşı, hesablama metodu əsasında hesablanmış göstəricilərin büdcə sənədləşməsində artırılması və bunun üçün qanunvericiliyə zəruri dəyişikliklərin edilməsini təklif etmişik. Belə yanaşmanın verilən qərarların effektivliyinə müsbət təsir edəcəyi, maliyyə axınlarının hərəkətinin izlənilməsinə imkan verəcəyi qənaətindəyik.

Dövlət borcunun idarəedilməsi strategiyasının yenilənməsi və orada əks etdirilən borc dayanıqlılığının qiymətləndirilməsi üçün tətbiq olunan analitik xarakterli göstəricilərin əhatə dairəsinin genişləndirilməsini də vacib hesab edirik.

Digər bir məsələ dövlət proqramları ilə bağlıdır və bu proqramların vahid metodologiya ilə tərtibi, onların ölkənin strateji sənədləri ilə uzlaşması, xüsusən yeni tətbiq edilən OMXÇ ilə əlaqələndirilməsi vacibdir. Məlumat üçün bildirim ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli Fərmanı ilə “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası” təsdiq edilmişdir. Bu isə bundan sonrakı dönəmdə proqramların tərtibi və icrası bağlı işin gücləndirilməsini tələb edir.

**- Bu ayın ilk günlərində Hesablama Palatasının 20 illik yubileyi qeyd olundu. Sizi və kollektivinizi təbrik edirik. AAO olaraq növbəti inkişaf dövrü üçün planlarınızı bilmək istərdik.**

- Diqqətinizə görə minnətdaram. Bu 20 il ərzində biz daim dövlət maliyyəsinə nəzarət sahəsindəki fəaliyyətimizi təkmilləşdirməyə, nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı istinad etdiyimiz beynəlxalq standart və təlimatların sayını artırmağa, beynəlxalq təcrübəni araşdırmaqla mütərəqqi hesab olunan təcrübəyə uyğunlaşmağa, müxtəlif növ metodiki sənədlər qəbul etməklə metodoloji baza qurmağa çalışmışıq. Təsadüfi deyildir ki, beynəlxalq təşkilatlar tərəfindən fəaliyyət qiymətləndirmələri zamanı Azərbaycan Respublikası Hesablama Palatasının tutduğu mövqelərdə ilbəil irəliləmə müşahidə edilməkdədir. Qeyd olunanlar isə fəaliyyətimizə dair hüquqi aktların təkmilləşdirilməsi və potensialımızın inkişafının Azərbaycan Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzində olması sayəsində mümkün olmuşdur.

Növbəti dövr üçün planlarımıza gəldikdə isə, qeyd edim ki, ötən il Hesablama Palatasının 2021-2025-ci illəri əhatə edən yeni strateji planı qəbul edilmişdir və fəaliyyətimizin təşkili zamanı bu planlama alətini və onun əsasında tərtib edilən əməliyyat planını rəhbər tuturuq. Fəaliyyətimizdə maraqlı tərəflərin fikir və ideyalarını diqqətdə saxlamaqla Hesablama Palatasının strateji sənədində müəyyən edilmiş strateji məqsəd və aralıq nəticələrdən irəli gələrək, 2022-ci ildə auditlərin əhatə dairəsinin artırılması, tövsiyələrin izlənməsi sisteminin hazırlanması, rəydə təhlil olunan xərclərin əhatə dairəsinin yüksəldilməsi, səmərəlilik auditlərinin keçirilməsi zamanı dayanıqlı inkişaf məqsədlərinin diqqətdə saxlanılması, İT auditinin tətbiqi, maraqlı tərəflərlə əməkdaşlığın təkmilləşdirilməsi nəzərdə tutulur. Bundan başqa, AAO olaraq həyata keçirdiyimiz işlərin effektivliyinin artırılması və rəqəmsal transformasiyaya keçidə hazırlığın təmin edilməsi məqsədilə məlumatların əldə olunması və emalı prosesinin rəqəmsallaşdırılmasını planlaşdırmışıq. Sadaladığım bu işlərin öhdəsindən layiqincə gəlmək üçün Hesablama Palatasında fəaliyyət göstərən kadrların potensialının gücləndirilməsi və əmək bazarında mövcud çağırışlara cavab verməsinin təmin edilməsi də növbəti ildə diqqət mərkəzimizdə olacaqdır.

**- Yubiley tədbiriniz Hesablama Palatasının ev sahibi olduğu beynəlxalq tədbirlə eyni dövrə təsadüf etdi.**

- Bəli. ECOSAI-nın İdarə Heyətinin 25-ci, Təlim Komitəsinin 20-ci toplantıları bu il Bakıda keçirildi. İlkin olaraq təşkilatla bağlı bildirim ki, ECOSAI İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Ali Audit Qurumlarının birləşdiyi təşkilatdır və Azərbaycan Respublikası Hesablama Palatası 2002-ci ilin sentyabr ayından onun üzvüdür. Biz 2016-cı və 2019-cu illərdə 3 illik müddətə təşkilatın İdarə Heyətinin üzvü seçilmişik. Sonuncu toplantı bir məqamla da yaddaqalan olmuşdur. Belə ki, İdarə Heyəti ölkəmizin bu təşkilata sədrlik etməsi ilə bağlı namizədliyini irəli sürmüşdür və bununla bağlı yekun qərar növbəti ildə Qazaxıstanda keçiriləcək Assambleyada veriləcək. Əlavə olaraq bildirim ki, keçirilmiş toplantı zamanı təşkilata üzv dövlətlərin AAO-ları arasında təlimlərin səmərəliliyinin yüksəldilməsi, e-təlim proqramlarının həyata keçirilməsi, beynəlxalq audit standartlarının tətbiqinin artırılması və bu istiqamətdə uğur hekayələrinin paylaşılması, təşkilatın saytının funksionallığının və faydalılığının təkmilləşdirilməsi, əməkdaşlıq sazişlərinin imzalanması və digər istiqamətlərdə əməkdaşlığın davam etdirilməsinin vacibliyi məsələləri müzakirə olunmuşdur.

Ümumiyyətlə, Hesablama Palatası beynəlxalq fəaliyyətini geniş spektrdə təşkil etməkdədir. Bu fəaliyyət ikitərəfli və çoxtərəfli əməkdaşlıq üçün geniş platformadır və həmin platformadan məhsuldar istifadə etmək bizim marağımızdadır. Azərbaycan Respublikası Hesablama Palatası 2002-ci ilin aprel ayından Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) üzvüdür və bu təşkilatın bir komitəsində, iki altkomitəsində, dörd işçi qrupunda və bir müzakirə qrupunda fəal iştirak edir. Bu fəaliyyət audit fəaliyyətin təkmilləşdirilməsi ilə yanaşı, ümumilikdə AAO olaraq fəaliyyətin təşkili və həyata keçirilməsinin mütərəqqi təcrübələrə uyğunlaşdırılması imkanlarını açır.

Aktiv beynəlxalq fəaliyyətimizdə qazandığımız digər bir uğur isə ondan ibarətdir ki, Azərbaycan Respublikası Hesablama Palatası 2002-ci ildən üzv olduğu Ali Audit Qurumlarının Asiya Təşkilatının (ASOSAI) Audit Komitəsinə ilk dəfə olaraq seçilmişdir və bu, 2021-2024-cü illəri əhatə edir.

**- Vüqar müəllim, planlar barədə danışdınız. Sonda 2022-ci ildə Hesablama Palatasının nəzarət fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verməyinizi xahiş edirik.**

- Qeyd edim ki, Hesablama Palatasının növbəti il üçün iş planının layihəsi müzakirə edilmişdir. Planın tərtibi zamanı, yuxarıda da qeyd etdiyim kimi, müxtəlif müzakirələrdə millət vəkillərinin qaldırdığı məsələlər nəzərə alınmışdır. Eyni zamanda il ərzində vətəndaşlar tərəfindən edilən müraciətlər əsasında aparılmış təhlillər üzrə müxtəlif sahələr diqqət mərkəzində saxlanılır. Ümumi şəkildə qeyd edim ki, 2022-ci ildə rəqəmsallaşma ilə bağlı tədbirlər, koronavirusla mübarizə, həmçinin dövlətin mədəniyyət, idman, sosial müdafiə və s. istiqamətlərdə siyasətinin reallaşdırılması istiqamətində ayrılmış vəsaitlərin istifadəsi məsələləri İş Planının əsasını təşkil edəcək.

***Müsahibəni apardı:***
**Elçin VƏLİYEV,**
**“Azərbaycan”**

# Jurnalistikada nəzəri-elmi məktəbin yaradıcısı

Müəllim - özünü aydın, işıqlı gələcək üçün şam kimi əridən fədaidir. 110 illik yubileyini qeyd etdiyimiz Nəsir İmanquliyev bu adın haqqını verən şəxsiyyətlərdəndir. O, təkcə unudulmaz müəllim, peşəkar jurnalist deyil, eyni zamanda böyük vətənpərvər ziyalı, ölkəmizin ictimai-mədəni mühitində iz qoymuş elm xadimidir. Klassik ənənələrə söykənən maarifçilik fəaliyyəti ilə jurnalistika tariximizdə məktəb yaratmağı bacaran Nəsir İmanquliyev bu məktəbin davamçılarını yetişdirməklə özündən sonra böyük yol qoymuşdur.



Nəsir müəllim Azərbaycan jurnalistikasının inkişafında iki istiqamətdə önəmli rol oynayıb. Nəzəri-elmi məktəbin yaradıcısı olması bunlardan birincisi hesab olunur. Qeyd etmək yerinə düşər ki, professor Nəsir İmanquliyev ölkəmizdə jurnalistikanın nəzəri modellərinin öyrənilməsində və eləcə də tətbiqində böyük əmək sərf etmiş alimdir. O, bugünkü ali jurnalistika təhsilinin simasını müəyyənləşdirən və onun təməli sayıla biləcək bir sıra ixtisas kurslarının yaradıcısı kimi tarixə düşmüşdür. Jurnalistika ixtisası üzrə tədris planında bu gün də əsas yer tutan və bir növ ixtisasın açarı sayılan "Jurnalistikaya giriş" fənni buna misal ola bilər. Nəsir müəllim həmçinin "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" kursunun praktik əsaslarını da hazırlamış, janr müxtəliflikləri ilə bağlı maraqlı konsepsiyalar irəli sürmüşdür.

Nəsir müəllimin yetişdirdiyi tələbələr Azərbaycan mediası və ictimai-siyasi mühitində daim mötəbər yer tutmuşlar. Ustadın tələbələri ilə qurduğu mehriban, səmimi münasibət modeli bu gün də müəlim-tələbə münasibətləri üçün örnək göstərilə bilər. Onun həyata vəsiqə verdiyi məzunların bəziləri Jurnalistika fakültəsinin müəllimləri olmuş, bəziləri isə Azərbaycan jurnalistikasında praktik fəaliyyətləri ilə tanınmış, ustadlarının inam və etibarını doğrultmuşlar. Bütün bu sadalananlar isə onun bir pedaqoq kimi uğuru hesab olunmalıdır.

Nəsir müəllimin elmi fəaliyyəti də diqqəti cəlb edir. II Dünya müharibəsi illərində mətbuatın fəaliyyətinin araşdırılması onun əsas elmi işini təşkil etmiş, bu mövzuda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Nəsir İmanquliyev eyni zamanda bir neçə dərs vəsaiti və sanballı monoqrafiyaların müəllifi və həmmüəllifidir. "Qəzetdə xəbər", "Redaksiya işinin təşkili və planlaşdırılması" kimi elmi araşdırmaları o dövrün nəzəri əhəmiyyəti ilə yanaşı, praktik cəhətdən də qiymətli əsərlərdən idi. Görkəmli jurnalist həmçinin yazıçı və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. Ordudan tərxis olunduqdan sonra "Kommunist" qəzetində məsul katib və baş redaktorun müavini olarkən onun təşəbbüsü ilə yaranan ədəbiyyat dərnəyi bütöv bir şair, yazıçı nəslinin, xüsusən də cəbhə yazarlarının yetişməsində böyük rol oynamışdır. Müharibə dövrü və ondan sonrakı quruculuq illərində fədakar əməyinə görə müxtəlif orden və medallara, mətbuatımızın inkişafındakı xidmətlərinə görə isə "Qızıl qələm" mükafatına, "Əməkdar mədəniyyət işçisi", "Əməkdar jurnalist" fəxri adlarına layiq görülmüşdür.

Nəsir İmanquliyevin Azərbaycan jurnalistikasının inkişafındakı ikinci mühüm istiqaməti onun peşəkar jurnalist fəaliyyəti ilə bağlıdır. O, elmi-nəzəri sahədə olduğu kimi, praktikada da özünü tam mənası ilə təsdiq etmişdir. Nəsir müəllim jurnalistikanın nəzəriyyəsi ilə praktik fəaliyyətin vəhdətini özündə təcəssüm etdirən nadir ustadlardan olmaqla, ömrünün 70 ilini Azərbaycan mediasının formalaşması və inkişafına həsr etmişdir. O, ətrafına istedadlı, bacarıqlı insanları cəlb etməklə jurnalistikamıza yeni nəfəs gətirməyi bacarmışdı. Nəsir müəllim yaxşı görürdü ki, özündə nəzəriyyə ilə təcrübənin vəhdətini təcəssüm etdirən jurnalistika auditoriyalarda oxunan mühazirələr, söylənilən nəzəri fikirlər yalnız təcrübi vərdişlərlə tamamlandığı halda yaradıcı potensiala çevrilə bilərdi. Onun bu istiqamətdə göstərdiyi səylər "Bakı" və "Baku" qəzetlərinin timsalında özünü doğrultdu. Bu iki axşam qəzetlərinin nəşri ilə Azərbaycan jurnalistikasında yeni bir səhifə yazıldı. Adıçəkilən qəzetlər o dövrdə böyük bir yenilik olmaqla yanaşı, ali jurnalistika təhsili alan tələbələr üçün də ciddi praktik sınaq meydanı, əsl təcrübə bazası idi. Bu səbəbdəndir ki, həmin qəzetlər ilk gündən tələbə jurnalistlərin yaradıcılıq laboratoriyasına çevrilməyi bacardı. 1958-ci ildən 1998-ci ilədək - 30 il müddətində qəzetin redaktoru olan Nəsir İmanquliyev milli mətbuat tariximizə peşəkar jurnalistikanı: dəqiq, qərəzsiz informasiyanı, maarifçilik ruhunu, milli-mənəvi dəyərlərə hörmət hissini gətirdi. "Bakı" və "Baku" qəzetləri təkcə tələbələrin təcrübə bazasına çevrilmədi, həm də sənət-söz adamlarının, xüsusən də gənc yazarların, tədqiqatçı alimlərin üz tutduqları etibarlı ünvan adını aldı.

Qeyd etmək istərdik ki, professor Nəsir İmanquliyev elmi-pedaqoji və jurnalist fəaliyyəti ilə yanaşı, geniş və çoxsahəli ictimai-siyasi fəaliyyəti ilə də seçilməyi bacarıb. O, uzun müddət Bakı Şəhər Partiya Komitəsində, Mərkəzi Komitədə təbliğat-təşviqat şöbəsinə rəhbərlik edib. Onun Mədəniyyət Nazirliyinin Baş Radio Məlumat İdarəsinin rəisi, nazirliyin kollegiya üzvü, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində sədr müavini olduğu illərdə isə bu dövlət qurumlarının struktur inkişafında xüsusi xidmətləri olub.

Bu gün Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi (keçmiş Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi) kafedrasında Nəsir müəllimin dərin məna daşıyan portreti, kafedranın qarşısında isə mərmərdən işlənmiş barelyefi jurnalist-tələbələrə sanki öz öyüd və nəsihətlərini verir. 110 illik yubileyini böyük ehtiram hissi ilə qeyd etdiyimiz ustad müəllimimizin əziz xatirəsi çoxsaylı yetişdirmələri olan fakültə müəllimləri, peşəkar jurnalistlər və biz tələbələrinin ürəyində daim yaşayacaqdır!

***Vüqar ZİFƏROĞLU,***
***BDU-nun Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru***

***Samir XALİDOĞLU,***
***BDU-nun Jurnalistika fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini***

# Gəncədə yeni il qabağı ümumşəhər iməciliyi keçirilmişdir

Gəncə ŞİH-nin təşəbbüsü ilə şəhərdə Yeni il qabağı iməcilik və ağacəkmə aksiyası keçirilmişdir. Aksiya Gəncəçay çayının məcrası və sol sahilini, habelə şəhərin digər ərzilərini əhatə etmişdir.



Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin işçiləri genişmiqyaslı təmizlik və abadlıq işləri həyata keçirmişlər. Gəncəçayın məcrası məişət və digər tullantılarından təmizlənərək xüsusi avtomobillərlə ərazidən daşınmışdır. Çayın sol sahilində yerləşən parkda da təmizlik və abadlıq işləri görülmüş, buradakı yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, ağacların dibi bellənmiş, yeni ağac və gül kolları əkilmişdir. Şair-dramaturq Abbas Səhhətin park ərazisində olan məzarının ətrafı da abadlaşdırılmışdır.

Şəhərin digər ərazilərində də analoji işlər görülmüşdür. Bundan başqa, küçə və prospektlərdəki dayanacaqlar xüsusi avadanlıqlarla yuyulmuş, yaşıllıqlar nizama salınmışdır.

Gəncə şəhər rəhbərliyi ağacəkmə aksiyasında iştirak etmişdir. Park ərazisində şəhər rəhbərliyi sakinlərlə söhbət etmiş, onların qayğıları ilə maraqlanmışdır. Söhbət zamanı qaldırılan problemlər yerindəcə öz həllini tapmışdır.

İməcilik və ağacəkmə aksiyasından sonra şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov Gəncə Dövlət Dram Teatrının yeni binasında və Gəncə İdman Sarayında olmuş, davam edən tikinti işlərinin gedişi ilə maraqlanmışdır. Bildirilmişdir ki, yeni teatr binasının tamaşaçı salonunda dekorasiya və işıq sistemi ilə bağlı işlər yekunlaşmışdır. Hazırda texniki avadanlıqlar quraşdırılır. Yeni teatr binasının kiçik səhnəsi və digər inzibati otaqlar da tam hazırdır. Gəncə İdman Sarayında isə binanın fasadı, dam və digər müxtəlif yerlərində dəmir-beton işləri yekunlaşmış, böyük idman zalı və tribunalarda metal konstruksiyalar quraşdırılmışdır. Bununla yanaşı, binanın zirzəmisində, birinci və ikinci mərtəbələrində hörgü-suvaq, foyesində üzləmə-bəzək, fasadında isə şüşə-vitraj işləri görülmüşdür. Digər hissələrdə döşəmə və tavanın vurulmasına başlanılmışdır. Binanın fasadında böyük ölçülü LED ekran quraşdırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Unudulmayan Şahmar Əkbərzadə

İyirmi bir il keçib onun dünyasını dəyişməsindən. 2000-ci il 31 avqust idi, 59 yaşının tamamına dördcə ay qalırdı.



*Göy buludsuz, çay bulaqsız çağlamaz,*
*Yalqız arı pətəkdə şan bağlamaz.*
*Hicran dağı hansı qəlbi dağlamaz,*
*Kök üzülsə budaq vaxtsız solar heyyy!*

*Budağlara o dövranlar qayıtmaz,*
*O qartallar, o tərlanlar qayıtmaz.*
*O elatlar, o karvanlar qayıtmaz*
*Binələrin gözü yolda qalar heyyy!*

*Şahmar, bəsdir, zildə durma, keç bəmə,*
*Dağ üstündən dağı çəkmə sinəmə.*
*Məhəbbətin kökü varsa, qəm yemə -*
*Qoca dünya boşalar hey, dolar heyyy!*

Ömrümdə bizim sənət dünyasından olan çox adamın qəfil ölümünə təəssüflənmişəm. Əli Kərimin, Sərdar Əsədin, İsa İsmayılzadənin, Eldar Baxışın, Nüsrət Kəsəmənlinin, Ağamalı Sadiqin, Akif Səmədin, Aydın Səlimzadənin bir də iki Şahmarın - gözəl hekayələr müəllifi Şahmar Hüseynovun və poeziyamızda, publisistikamızda silinməz izlər qoyan Şahmar Əkbərzadənin.

Misal gətirdiyim şeiri Şahmar ölümündən on altı il öncə, 1984-cü ildə qələmə alıb. Şeiri misra-misra, hətta söz-söz oxuyanda belə ondan VİDA qoxusu gəlir. Birinci və ikinci bənddə kədər var, üçüncü bənddə nikbinlik. Elə bil, Şahmar o vaxt ölümünü qabaqcadan hiss edirmiş, ondan əvvəl isə doğulduğu Qarabağın qəhrini çəkəcəkdi: O elatlar, o karvanlar qayıtmaz, Binələrin gözü yolda qalar heyyy!

Açığını deyim, mən Şahmar Əkbərzadə ilə dost olmamışam, amma ədəbiyyat çeşməsindən su içdiyimiz üçün bir-birimizi yaxşı tanıyırdıq. Mən onun mətbuatda çıxan gözəl şeirlərini oxuyurdum, rastlaşanda həmin şeirlər haqqında ürəyimdən gələn tərifi deyirdim və o, uşaq kimi sevinirdi. Ömrünün son illərində onun redaktor olduğu "Mədəniyyət" qəzetinə yazılar aparırdım, bu yazıları şəxsən özünə təqdim edirdim (belə tapşırmışdı), ən yaxın nömrədə onları çap edirdi, hətta kiçik maliyyə büdcəsi olduğuna baxmayaraq, qonorar da verirdi.

Tez-tez eşidirdim ki, Şahmar bütün türk dünyasının nəhəng sənətkarı olan Çingiz Aytmatovun görüşünə gedir. Çingiz Aytmatov Şahmarı çox sevirdi. Şahmar dünyasını dəyişəndə bu böyük sənətkar çox sarsılmışdı. Polad Bülbüloğlu yazır: "Bişkekdə Çingiz Aytmatovun yubileyinin keçirildiyi günləri xatırlayıram. Şənliyə dünyanın hər yerindən çoxsaylı qonaqlar gəlmişdi. Şahmarın alovlu çıxışları bütün iştirakçıları valeh edirdi. Onun söylədiyi bəzi kəlmələr hətta dillər əzbəri olmuşdu. Qəzetlər onun sözlərini manşetə çıxarmışdılar: "Yaşasın Qırğızıstan - Manasstan və Çingizstan!"

Bəli, Şahmarı sevirdilər. Onun dönməz türkçülüyü, azərbaycançılığı, yurdsevərliyi dillər əzbəri olmuşdu. Hər bir insana sevgi və ehtiramı da bu ali məhəbbətdən doğurdu.Türk dünyasının öndər simalarından olan Oljas Süleymenov da Ç.Aytmatov kimi Şahmarın ölümünü eşidib sarsılmışdı.

Şahmarın dostluq etdiyi, illər boyu ünsiyyət bağladığı sənətkarlardan biri də böyük şairimiz Bəxtiyar Vahabzadə idi. Onları birləşdirən, ürəklərini bir araya gətirən səbəblər çox idi. Şahmar özünü həmişə Bəxtiyarın tələbəsi sayırdı. Ustad-tələbə münasibətində ən önəmli cəhət odur ki, məslək birliyi həm də dostluğa çevrilsin. Bəxtiyar müəllimin çox böyük bir səmimiyyətlə Şahmarın "Ona yanıram ki" kitabına yazdığı ön sözü xatırlayıram. Adı belədir: "Düşündürmək, yandırmaq və inandırmaq". Bəxtiyar müəllim yazırdı:

*"Sərhəd kənarında, cavan yaşımda*
*Həsədim utanıb yerə girirdi.*
*İki quş dimdiyi ağac başında*
*Vətəni vətənə birləşdirirdi.*

Bu misralar bizi Şahmar nəfəsinin, Şahmar yanğısının od aldığı ocağa aparır. Misal gətirdiyim üçbəndlik "Dağdağan" şeirini oxu, qorlanma görüm, necə qorlanmırsan? Araz qırağında o taydan, bu taydan çör-çöp daşıyıb yuva quraqura "Vətəni vətənə birləşdirən" iki sağsağana bax, Azərbaycanın keşməkeşli taleyini anma görüm, necə anmırsan? On iki misrada deyilənlər məni cild-cild salnamələrdən çox barındırır".

Bəxtiyar Vahabzadənin o kiçik, amma Şahmarı bir insan və şair kimi sevdirən-tanıdan o yazısında Çingiz Aytmatovun adı çəkilir: "Çingiz Aytmatovun mənə yazdığı məktubdakı bir fikri xatırlamaya bilmirəm: "Özündən çox özgələrə yananlar, el-obalarımızı düşünənlər haqqında fikirləşəndə Şahmarı anıram".

Şahmar Əkbərzadənin "Xarıbülbül" şeirlər kitabı qarşımdadır və deyim ki, hər dəfə yaxşı bir şeir oxumaq həvəsilə o kitabı da əlimə götürür, açıb vərəqləyir və həmişə birinci olaraq "Üzeyirbaycan" şeirini axtarıram. Bu şeirin adının altında "Anam Qarabağa" sözləri yazılıb.

*"Şikəstə" oxuyub, sən zaman-zaman*
*Qızıl torpağına dərd-qəm əkmisən.*
*"Heyratı" üstündə ayağa qalxıb*
*Zülmün anasına dağlar çəkmisən.*

*Elin dar günündə, ağır günündə*
*Söykənib yenilməz vüqarına sən,*
*Qızın Nüşabənin ləyaqətiylə*
*Fateh İsgəndərə diz çökdürmüsən!*

*İndi də Vətənim yanıb-yaxılır*
*Başından əksilən tək bircə tükə*
*Ölməz Füzulinin əsli, nəsli də*
*Sənin Bayatından düşüb Kərkükə.*

*Torpağın nəğməkar, daşın nəğməkar*
*Yayılıb şöhrətin, şanın hər yana.*
*Bir dahi oğlunun barmaqlarıyla,*
*Himni sən yazmısan Azərbaycana.*

*Adını Vətənə yaraşdırıram*
*Üzeyirbaycanım, ey ulu binəm!*
*Ölməzlər yetirən boz torpağına*
*Babam qurban olub, növbədə mənəm.*

Məşhur "Qarabağnamə"lər ədəbi mühitə məlumdur. Amma poeziyamızda "Qarabağnamə"ni düşünəndə onlarla ən gözəl şeirlərin içində Şahmarın bu şeirini də xatırlamamaq olmur. Və o kitabdakı bir çox şeirləri "Üzeyirbaycan" silsiləsinə daxil etmək olar. Məsələ onda deyil ki, Şahmar o şeirlərdə doğulduğu torpağa - Qarabağa məhəbbətini poeziya sevgisinə çevirirdi, söhbət ondan gedir ki, Qarabağ böyük, o taylı-bu taylı Azərbaycan demək idi Şahmar üçün. Gərək birinci doğulduğun torpağa ürəkdən bağlanasan ki, böyük Vətəni də sevə biləsən.

Şahmarın yaradıcılığında baş mövzu Azərbaycandır... O, sovet dövründə onlarca şairin Azərbaycanı mədh edən və çox vədə bir-birinin təkrarı olan şeirlərdən fərqli olaraq Vətənin birliyi, bütövlüyünü arzulayan, haçansa bunun həqiqət olacağına inanan bir şair kimi diqqəti cəlb edirdi.

Şahmar az yazırdı, amma lazım olanda, məqamı çatanda yazırdı, ilhamını zorlamırdı. Bir neçə sifarişdən, təkiddən sonra Şahmar şeirlərini "Azərbaycan" jurnalı redaksiyasına gətirdi. Baxıb gördük ki, Şahmarın şair xarakteri qətiyyən dəyişməyib, şeirlərində yenə həmin o patriotik duyğular, hisslər yaşayır. Amma bu şeirlərdə, təbii ki, 1990-cı illərin ictimai-siyasi ab-havası duyulurdu. Şahmar Azərbaycan torpağının iyirmi faizinin işğalına dözə bilmirdi, bunu özü və xalqı üçün böyük dərd hesab edirdi, keçid dövrünün bitib-tükənməyən məhrumiyyətləri, insanların düçar olduğu əzab-əziyyətlər onun ürəyini parçalayırdı.

Şahmarın "Mərkəzi poçtxana" adlı bir şeiri də var ki, bu şeir vətənpərvərliyin poeziyada ən həzin, ən kövrək notları kimi misilsizdir. Şair Mərkəzi Poçtxanaya gəlir, amma harasa, konkret bir ünvana teleqram göndərmək niyyəti yoxdur. Çünki teleqram vurulası obalar, ellər, yollar, dağlar, çöllər var ki, onların həsrətini çəkir.

Şahmar qarabağlı idi və onun danışığında, rəftarında, ədasında məhz keçmiş Qarabağ kişilərinə məxsus bütün əlamətlər cəmləşmişdi. Deyə bilmərəm, onun babası, babasının babası bəy olub, ya olmayıb, amma Şahmarda bir bəylik, özü də ziyalı bəyliyi, qüruru görürdüm. Çıxışlarında da o əda, o qürur apaydın hiss edilirdi.

Təbii ki, onun xatirəsi yad olunan bu balaca yazıda bütün şeirləri barədə söz açmaq çətindir və haçansa, daha geniş bir yazı da yazacağam. Amma budur, əlimdə bir başqa kitab var: "Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat Mükafatı laureatlarının şeir antologiyası" (tərtib edənlər Elçin İsgəndərzadə və Adil Şirin). Deməli, Şahmar unudulmayıb. Onun adına Beynəlxalq Ədəbiyyat Mükafatı da təsis olunub və bu mükafatın bir xeyli laureatı var.

Bu yazını bitirəndə bir də Şahmarın kitabına baxdım. ONA YANIRAM Kİ... İndi biz ona yanırıq ki, Şahmar bizim sıralarımızda deyil. Və Şahmarın sanki əbədiyyətdən göndərdiyi - amma 1985-ci ildə yazdığı bir şeirindən bu üç bəndlə sözümü tamamladım:

*Qarabağdan əsən yellər,*
*Cığırlarım yol olubmu?*
*Mənsiz Damcı bulağının*
*Göz yaşları sel olubmu?*

*Şahbulağın döşündəki,*
*Qaramanın qaşındakı,*
*Ürəyimin başındakı*
*Tikanlar kol-kol olubmu?*

*Doğulduğum doğma yeri*
*Görməmişəm yazdan bəri,*
*Çəmənlinin çiçəkləri*
*Həsrətimdən kül olubmu?*

İndi Şahmarın ruhu şaddır. 44 günlük Zəfər müharibəsindən sonra onun doğulddugu kənd də, Ağdam da, bütün Qarabağ da işğaldan azad olundu. Kaş Şahmar da sağ olaydı-bu günlərin qələbə sevincləriylə yaşayaydı...

***Vaqif YUSİFLİ***

## ♦ 28 Dekabr Beynəlxalq Kino Günüdür

# Ağlı-qaralı ekran həyatı

## Bakıda lentə alınan "Bibiheybətdə neft fontanı" Azərbaycanda kino sənətinin əsasını qoyub

Kino həyatımızın bir parçasını özündə əks etdirdiyi üçün onu uşaqdan-böyüyə hər kəs sevir. Kino körpə uşaq kimi əvvəlcə "danışa bilmirdi". Bundan başqa, bir çoxları kinonun yaranması ilə teatrın məhv olacağını düşünürdü. Lakin həyat bu ehtimalı puça çıxardı. Siyasətçilər kinonun böyük gücə malik olmasını daha tez anladılar. Onlar Lümyer qardaşlarının ixtirasının köməyi ilə kütlələrə təsir etməyin mümkün olduğunu görürdülər.



Beləliklə, dünyada ilk kino yaradıldı və onun "ad günü" heç də təsadüfən ilin sonuna, daha doğrusu, dekabrın 28-nə düşmədi. İllərdir ki, həmin tarix Beynəlxalq Kino Günü kimi qeyd olunur. Səbəbinə gəlincə, 1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları Parisin Kapusin bulvarındakı balaca kafedə ilk dəfə çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil ediblər. Filmlərin arasında qısametrajlığı ilə yadda qalan 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" filmi də olub.

Lümyer qardaşları hesab edirdilər ki, kino həyat səhnələrinin nümayişindən başqa bir şey deyil və olmayacaq, ona maraq tezliklə sönəcək. Lakin sonralar bəşəriyyət xroniki "sinematoqraf xəstəliyinə tutuldu..."

Azərbaycanda da kinoya həmişə böyük maraq olub. Əvvəlcə tarixə nəzər salaq. Azərbaycan Şərqlə Qərb mədəniyyətlərinin qovuşduğu məkan kimi daim diqqət mərkəzində olub. Böyük İpək yolu üzərində yerləşməsi, burada "qara qızıl"ın üzə çıxması uzaq məmləkətlərdən ölkəmizə insan axını yaradıb. Həmin dövrlərdə Azərbaycana artan maraq təbii idi. Ən diqqətçəkən məqam isə Fransada ixtira edilən sinematoqrafiyanın çox keçmədən Bakıda peyda olması idi. Neft Bakısında yerli həyat tərzindən bəhs edən müxtəlif mövzulu ilk kinosüjetlərin çəkilməsi bir daha Azərbaycanın mədəniyyət mərkəzinə çevrilməsi anlamını verirdi. 1898-ci il yanvarın 8-də Bakıda ilk dəfə olaraq xarici filmlər göstərilib. Həmin il iyun ayının 21-də isə paytaxtda Vasili Vyatskinin teatr-sirkində Bakı həyatından bəhs edən "Şəhər bağında xalq gəzintisi", "Qatarın dəmiryol stansiyasına daxil olması", "Qafqaz və Merkuri" Cəmiyyətinə məxsus gəminin yola salınması" və "Bazar küçəsi sübhçağı" kinosüjetləri göstərilib. 1900-cü ildə Parisdə keçirilən Ümumdünya Kino Sərgisində nümayiş etdirilən həmin filmdə, eləcə də sonralar ekranlaşdırılmış əsərlərin ayrı-ayrı epizodlarında böyük sənətkarlıq nümunəsi yaradan səhnə və ekran fədailərinin adları dillərdə əzbərə çevrilib. "Neft və milyonlar səltənətində", "Mavi dənizin sahillərində", "Kəndlilər", "Arşın mal alan", "O olmasın, bu olsun", "Uzaq sahillərdə", "Şərikli çörək", "Uşaqlığın son gecəsi", "Gün keçdi", "Bir cənub şəhərində", "İstintaq", "Babək", "Dənizi fəth edənlər", "Xəzər neftçiləri haqqında dastan" və s. kimi filmlər xalqımızın yaddaşında qalmaqla yanaşı, dünya kinosevərlərinin unutmadığı ekran əsərləri sırasında da yer alıb. Onlar habelə keçmiş SSRİ məkanında, həmçinin Avropa, Yaxın və Uzaq Şərqdə maraqla qarşılanaraq, müxtəlif beynəlxalq kinofestivalların mükafatına layiq görülüb, kinematoqrafiyanın inkişafında mühüm əhəmiyyət daşıyıblar.

Əlbəttə, zaman keçdikcə, Azərbaycanda kinoya maraq artdıqca, ona dövlət qayğısı da unudulmayıb. Bu da xüsusən Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu hər iki dövrə və son illərə təsadüf edir. Ulu Öndər Heydər Əliyevin 18 dekabr 2000-ci il tarixli Sərəncamı ilə hər il avqustun 2-si Azərbaycan Kinosu Günü kimi qeyd edilir. Milli kinomuzun ötən dövrlər ərzində bir çox uğurlara nail olması ürəkaçandır.

Kinematoqrafçıların dəstəyi, rejissorlarla aktyorların sənət yanğısı ilə çəkilmiş "Nakəs", "Qətl günü" "Pəncərə", "Təhminə", "Dağıdılmış körpü", "Yuxu", "Vahimə", "Nə gözəldir bu dünya", "Yük" və digər filmlərimiz tamaşaçı qəlbinə yol tapan ekran əsərləri sırasındadır.

Filmlərimizin beynəlxalq kinofestivallarda qazandığı uğurlar onların dünyanın ən aparıcı kinoteatrlarının salonlarında nümayişinə səbəb olub.

2006-2010-cu illərdə Azərbaycan filmləri 40-a yaxın ölkədə 90-dan artıq beynəlxalq festivalda iştirak edib. Son illər çəkilən "Çalış, nəfəs alma", "Lal çinar", "Qanadlarıma sığal çək", "Yalançılar" və s. qısametrajlı filmlər də məhz bu sıradandır.

Azərbaycan kinosunun uzunömürlülüyündə korifey sənətkarlarımızın xidmətləri danılmazdır. Xalqımızın bu sahədə əvəzsiz xidmətləri ilə qəlbini ofsunlayan Həsən Seyidbəylini, Adil İsgəndərovu, Ələsgər Ələkbərovu, Lütfəli Abdullayevi, Bəşir Səfəroğlunu, Muxtar Dadaşovu, Əliağa Ağayevi, Səməndər Rzayevi, Həsən Əblucu, Hamlet Xanızadəni, Nəsibə Zeynalovanı, Leyla Bədirbəylini, Amalya Pənahovanı, Mikayıl Mirzəni, Rasim Balayevi, Fuad Poladovu, Ramiz Məlikovu, Sənubər İsgəndərlini və eləcə də adlarını sadalaya bilmədiyimiz yüzlərlə gənc və peşəkar sənət fədaisini xatırlamaq yerinə düşərdi. Son illər kinoya dövlət qayğısı, bu sahənin korifey sənətkarına diqqət müxtəlif formada özünü göstərir.

Məsələn, kino xadimlərinin xatirə gecələrinin keçirilməsi də bir daha dövlətimizin və onun başçısının adıçəkilən sahənin inkişafına xüsusi diqqət və qayğısının bariz nümunəsidir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

◆ Dünya gündəmi

# Qlobal böhran və miqrasiya dərdi

## Avropa 2022-ci ilə ciddi problemlərlə daxil olur

Koronavirus pandemiyası, miqrasiya məsələləri, mərkəzdənqaçma qüvvələrinə qarşı və ümumavropa dəyərlərinin qorunması uğrunda mübarizə. Bunlar 2022-ci ildə Avropa İttifaqının (Aİ) həll etməli olduğu əsas problemlərdir.



© Matthias Bein/dpa/picture alliance

Yeni il ərəfəsində Avropa İttifaqı üçün "pandemiya" sözü ötən ilin rəmzi olub. 2022-ci ildə də bu bəlaya qarşı mübarizə əsas mövzu olacaq. Almaniyanın yeni səhiyyə naziri Karl Lauterbahın fikrincə, pandemiya bundan əvvəl düşündüyümüzdən daha uzun sürəcək. Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen isə bildirir ki, bu günlərdə Avropanı əhatə edən koronavirus infeksiyasının dördüncü dalğası kifayət qədər ağır olsa da, 2022-ci ildə bizi daha ciddi sınaq gözləyə bilər.

### Vaksinasiya ən vacib məsələdir

Fon der Lyayen deyir ki, biz yeni təhlükə - "omikron" variantı ilə üzləşmişik. Aİ peyvəndləmənin sürətini artırmaqla onunla mübarizə aparmalıdır. "Alimlər bizə vaksinasiya və revaksinasiyanın COVID-19-dan ən etibarlı müdafiəni təmin etdiyini söyləyirlər",- deyə o bildirib və əlavə edib ki, Aİ istehsalçı şirkətlərlə müvafiq müqavilələr bağlayıb və lazım olduqda vaksinlər mutasiyalara uyğunlaşdırıla bilər.

Keçən il Avropa Komissiyası Aİ vətəndaşları üçün təxminən bir milyard doza vaksin alıb. Digər 350 milyon doza Birləşmiş Millətlər Təşkilatının "Covax" peyvənd üçün beynəlxalq kampaniyasına verilib. Aİ yeni ildə vaksin satın almaqda davam edəcək. "Yeni ildə məqsəd - dünya əhalisinin 70 faizinin tam vaksinləşdirilməsini təmin etməkdir. Vaksinasiya göstəricilərinin ən aşağı səviyyədə olduğu Afrikaya dəstək vermək üçün səylərimizi gücləndirəcəyik", - deyə Ursula von der Lyayen vurğulayıb.

### Aİ-nin bəzi dövlətlərində peyvəndlənmə faizi çox aşağıdır

Brüssel 2021-ci ildə vaksinləri əvvəlcə ləng, sonra isə getdikcə planlı şəkildə alırdı. Yazda koronavirus infeksiyasının növbəti dalğası yatdıqdan sonra nisbətən sakit bir yay gəldi. Bütün Avropa İttifaqı üzrə gecə həyatı yenidən bərpa olundu, məktəblər açıldı, çimərlik istirahətinə icazə verildi. Lakin Aİ-də yetkin əhali arasında əldə edilən 66 faizlik orta peyvənd səviyyəsi payızda yeni infeksiya dalğasının qarşısını almaq üçün kifayət etmədi və bəzi ölkələrdə xəstəxanalarda yerlərin olmaması ilə bağlı problemlər meydana gəldi.

Aİ-də peyvənd göstəriciləri çox fərqlidir: Bolqarıstanda 26 faiz, Maltada 82 faizdir. Bununla belə, pandemiyaya qarşı mübarizə üçün Aİ-yə daxil olan ölkələr: peyvənd kampaniyasının keçirilməsi, məhdudlaşdırıcı tədbirlərin tətbiqi, iş yerlərində, mağazalarda, restoranlarda və ya məktəblərdə testin təşkili üçün məsuliyyət daşımalıdırlar. Aİ yalnız kənardan müxtəlif tədbirlər və qaydaların qarışıqlığını müşahidə edirdi. Lakin Brüssel ümumavropa peyvənd pasportu ilə Aİ-nin daxili sərhədlərinin şəffaflığını, əhəmiyyətli dərəcədə qoruyub saxlaya bilib.

### Aİ-də məcburi vaksinasiya?

Avstriyada və Almaniyada ümumi məcburi vaksinasiya tətbiq etmək istəyirlər. Yunanıstan, İtaliya və digər ölkələr bunu yalnız müəyyən peşəkar və ya yaş qrupları üçün nəzərdə tutublar.

2022-ci ildə Aİ ölkələrinin səhiyyə nazirləri təcili olaraq Aİ-nin bütün ərazisində məcburi peyvəndin tətbiq edilməsinin vacib olub-olmadığını müzakirə etməlidirlər. Məsələn, belə bir sual ortaya çıxacaq: peyvəndlənmənin məcburi olduğu Almaniya Aİ-nin digər dövlətlərdən olan vaksin almayan vətəndaşlarına ölkəyə daxil olmağa icazə verəcəkmi?

### İqtisadiyyatın bərpası və qanunun aliliyi

2021-ci ildə Aİ-də başlayan iqtisadiyyatın bərpası 2022-ci ildə davam etdirilməli və maksimum genişləndirilməlidir. Müəyyən məqamda Aİ-yə üzv olan ölkələrin büdcələrini də qaydaya salmaq lazımdır. Artıq ilk tranşların ödənildiyi, Aİ-nin 750 milyard avro dəyərində yenidənqurma proqramı iqtisadiyyatın bərpası alətidir. İlk dəfə birgə borc öhdəlikləri hesabına maliyyələşdirilən bu proqram Aİ-nin cənubunda və şərqindəki ölkələrə, ilk növbədə, İtaliyaya fayda gətirəcək.

Polşa və Macarıstan hələlik heç bir pul almırlar. Onlar investisiya proqramlarını təqdim ediblər, lakin Avropa Komissiyası Varşavada və Budapeştdə qanunun aliliyi ilə bağlı münaqişə aradan qaldırılmayana qədər ödəniş etmək istəmir. 2021-ci il Avropa İttifaqının hüquqi sistemi və əsas dəyərləri haqqında şiddətli mübahisə ilə yadda qaldı. Belə ki, bu sistem və dəyərlər Polşa və Macarıstandakı milli mühafizəkar hökumətlər tərəfindən ya şübhəyə alınır, ya da rədd edilir.

2022-ci ildə Aİ daxilində mərkəzdənqaçma qüvvələri güclənə bilər. İndi Almaniyanın kansleri Angela Merkel Avropanın siyasi səhnəsini tərk etdiyi bir vaxtda, məsələ həlledici savaşa qədər çıxa bilər. Hər halda, bunu Macarıstanın Baş naziri Viktor Orban bəyan edir: "Bir şeyi əminliklə demək olar. Merkel ilə ikimənalılıq, qeyri-müəyyənlik və susqunluq dövrü sona çatdı. İndi biz açıq döyüşməyə hazırlaşırıq".

### Makron Avropanı dəyişdirməyi planlaşdırır

2022-ci ildə bütün diqqət Fransaya yönələcək. Fransa Prezidenti Emmanuel Makron aprel ayında yenidən seçkilərə qatılacaq. Eyni zamanda, o, Avropa İttifaqı Şurasının sədri vəzifəsini tutacaq. Sağçı siyasətçilərlə seçkiqabağı mübarizədə Makron Avropanı, vəd etdiyi kimi, dəyişdiyini göstərmək istəyir. İlk növbədə, Fransa lideri Avropa İttifaqını xarici siyasətdə strateji, "suveren" oyunçu etmək niyyətindədir. 2022-ci ilin yazında "strateji sammitdə" o, Aİ ölkələrinin hökumətlərini Çin, ABŞ, Rusiya və digər dünya ilə bağlı xarici siyasi məqsədlər ətrafında birləşdirməyi planlaşdırır.

Bunun üçün Aİ-nin xarici və müdafiə siyasəti bir-biri ilə daha sıx bağlı olmalıdır. Angela Merkeldən sonra Makron Almaniyanın yeni kansleri Olaf Şoltsun timsalında öz planları üçün müttəfiq tapmağa ümid edir.

### Közərən dram - miqrasiya

Miqrasiya və sığınacaq verilməsi məsələləri Aİ-də mübahisələrin daimi mövzusudur. Özü də söhbət yalnız Belarusla sərhəddə deyil, həm də La-Manş, Kanar adaları, İtaliya, Yunanıstan sahillərində də yaşananlardan gedir. 2021-ci ildə heç bir qərar qəbul olunmayıb.

Bəs, 2022-ci ildə nə baş verəcək? İnsanlar ölkələrə buraxılmamalı və ya qəbul olunmalı və paylanmalıdır? Bu, hələ də ən vacib suallardır.

Bu arada, "Amnesty İnternational" beynəlxalq hüquq müdafiə təşkilatı Aİ-ni əvvəlki kimi, insan hüquqlarına və adamların sığınacaq almaq hüquqlarına etinasızlıqda, həmçinin insanları təhlükəli səyahətlərə məcbur etməkdə günahlandırır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# "SOCAR PETROLEUM" Zaqatala rayonunda yeni yanacaqdoldurma məntəqəsini istifadəyə verdi

Zaqatala rayonu, Zaqatala-Balakən avtomagistralının üzərində "SOCAR" brendi altında yeni yanacaqdoldurma məntəqəsi (YDM) istifadəyə verildi.




Bununla da ümumilikdə respublikamızda "SOCAR" brendi altında fəaliyyət göstərən YDM-lərin sayı 42-yə çatdırıldı. Zaqatala rayonu daxil olmaqla Zaqatala-Balakən istiqamətində hərəkət edən avtonəqliyyat vasitəsi sahibləri üçün bu YDM daha əlverişlidir.

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, yeni istifadəyə verilmiş məntəqədə 3 yanacaqpaylayıcı kalonka quraşdırılmışdır. Beləliklə, bu yanacaqdoldurma məntəqəsində "Premium", "A-92" markalı benzin və "Dizel" tipli yanacaq məhsullarının satışı reallaşdırılacaq. Bununla da 4 kiçik avtonəqliyyat vasitəsi və iki iritutumlu yük maşınının eyni anda yanacaqla təmin edilməsi üçün şərait yaradılıbdır.




Xatırladaq ki, "SOCAR PETROLEUM" QSC-nin (QSC) 42 YDM şəbəkəsi və 11 neft terminal bazası fəaliyyət göstərir. Respublikada yeganə sıxılmış təbii qaz (CNG) terminalı və CNG şəbəkəsi olan QSC, ekoloji baxımdan təmiz olan CNG yanacağının tətbiqində liderdir. "SOCAR" brendi ilə fəaliyyət göstərən YDM-lərdə hər bir müştəri üçün yanacağın həcm dəqiqliyini yoxlamaq imkanı və digər üstünlüklər vardır.

# "Əlillik qüsur deyil" kitab-albomunun ikinci nəşrinin təqdimatı olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 103 illiyi ilə əlaqədar nazirlik tərəfindən hazırlanmış "Əlillik qüsur deyil" kitab-albomunun ikinci nəşrinin təqdimatı keçirilib.




AZƏRTAC xəbər verir ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, təhsil naziri Emin Əmrullayev, mədəniyyət naziri Anar Kərimov, millət vəkilləri, mədəniyyət və incəsənət xadimləri, əlilliyi olan istedadlı şəxslər və s. iştirak ediblər.

Mərkəzin foyesində "Nizami Gəncəvi ili"nin yekunlarına həsr edilmiş əlilliyi olan şəxslərin rəsm əsərlərindən ibarət sərgi keçirilib. Sərgidə təqdim edilən əsərlər dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə, onun yaradıcılığına həsr olunub.

"Əlillik qüsur deyil" kitab-albomunun təqdimat tədbirində S.Babayev nazirliyin tarixi, keçdiyi inkişaf yolu, ölkəmizdə icra edilən sosial siyasətin əsas istiqamətləri barədə məlumat verib. Nazir Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişləndiyini, sosial ödənişlərdə artımların ardıcıl xarakter aldığını diqqətə çatdırıb.

O, 2021-ci ilin oktyabrında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasında rolunu xüsusi vurğulayıb. Bildirib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəz əlilliyi olan şəxslər və digər həssas qruplar üçün Cənubi Qafqazda ilk dəfə olaraq çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır.

S.Babayev əlilliyi olanların istedad və qabiliyyətlərinin aşkara çıxarılaraq cəmiyyətə tanıdılması tədbirlərini diqqətə çatdıraraq qeyd edib ki, bu il də əlilliyi olan şəxslərin əl işlərinin 10 satış-sərgisi, həmin şəxslərin XI Ümumrespublika Yaradıcılıq Sərgi-müsabiqəsi keçirilib. Ötən dövrdə nazirliyin dəstəyi ilə yaradıcı əlilliyi olan şəxslərin iştirak etdiyi müxtəlif tamaşalar, onların yaradıcılıq potensialının cəmiyyətə tanıdılması, sosial inklüzivliyi təbliğ edən müxtəlif layihələr hazırlanaraq həyata keçirilib.

Nazirliyin layihəsi kimi, 2018-ci ilin dekabrında sosial müəssisələrin 60-dək istedadlı sakini və yaradıcılıq nümunələri barədə məlumatları əhatə edən ilk nəşr olaraq 278 səhifəlik "Əlillik qüsur deyil" kitab-albomu nəşr edilib. Azərbaycan və ingilis dillərində olan kitab-albomun yeni, ikinci nəşrində də əlilliyi olan şəxslərin yaradıcı potensialı barədə məlumatlar yerləşdirilib.

Hər iki nəşr geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Məqsəd əlilliyin heç də bir qüsur və mənsub olduğun cəmiyyətin sıralarında uğurla addımlamaq üçün maneə olmadığı mesajını öz uğur hekayəsini yaradan əlilliyi olan şəxslərin timsalında bir daha cəmiyyətə çatdırmaqdır.

Tədbirdə çıxış edən Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, ikiqat Paralimpiya Oyunları çempionu , cüdoçu İlham Zəkiyev və DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin üzvü Cəmilə Məmmədli Azərbaycanda sosial sahədə aparılan genişmiqyaslı islahatların, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün atılan mühüm addımların dövlət başçısının güclü sosial siyasətinin təzahürü olduğunu vurğulayıblar.

Tədbir iştirakçıları DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində əlilliyi olan şəxslərin yaradıcı potensialının inkişaf etdirilməsi üçün yaradılan şəraitlə də tanış olublar.

# Paşinyan Qarabağın ermənilərə məxsus olmadığını bəyan etdi

Baş nazir Nikol Paşinyanın timsalında Ermənistan tərəfdən Qarabağ məsələsi ilə bağlı son günlərdə konstruktiv fikirlər səslənir. Azərbaycan tərəfi bunu alqışlayır və əslində erməni cəmiyyəti də bunun ilk növbədə, Ermənistanın xeyrinə olduğunun fərqindədir. Əgər Ermənistan Azərbaycanla münasibətləri kompleks şəkildə həll etmək istəyirsə, rəsmi Bakı bunu yalnız alqışlaya bilər.

Sərhədlərin demarkasiyası, Zəngəzur dəhlizinin açılması, ikitərəfli münasibətlərin daha geniş spektr alması - bütün bunlar ölkələrarası münasibətlərin inkişafı üçün böyük önəm kəsb edir. Hər halda bunu Paşinyan da qəbul edir.

Ermənistanın baş naziri sosial şəbəkə hesabında canlı yayımda mətbuat konfransı keçirib və bir sıra ciddi bəyanatlar verib. Ermənistan hökumətinin başçısı xatırladıb ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb, lakin o vaxtdan bəri regionun statusu məsələsi ilə ATƏT-in Minsk qrupu məşğul olub. 2016-cı ildə isə status məsələsi yenidən BMT Təhlükəsizlik Şurasına qaytarılıb və bu, Paşinyanın fikrincə, Ermənistan üçün "fəlakət" idi, çünki bu mötəbər beynəlxalq qurum çərçivəsində Qarabağın statusu ilə hesablaşmaq mümkün deyil.

"Qarabağda yaşayan azərbaycanlıların hüquqları ilə bağlı məsələ mübahisəli olmayıb və olmayacaq. Mən bu barədə dəfələrlə ictimaiyyət qarşısında çıxış etmişəm. Ən azı bu hissədə əvvəllər danışıqlarda iştirak etmiş dairələrin nümayəndələri təsdiqlədilər ki, Dağlıq Qarabağ Muxtar Vilayəti danışıqlar prosesində heç vaxt sırf erməni birliyi kimi nəzərə alınmayıb. Dağlıq Qarabağ Muxtar Vilayəti heç vaxt sırf erməni birliyi hesab edilməyib. Bu, ən azı əhali baxımından erməni-Azərbaycan birliyi kimi qəbul edilib, müşahidə edilib, qeydə alınıb" - deyə Paşinyan xatırladıb.

Ermənistanın baş naziri həmçinin bəyan edib ki, o, əvvəlki hakimiyyətin "Qarabağ heç vaxt Azərbaycanın bir hissəsi olmayacaq və yalnız Ermənistanın olmalıdır" ifadəsi ilə heç vaxt razılaşmayıb. "Mən bu ifadə ilə razı deyiləm, çünki Qarabağ tamamilə erməni ola bilməzdi. Əhalinin demoqrafik tərkibini nəzərə alsaq, heç bir halda. Danışıqların məzmunundan aydın görünürdü ki, Dağlıq Qarabağ Muxtar Vilayətində erməni və azərbaycanlı əhali yaşayır. Aydındır ki, Qarabağdakı hakimiyyət də tam erməni ola bilməz" - deyə o, məxfi məlumatları açıqlamalı olduğuna işarə edib.

Paşinyanın istək və niyyətlərinin reallaşması, Ermənistanın konstruktiv dialoqa başlaması bölgədə möhkəm və uzunmüddətli sülhün bərqərar olmasına gətirib çıxaracaq. Dinc inkişafın vacib şərtlərindən biri olan əlaqələrin qurulması üçün yeni bir fürsət yaradılacaq. Bu mənada seçim erməni cəmiyyətinindir: ya fəlakət girdabında boğulmaq, ya da Azərbaycanla normal əlaqələr qurub inkişaf yoluna çıxmaq.

Çünki Ermənistanda siyasi, sosial-iqtisadi və digər sahələrdə yaranan və gündən-günə dərinləşməkdə olan problemlər əhalidə yaxın gələcəkdə xilas üçün heç bir ümid yeri qoymayıb. Beynəlxalq təşkilatların Ermənistanda keçirdiyi ictimai rəy sorğusunda respondentlərin 28 faizi iqtisadi vəziyyəti və işsizliyi əsas problem hesab etdiyinə diqqət çəkir. Ümumilikdə Qarabağ məsələsi insanların yalnız 9 faizini, millət və sərhəd problemləri 5 faizini, Ermənistanın milli təhlükəsizlik məsələsi isə 3 faizini maraqlandırır.

Ümumiyyətlə, müharibədən sonra beynəlxalq təşkilatların Ermənistanda keçirdiyi sorğulardan belə nəticəyə gəlmək olar ki, cəmiyyətin böyük əksəriyyəti sosial-iqtisadi problemlər içində yaşayır. Eyni zamanda, insanlar baş nazir Nikol Paşinyana həqiqi alternativ görmürlər, çünki müxalifət elitasının küçədə dayanan hissəsi cəmiyyətin əksəriyyəti üçün maraq kəsb etməyən məsələ və mesajlarla çıxış edir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***







## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları, Əməkdar jurnalist

**ƏHMƏD İSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Tələbə işləri mərkəzinin direktoru Xalidə Yusifovaya anası

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin İqtisadiyyat kafedrasının müdiri, dosent Lalə Mahmudovaya atası

**FƏQAİL MAHMUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5586
Sifariş 2777
Qiyməti 40 qəpik